www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 avqust 2014-cü il Cümə axşamı № 209 (5918) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda daha bir avtobus qəzası - 15 yaralı

yazısı səh.2-də

**Gündəm**

### Sülh danışıqları ilə bağlı yeni ideya və köhnə ittiham


Sabina Freyzer

Sabina Freyzer tərəflərin sülhdən uzaqlaşmasının səbəbini həmsədrlərdə görür; iqtidaryönlü politoloq Azərbaycan və Ermənistan üçün Rusiyanın iştirakı ilə hazırlanacaq yeni "yol xəritəsi" təklif edir...

yazısı səh.11-də

### Müsavat Partiyası qurultayla bağlı qərarını açıqladı

yazısı səh.5-də

### Azərbaycanda Qərbi niyə sevmirlər?

yazısı səh.6-da

### "Sınıq Körpü" Buraxılış Məntəqəsinin bir qoçusu var...

yazısı səh.12-də

### Yezidi kürdlərə Azərbaycandan yardım getməsi məsələsi böyüdü

yazısı səh.7-də

### AXCP ilə ADP arasında savaş

yazısı səh.6-da

### Cəlilabad Əziz Əzizova niyə əziz deyil?

yazısı səh.13-də

### Azərbaycan-Türkiyə-Gürcüstan hərbi əməkdaşlığı bloka çevrilə bilər

yazısı səh.8-də

### 3 günlük müharibədə şəhid olanların ailələrindən son xəbər

yazısı səh.10-da

### Dözülməz şəraitdə yaşayan Qarabağ qaziləri

yazısı səh.12-də

### Hüquq müdafiəçisindən həbsdəki vitse-admirala yeni ittihamlar

yazısı səh.14-də

### Kondisioner barədə bilmədiklərimiz

yazısı səh.13-də

### Nəqliyyat qoçusu polisi döydü

yazısı səh.2-də

## Bakıda öldürülən Almaniya vətəndaşının anasından dəhşətli açıqlamalar

# TARİYEL AĞAYEVİN ADI KEÇƏN QƏTL İŞİNDƏ YENİ ŞOK FAKTLAR

Vüsal Şilderin anası istintaqın gedişindən narazıdır; cinayətdə adı hallanan Xəyal Əlizadə Mətanət Şilderi küçə söyüşləri ilə təhqir edib; Prezident Administrasiyasının işçisinin qızı isə atasının qətldə əlinin olduğunu etiraf edib



yazısı səh.5-də

# Medvedyevin gözlənilən İrəvan səfərinin pərdəarxası

Sanksiyalardan boğulan Rusiyanın baş naziri Ermənistanı iqtisadi kollapsdan qurtarmağa gedir, yoxsa iqtidardakı Qarabağ klanını xilas eləməyə?

yazısı səh.9-da



### İsgəndər Həmidovun partiyası meşədə qurultay keçirəcək

yazısı səh.6-da


Əbu-Bəkir Əl Bağdadi

### Amerika senatorları İŞİD vahiməsində

yazısı səh.9-da



*Hacı Qalib:*

### "Zəngilanlı gəlib Bilgəhdə nə iş görə bilər?"

yazısı səh.4-də

# İlham Əliyev daha bir yolun tikintisinə pul ayırdı



**Azərbaycan prezidenti İlham Əliyev Tovuz rayonunun Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

"Qafqazinfo" xəbər verir ki, otuz iki min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun tikintisi məqsədilə 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Tovuz Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılıb.

Qeyd edək ki, son həftələrdə ölkə başçısı bir sıra rayonlarda yol çəkilişlərinə pul ayırıb.

# Yəməndə yenidən ayaqlanma

**Yəməndə Husi hərəkatı yenidən fəallaşıb. Hərəkatın lideri Əbdülməlik əl-Husi hökuməti devirmək üçün bütün husiləri küçələrə çıxmağa çağırıb. Mövcud hökumətin verdiyi vədləri yerinə yetirmədiyini və gücsüz olduğunu bildirən əl-Husi tələblərinin yerinə yetirilməsi üçün hökumətə cümə gününə qədər vaxt verdiklərini bildirib.**

Eyni zamanda hərəkat lideri ölkənin bütün bölgələrindən şiələrin paytaxta doğru yürüşə çıxmasını istəyib. Ancaq Husilərin hərəkətə keçməsi və paytaxta doğru yürüşü toqquşmalara səbəb olub. Yəmənin əl-İmran əyalətində Haşid qəbiləsi Husilərin irəliləməsinin qarşısını almaq üçün hücuma keçib. Mənbə ötən həftənin cümə günündən indiyə qədər gedən qarşıdurmalarda 75-dən çox insanın öldüyünü bildirib. Ölənlərin əksəriyyəti husilərə mənsub silahlılardır. əl-İmran əyalətində gedən qarşıdurmalarda Husilər irəliləyiblər və əl-Hus və əl-Xumməri şəhərlərini ələ keçiriblər.

Qeyd edək ki, bu ilin əvvəlində də Yəmən "11 yanvar" Hərəkatının lideri Naif əl-Kanis isə bəyan edib ki, hökumət husilərin tələblərini yerinə yetirməyəcəyi təqdirdə inqilab başladacaqlar və hökuməti devirəcəklər. Beynəlxalq media orqanlarının yazdığına görə, artıq bu çağırışlar nəticəsində minlərlə yəmənli paytaxta doğru axışır. Artıq minlərlə Husi hərəkatı tərəfdarı ölkənin şimalında yerləşən Umran şəhərinin girişini bağlayıblar. Şiələr yaşayan bölgələrdə hökumət qüvvələri ilə baş verən toqquşmada isə 12 nəfər öldürülüb.

Şiə əhalisinin ayaqlanması Yəmən hökumətini narahat edib və artıq üsyanın dayandırılması üçün vasitəçi olaraq İrana müraciət olunub. Husi hərəkatı bəyan edib ki, İslami İslah Partiyasından olan əyalət rəhbərliyi və ordu komandanlığını dəyişdirilməlidir. Ancaq o da məlum olub ki, prezident Əbdurabbi Mansur husilərin tələblərini yerinə yetirməyi söz versə də, sonradan vədinə əməl etməyib.

**Xatırladaq ki, Yəməndə Husi hərəkatının ən güclü üsyanı 2009-cu ildə baş verib. Həmin vaxt silahlı Husi qrupları hökumət qüvvələri ilə uzun müddət savaşmışdı. 2011-ci ilin əvvəlində isə Yəməndə "ərəb baharı" dalğasında etiraz aksiyaları başlayıb. Uzun sürən etirazlardan sonra 30 il ölkəyə rəhbərlik etmiş Əli Abdullah Saleh istefaya getmişdi.**

❑ **KƏNAN**

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

*«QAYA MƏTBUAT YAYIMI» MMC!*
*İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:*

■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

*Ən başlıcası gündəlik*
*«Yeni Musavat » qəzetinə–0,40 man*
*və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.*

■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Nəqliyyat qoçusu polisi döydü

**Nəqliyyat Nazirliyi Nəqliyyat Departamentinin əməkdaşları polis əməkdaşını döyüblər. Bu məlumat vesti.az-a Yasamal Rayon Polis İdarəsi 29-cu polis bölməsindən verilib. Xəbərə görə, Nəqliyyat Departamentinin Ruslan adlı əməkdaşı avqustun 19-da saat 21:20 radələrində paytaxtın M.Həsənov küçəsi, 1 saylı binanın qarşısında 1986-cı il təvəllüdlü Mehdiyev Aqil Nurəddin oğlunu döyüb. A.Mehdiyev Daxili İşlər Nazirliyi Təchizat İdarəsinin əməkdaşı, polis serjantıdır.**





Amma Ziya Məmmədovun nəqliyyatçı qoçusu bunu bilməyib. Çünki A.Mehdiyev döyülən vaxt mülki geyimdə olub. Döyülən polis əməkdaşı baş vermiş insident barədə dərhal 102 xidmətini məlumatlandırıb. Bununla belə Nəqliyyat Departamentinin Ruslan adlı əməkdaşının şəxsiyyəti hələ tamam aydınlaşdırılmayıb. Bu istiqamətdə araşdırmalar davam edir. Polis bölməsindən bildiriblər ki, olay bütün xırdalıqlarına qədər araşdırılacaq və günahkar cəzalandırılacaq. Yada salaq ki, mətbuatın bu mövzunu dəfələrlə gündəmə gətirməyinə və diqqət mərkəzində saxlamağına baxmayaraq Nəqliyyat Nazirliyi əməkdaşlarının özbaşınalığı dayanmır. Onlar hələ də sürücüləri, sıravi vətəndaşları saxlayaraq onları döyür, incidir. Cəzası qalmalarından sui-istifadə edən Nəqliyyat Nazirliyinin müfəttişi bu günlərdə daha bir sürücünü saxlayıb döymüşdü. Həmin sürücü də DİN əməkdaşı idi.



# Rəsul Cəfərov həbsdə qaldı

**Nəsimi rayon məhkəməsi hakim Şəlalə Həsənovanın sədrliyi ilə çərşənbə günü hüquq müdafiəçisi Rəsul Cəfərov barədə həbs qət-imkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi barədə vəsatətə baxıb.**

Vəkil Fariz Namazlı "Turan"a vəsatətin təmin olunmadığını bildirib.

Onun sözlərinə görə, qarşı tərəfin əsas arqumentləri bundan ibarət olub ki, Rəsul Cəfərov istintaqdan qaçıb gizlənə və ya sübutları saxtalaşdıra billər.

Prosesdə çıxış edən R. Cəfərov ittiham tərəfinin arqumentlərinin heç bir əsası olmadığını və hüquq müdafiə fəaliyyətinə görə həbsə alındığını bəyan edib.

Vəkil F.Namazlı qərardan apelyasiya şikayəti verəcəyini bildirib.

Qeyd edək ki Nəsimi rayon məhkəməsinin qərarı ilə R.Cəfərov barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Baş Prokurorluğun Ağır Cinayətlər dair İşlər üzrə İstintaq İdarəsi hüquq müdafiəçisinə cinayət məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 213-cü (vergi ödəməkdən yayınma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham irəli sürülüb. R.Cəfərov özünü günahkar hesab etmir.Amnesty İnternational Rəsul Cəfərovu vicdan məhbusu elan edib.

# Kəbirə Məmmədovadan erməni şəriki haqda açıqlama

## "Məni gözdən salmağın kimə lazım olması mənim üçün çox maraqlıdır"

**"Binə" ticarət mərkəzinin rəhbəri Kəbirə Məmmədovanın imzası ilə "Yeni Müsavat"ın redaksiyasına məktub daxil olub. Məktubu olduğu kimi dərc edirik:**

"Hörmətli redaksiya!

"Yeni Müsavat" qəzetinin 19 avqust 2014-cü il tarixli 207(5916) nömrəli sayında ""Binə"nin sahibi barədə şok xəbər və Kəbirə Məmmədovanın erməni şərikinin olması haqda müdhiş məlumat" başlığı altında dərc edilmiş yazıda Kəbirə Məmmədovanın şərəf və ləyaqətini alçaldan, işgüzar nüfuzuna xələl gətirən bir məlumat yazılmışdır.

Məqalədə göstərilir ki, "Onlardan biri də ticarət mərkəzinin sahibi, Kəbirə Məmmədovanın erməni şəriki Datodur. Türk iş adamlarının sözlərinə görə, Dato Kəbirə Məmmədovanın biznes imperiyasının şərikidir və özü də Moskvada fəaliyyət göstərir ".

Torpaqlarımızın 20 faizdən çox hissəsini məkrli niyyətlərlə zəbt edən, milyonlarla vətəndaşımızı evsiz-eşiksiz qoyan namərd bir düşməni mənə "şərik etmək" ən azından vicdansızlıqdır.

İş adamı kimi, böyük bir ticarət mərkəzinin rəhbəri olmaqla məni xalqın və ticarət mərkəzində fəaliyyət göstərən insanların gözündən salmağın kimə lazım olması mənim üçün çox maraqlıdır.

Cəbhə xəttində olan gərginliklərin hökm sürdüyü bir vaxtda məni ermənilərlə şərik etməkdə suçlamağı Teymur Həsənliyə məsləhət görməzdim. Ən azından bu düşmən "dəyirmanına su tökmək" kimi bir şeydir. Bu kimi yalan məlumatların KİV-də dərc olunması bizim xalqı məlumatlandırmaqdan daha çox, düşmən qüvvələrinə diversiya-təxribat fəaliyyətlərində xidmət etmiş olur. Eyni zamanda da "KİV haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə də ziddir.

Bir daha bəyan edirəm ki, mənim Moskvada nə Dato adlı, nə də ki, bir digər xalqıma düşmən kəsilən xalqın nümayəndələri ilə şərikliyim yoxdur.

Hörmətlə,
Kəbirə Məmmədova."

Xatırladaq ki, "Yeni Müsavat"ın 19 avqust, 2014-cü il tarixli sayında "Kəbirə Məmmədovanın erməni şərikinin olması haqda müdhiş məlumat" başlıqlı yazıda bildirilirdi ki, Dato adlı erməninin Bakıda fəaliyyət göstərən "Binə" ticarət mərkəzində xeyli dükanları var. Yazıda Datonun "Binə"nin rəhbəri K.Məmmədova ilə şərik olduğu bildirilirdi.

❑ **Musavat.com**

# Bakıda daha bir vəhhabi əməliyyatı - Təşkilat rəhbəri saxlanıldı

**Azərbaycan hüquq-mühafizə orqanları vəhhabilərə yaxınlığı ilə tanınan beynəlxalq şirkətin Bakı ofisində əməliyyat keçirib. Az-News.az-ın məlumatına görə, əməliyyat-axtarış tədbirləri mənzil-qərargahı Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay Əmirliyində yerləşən "Dar Al Ber" Humanitar təşkilatın Bakıda fəaliyyət göstərən ofisində həyata keçirilib.**

İki saata yaxın davam edən axtarışların sonunda ofisdə olan bəzi sənədlər və maddi sübutlar götürülüb. Bundan başqa ofisin əməkdaşları da saxlanılaraq, hüquq-mühafizə orqanına aparılıb.

Əməliyyatın motivi barədə hələlik heç bir əlavə məlumat verilmir.

# Bakıda avtobus aşdı - 15 yaralı

**Bakıda daha bir avtobus qəzası baş verib. Qaradağ Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Qaradağ rayonunun Səngəçal qəsəbəsi ərazisində qeydə alınıb. 195 saylı xətt üzrə hərəkət edən marşrut avtobusu yük avtomobili ilə toqquşub və aşıb. Nəticədə 10-dan çox sərnişin xəsarət alıb.**



Bakı şəhər Təcili Tibbi yardım Stansiyasından bildirilib ki, qəza nəticəsində 15 nəfər yaralı Klinik Tibbi Mərkəzə aparılıb.





# Dəhşətli qəzada ölən vəzifəli şəxsin oğlu imiş...

**Avqustun 19-da Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunda ölümlə nəticələnən yol nəqliyyat hadisəsi baş verib. APA-nın verdiyi məlumata görə, hadisə magistralın 110-cu km-də, Şabran rayonu ərazisində qeydə alınıb.**

10 SA 013 dövlət nömrə nişanlı "Mercedes" markalı minik maşını ilə 85 BS 389 dövlət nömrə nişanlı yük avtomaşını toqquşub. Qəza nəticəsində "Mercedes"in sürücüsü hadisə yerində ölüb. Fövqəladə Hallar Nazirliyinin xilasedicilərinin köməyi ilə meyit deformasiyaya uğramış maşından çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. Maşında olan sərnişin isə ağır bədən xəsarətləri ilə Siyəzən Regional Diaqnostika Mərkəzinə yerləşdirilib. Onun vəziyyətinin ağır olduğu bildirilir.

Bu gün həmin yol qəzası ilə bağlı bəzi məqamlar üzə çıxıb. Lent.az-ın məlumatına görə, Bakı-Quba yolunun 110-cu kilometrliyində "KamAZ" markalı yük maşınına çırpılan "Mercedes"i Bakı sakini, 34 yaşlı Sənan Quliyev idarə edirmiş. Avtomobildə olan sürücünün dostu Əfqan Əsgərovun isə ayaqları sınıb.

Saytın əldə etdiyi digər məlumata görə, dəhşətli qəzada ölən 34 yaşlı S.Quliev Səbayel rayonunda yerləşən 49 saylı "İntellekt" məktəb-liseyin direktoru, əməkdar müəllim Təhminə Əsədovanın oğludur.

**S.Quliyev subay olub. Faktla bağlı cinayət işi açılıb, araşdırmalar aparılır.**

# Amerika səfirindən Qarabağ açıqlaması

## "Təhdidlər və sərt ritorika işə kömək etmir"

**ANS PRESS-in məlumatına görə, bu haqda öz videomüraciətində ABŞ-ın Ermənistandakı səfiri Con Xeffern bildirib.**

Səfir Qarabağda və Ermənistan-Azərbaycan sərhədində bu yaxınlardakı gərginliyin artmasına toxunub: "Biz son hadisələr zamanı həlak olanların ailələrinə başsağlığımızı ifadə edirik, həmçinin yaralılara şəfqət diləyirik. Səfir Uorlik qeyd etdi ki, bu, dondurulmuş münaqişə deyil. Biz tərəfləri gərginliyin yumşalması və atəşin dayandırılması rejiminə riayət olunması üçün təşəbbüs etməyə çağırırıq", - deyə səfir qeyd edib.

**Onun sözlərinə görə, təhdidlər və sərt ritorika işə kömək etmir.** "Bu münaqişədə hərbi qərar yoxdur. Biz hər iki tərəfi ciddi danışıqlara başlamağa çağırırıq: haqq hesab aparmaq və sonrakı daha çox zorakılıq sülh yoluyla nizama salmanı çətinliyə salacaq. Həlak olanların xatirəsini ən yaxşı anmaq üsulu - bu dəqiqə toqquşmaları dayandırmaqdır", - deyə Con Xeffern bildirib.

YENİ MÜSAVAT
N 209 (5918) 21 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İş başında və ip başında

***(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)***

**Son 5-10 gün müharibə ritorikası aləmi başına götürmüşdü. Yalan-doğru hamı deyirdi ki, təki Lazım kişi gəlsin, silaha sarılmağa hazırdır. Hətta İlham Əliyev də öz twitter səhifəsində döyüşməyə hazır olan könüllülərin çox olduğunu qürurla qeyd edib. Təbii ki, bunların içində ürəkdən danışanlar da var, boğazdan yuxarı laf edənlər də. Umaram ki, ürəkdən danışanların sayı daha çoxdur. Müxalif düşərgədən olanların dediklərini də oxudum. Hamı bir ağızdan deyirdi ki, iqtidara münasibətinin necə olmasından asılı olmayaraq, Vətən uğrunda döyüşməyə hazırdır.**

Bu qəbildən olan insanların mütləq əksəriyyətinin yapçılardan fərqli olaraq, ürəkdən danışdıqlarına şübhə etmirəm. Müxalifətçi və keçmiş döyüşçü kimi mən özüm də ani tərəddüd etmədən Vətən uğrunda döyüşməyə hazıram. Hətta indi sizə deyəcəyim düşüncələrə sahib ola-ola.

Bu düşüncələrim ondan ibarətdir ki, müxalifətçilərin (xüsusən də tanınmış və fəal) könüllü döyüşə qatılacağı təqdirdə, mövcud iqtidar onları aradan götürməyə əla şans qazanacaq və bu unikal şansı qaçırmayacaq da. Arxadan bir güllə və müxalifətçi artıq yoxdur. Bunu bilə-bilə müharibəyə gedəcəyik və arxadan güllə dəymədən bir neçə düşmən əsgərini məhv etməyi Vətənə xidmət sayacağıq. Daha nə Amnnesty İnternational danışa biləcək, nə Avropa Şurası baş ağrıdacaq, nə də ki, Avropa İnsan Haqları Məhkəməsi Azərbaycan hökumətini rəzil günə qoyan qərar çıxardacaq. Xahiş edirəm, kimsə "bu qədər də ağ etməzlər" deyib tərəddüdə qapılmasın. 1993-cü ilin yayında qiyamla hakimiyyətə gəlmiş YAP iqtidarının Vətən uğrunda döyüşmüş müxalifətçiləri necə təqib etdiyini, şərləyib həbsə atdığını, hətta öldürdüyünü xatırlamırsınızsa, son bir-iki ildə ölkədə baş verənləri gözünüzün önünə gətirin. Azərbaycanı gözəlləşdirmək, hüquqi, demokratik, firavan cəmiyyətə çevirmək istəyən, korrupsiyaya, seçki saxtakarlığına və məmur özbaşınalığına qarşı mübarizə aparan nə qədər adamı şərləyib həbsə atıblar? Axı bu insanlar vətən üçün ancaq yaxşılıq etmək istəyiblər. Ancaq iqtidar onları Respublika Prokurorluğu, MTN, DİN və Ədliyyə Nazirliyinin (məhkəmələr) əli ilə tutub qazamata salır. Diqqət edin, bu qurumların başında duran hər bir şəxsin həmin quruma xas rütbələri var. Bu rütbələr orduda Zakir Həsənovun general rütbəsinə bərabərdir, yəni onlar da öz sahələrində generaldırlar. Əgər bu generallar istənilən ölkə vətəndaşı kimi müxalifətçilərin də hüquqlarının keşiyində durmalı, onların Vətən naminə apardıqları mübarizəsinə mane olmamalı, olduqları halda, onları şərləyib tuturlarsa (oxu: arxadan vururlarsa), biz nəyə görə düşünməliyik ki, general Zakir Həsənov bunu etməyəcək?

**İndi bu iqtidarın generalları iş başındadırlar. Qovhaqov, tuthatut, kəshakəs, öldürhaöldür işinin başında. Bəli, biz onları "iş" başında görürük. Çox keçməyəcək biz onları "ip" başında görəcəyik. Bu ip haqqın, ədalətin və qanunun ipi olacaq. Ömürlərinin əhəmiyyətli hissəsi komfort içində keçmiş adamların məhkəmə salonlarında, istintaq otaqlarında hakimlərə, müstəntiqlərə ifadə verməları, qanun qarşısında mühakimə olunmaları ipə getmək kimidir mahiyyət etibarı ilə...**

# Jurnalistlərin binasında evini kirayə verən şəxs bəlli oldu

## Vüqar Səfərli: "İctimai qınağı həmkarları yarada bilər ki, evsiz jurnalistlər qıraqda qala-qala niyə sizə verilən evi kirayəyə verirsiz?"

**"Yeni Müsavat"a daxil olan məlumata görə, jurnalistlər üçün Bibiheybət qəsəbəsində tikilən çoxmərtəbəli binada bəzi evlər kirayəyə verilib. Bu haqda məlumatı binada yaşayan jurnalistlərin bir qismi təsdiqlədi. Amma bu addımı atanlardan biri kirayənişin olaraq pakistanlı bir iş adamını seçib. Əməkdaşımız bu xəbəri avqustun 19-da öz facebook statusunda paylaşandan sonra bəzi həmkarlar bununla maraqlanıb və KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun rəhbəri Vüqar Səfərlidən münasibət öyrənib.**

"Yeni Müsavat" isə bu xəbərin bəzi detallarını üzə çıxarıb. **Dəqiqləşdirmələr zamanı məlum olub ki, evini pakistanlı iş adamına kirayəyə verən şəxs "Azad Azərbaycan" qəzetinin redaktoru Abbasov Asəf Əliş oğludur.** Onun evi 3 otaqdan ibarətdir və bir neçə aydır ki, evində kirayənişin yaşayır. A.Abbasov baş redaktor olmaqla yanaşı, onun adı bəzi mənbələrdə ATXƏM (Azərbaycanlıların və Digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi) sədrinin İdeoloji məsələlər üzrə müavini kimi də qeyd edilib.



Vüqar Səfərli

Bundan başqa, sözügedən binada evini kirayəyə verən, buna hazırlaşan jurnalistlər də az deyil. Binada iki otaqlı, əşyasız evlər 400-450 manat civarında kirayəyə verilir. 3 otaqlı evin kirayəsi isə 600 manatdan az deyil. Kirayə məbləğinin yüksək olması mənzilin təmirli, şəhərin yaxşı yerində, dəniz mənzərəli olması, habelə qaz, işıq, suyunun fasiləsiz verilməsi ilə bağlıdır.

**Əldə etdiyimiz məlumata görə, uşağının oxuduğu məktəbə, iş yerinə uzaq olduğu üçün bir çox jurnalist hələ də öz mənzilinə köçə bilmir.** Hətta bu səbəbdən evini kirayəyə verib, kirayə yaşadığı evin haqqını ödəmək istəyənlər də var. Bəzi jurnalistlərin, redaktorların isə evə köçməməsinin səbəbi onların bu mənzilə ehtiyacının olmamasıdır. Bir qism isə əşyasız evə köçə bilmədikləri üçün əziyyət çəkir. Yeni evə köçmək üçün yeni texniki avadanlıqlar, mebel əşyaları tələb olunur. Bu isə kifayət qədər ciddi məbləğdir ki, heç də bütün həmkarlar həmin yükün altına girə bilmir.

Amma "Azad Azərbaycan" qəzetinin baş redaktoru A.Abbasovun nümunəsində hansı problemin olması qaranlıq qaldı. Əməkdaşımız gün ərzində bir neçə dəfə sözügedən qəzetin redaksiyası ilə əlaqə saxladı. Özünü qəzetin işçisi kimi təqdim edən xanım bildirdi ki, bu gün "Azad Azərbaycan" nəşr olunmadığı üçün baş redaktor da redaksiyada yoxdur. Günün əvvəlindən sonuna qədər dəfələrlə cib telefonuna zəng edib, mesaj yollasaq da, baş redaktor onların heç birinə cavab vermədi.

Bütün hallarda onun bu məsələ ilə bağlı mövqeyini işıqlandırmağa hazırıq.

**KİVDF sədri Vüqar Səfərli** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu hallara qarşı təmsil etdiyi qurumun hər hansı müdaxilə imkanı yoxdur. Belə ki, jurnalistlərlə bağlanan müqavilədə həmin evin başqasına kirayə verilməməsi ilə bağlı hər hansı şərt yer almayıb: "Bu evlər jurnalistlərə xidməti evlər kimi verilib. Nə özəlləşdirə, nə də sata bilərlər. Onlara evin "kupça"sı verilməyib. Amma sizə deyim ki, adını çəkdiyiniz şəxsdən başqa adamlar da o binadakı evini kirayəyə verib. Soruşanda da deyirlər ki, mən özüm başqa evdə kirayədə qalıb, bu evi də kirayəyə verirəm".

**Müsahibimiz hesab edir ki, ehtiyacı olmadığı halda jurnalistlərin binasından ev alıb, daha sonra onu kirayə verən baş redaktordan bu hərəkətinin səbəbini həmkarları soruşmalıdır:** "O sualı ona verin ki, niyə jurnalistlərin arasına bir əcnəbini sıxışdırırdın?

Biz onlarla xidməti müqavilələr bağlamışıq. Ancaq xidmət, özü də daxilə yox, xaricə xidmət. Suyun, işığın verilməsi, mühafizə, həyətin süpürülməsi kimi xidmətlər. Bir də ki, müqavilədə qeyd olunub ki, evin fasadında, evin içində dəyişiklik edə bilməzlər. Amma müqavilədə evini kirayəyə verməməsi ilə bağlı hər hansı bənd yoxdur. Ona görə də biz ona bu barədə söz arası deyə bilərik. İctimai qınağı isə ancaq həmkarları yarada bilər ki, evsiz jurnalistlər qıraqda qala-qala niyə sizə verilən evi kirayəyə verirsiz?"

**Mövzunu davam etdirəcəyik.**

❑ **S.TELMANQIZI**

# Dəhşətli jurnalist qətlləri

## İŞİD-in amerikalı jurnalistin başını kəsməsindən sonra vəziyyət daha da dramatikləşib

**Xəbər verdiyimiz kimi, özünü "İslam Dövləti" adlandıran terrorçu "İraq Şam İslam Dövləti" (İŞİD) qruplaşması ABŞ-dan olan jurnalist Ceymis Foulinin vəhşicəsinə qətlə yetirib. Terrorçular jurnalistin başını kəsiblər və bu dəhşətli səhnəni videoya da çəkiblər.**




İŞİD bəyan edib ki, bu ABŞ-a ismarışdır. Bununla onlar ABŞ-dan qoşunlarını İraq ərazisindən çıxarmağı tələb edirlər.

İŞİD tələbləri yerinə yetirilməzsə, girovluqda saxladıqları digər amerikalı jurnalisti - "Time" dərgisinin müxbiri Coela Sotloffanı qətlə yetirəcəkləri ilə hədələyib.

Məlumatda o da qeyd olunub ki, Fouli 2012-ci ilin noyabrın 22-də Suriyada itkin düşüb.

İŞİD terrorçuları tərəfindən başı kəsilən jurnalist son sözlərini, "Amerikaya mesaj" məktubunu oxuyub: "Dostlarımı, ailəmi və sevdiklərimi mənim qatilim olan ABŞ hökumətinə qarşı ayağa qalxmağa çağırıram. Mənim bir azdan yaşayacağım şey ABŞ hökumətinin günahlarının nəticəsidir".

ABŞ hökuməti isə hadisə ilə bağlı heç bir açıqlama verməyib.

Amma bu, dünyada jurnalist qətli ilə bağlı ilk tüküpədici fakt deyil.

Bu ilin yanvarında Jurnalistlərin Memorial Muzeyində 1837-ci ildən 2013-cü ilədək vəzifə borcunu yerinə yetirərkən həlak olan 2 200 insanın xatirəsi anılıb. Muzeyin işçisi Cin Polisinskinin dediyinə görə, bu insanlar təhlükə və verilən qurbanların təcəssümüdür. "Burada filippinli, rusiyalı jurnalistlərin adı yer alır ki, onlar döyülərək öldürülən insanlardır. Biz məlumat yaydığına görə öldürülən bu insanları tanımaya bilərik, lakin onların həyatları bahasına bizi təmsil etdiyini bilməliyik."

2013-cü ildə öldürülən jurnalistlər siyahısına Malinin üsyançı lideri ilə müsahibə aparan Qislin Dupond və Klod Verlon, Braziliyada yazıları ilə polis rüşvətxorluğunu ifşa edən Rodriqo Neto, Filippində güllə ilə vurulan Fernando Solihon daxildir. Polisinski deyir ki, onlar unudulmamalıdır."Planetimiz boyunca jurnalistlər həyatlarını təhlükə altına qoyaraq bizi məlumatla təmin etməyə çalışır. Biz ümid edirik ki, bu memorial dünyanı bir saniyə düşünməyə, jurnalizmin rolunun nə dərəcədə təhlükəli olduğunu düşündürməyə vadar edir."

Newseumun bildirdiyinə görə, bu il yeni öldürülən jurnalistlərin adlarının açıqlanması tanınmalarından asılı olmayaraq bütün jurnalistlərin təmsili deməkdir. Beynəlxalq jurnalistlərin müdafiə təşkilatları 2013-cü ildə 77 jurnalistin öldürüldüyünü bildirir.

**Suriyada iğtişaşlar başlayan gündən indiyə qədər öldürülən jurnalistlərin sayı açıqlanıb. İngiltərədə nəşr olunan "The Independent" qəzetinin araşdırmasına görə, Suriyadakı döyüşlərdə indiyə qədər 65 jurnalistin öldürüldüyü, təxminən 30 jurnalistin isə həbs olunduğu məlum olub.**

❑ **SEVİNC**

YENİ MÜSAVAT
N 209 (5918) 21 avqust 2014

# “Müsavatda dava olmayıb”

## Yetkililər partiyada dava düşməsi haqda deyilənləri təkzib edir; “Bu şayiələr təşkilatı nüfuzdan salmağa hesablanıb”

**Mətbuatda Müsavat Partiyasında keçirilən iclasda mübahisə və dava olması ilə bağlı xəbərlər yayılıb. Bildirilir ki, avqustun 18-də keçirilən Qurultaya Təşkilat Komitəsinin iclasında başqanlığa namizədlər arasında dava düşüb və iclas gərdin müzakirələr şəraitində keçib.**

Partiya daxilindən “Bizim Yol”a verilən məlumata görə, iclas əvvəldən sona qədər qalmaqalla keçib. Başqanlığa potensial namizədlər Arif Hacılı və Qubad İbadoğlu arasında qalmaqal xeyli böyüyüb. A.Hacılı Q.İbadoğlunu “Sən QHT sektorunda milyonlar qazanırsan, partiyaya nə xidmətin keçib ki, başqan olmaq istəyirsən?”,- deyə ittiham edib. Q.İbadoğlu isə “Sənin hansı bankda nə qədər pulun, harada villan varsa, açıb tökərəm”,- cavabını verib. Bundan sonra A.Hacılı Q.İbadoğlunun üzərinə hücum edib, lakin ətrafdakılar əlbəyaxa davanın qarşısını alıblar.

Daha sonra Tural Abbaslı İsa Qəmbəri Hüseyn Məlikovu müşavirlikdən çıxartmaqla partiyanı zədələməkdə ittiham edib. Başqan isə “Bu, mənim səlahiyyətimdir, sən münasibət bildirə bilməzsən, kim istəyirsə, partiyadan getsin”,- cavabını verib.

Vurğun Əyyub isə İ.Qəmbəri partiyanı dağıtmaqda suçlayıb: “Arif Hacılını sən müdafiə edirsən, əlini çəksən, o, məhv olacaq”. Buna cavabında İ.Qəmbər “Quran” çıxardıb ki, partiyadan getməyəcəyinizlə bağlı əl basın. Sonda Arif Hacılının “Başqan olmasam, partiyanı dağıdacam”,- hədəsi yenidən qalmaqala səbəb olub.

**Ancaq xəbərdə adı çəkilən partiya yetkililəri yayılan xəbəri təkzib ediblər.** Məsələ ilə bağlı “Qafqazinfo”ya açıqlama verən **Arif Hacılı** bildirib ki, bu, tamamilə əsassız xəbərdir: “Müsavat Partiyasının Divan iclasında və ya hər hansı bir toplantısında bu səviyyədə müzakirələr aparıla bilməz. Belə müzakirələr həmin xəbəri yayanların səviyyəsinə uyğundur”.

**Tural Abbaslı** da xəbərin tamamilə uydurma olduğunu bildirib: “Müsavatda bu səviyyədə iclaslar heç vaxt olmayıb. Ola bilsin ki, iclas daxilində Hüseyn Məliklə bağlı hər hansı fikir səsləndirilib. Amma başqanı ittiham etmək xəbəri uydurmadır. Müşavirləri təyin etmək başqanın səlahiyyətindədir. O ki qaldı namizədlər arasında yayılan xəbərə, bu da əsassızdır. Ola bilər ki, hər hansı texniki bir məsələdə fikirlər üst-üstə düşməsin. Amma bu o demək deyil ki, onlar bir-birinə qarşı belə ifadələr işlədiblər. Kiçik bir məlumat ətrafında uydurma, əsassız və şişirdilmiş bir xəbər yazıblar”.

**Müsavat Partiyasının Divan üzvü Qubad İbadoğlu** da “Az-News.az”a açıqlamasında partiyada davanın olması xəbərini təkzib edib. Onun sözlərinə görə, Təşkilat Komitəsinin iclasında baş verənlər və barəsində yazılanlar həqiqəti əks etdirmir: “Arif Hacılı ilə aramda belə bir konflikt olmayıb və əsla da ola bilməz. Sadəcə, bəzi insanlar belə xəbərləri məqsədli şəkildə



Arif Hacılı



Qubad İbadoğlu

özlərindən uydurublar. İclas keçirilib və normal şəkildə də davam edib”.

**Q.İbadoğlu iclasda İsa Qəmbərin Qurani-Kərimə and içməsi barədə yayılan xəbərə də aydınlıq gətirib:** “Ümumiyyətlə, ortada Quran olmayıb. Mən nə Quran görmüşəm, nə də İsa bəyin ona and içməsini... Bu uydurma və şərdir. Məqsədli şəkildə həm partiyanın funksionerlərini gözdən salırlar, həm də qurultaya kölgə salırlar”.

Baş verənlərə partiyanın gənclər təşkilatının sədri də qarışıb və açıqlama verib. **Əhliman Abbasın** sözlərinə görə, bəzən Müsavatın daxili məsələləri mətbuata şişirdilmiş halda ötürülür: “Biz bildirdik ki, o yazılanlar həqiqəti əks etdirmir. Doğrudur ki, bəzən mətbuata daxili məsələlər sızdırılır. Konkret olaraq ad çəkmək çətin olsa da, bunlar adətən konflikti mövzuları ictimai müzakirəyə çıxararaq partiyanın imicini zədələməyə çalışan qüvvələrdir. Əslində mən də şəffaflığın, ictimai müzakirənin tərəfdarıyam, ancaq bunun da anonim edilməsinə qarşıyam”.

**Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsininü üzvü, başqan müşaviri Əhəd Məmmədli** isə Musavat.com-a açıqlama verərək bildirib ki, həmin iclasda iştirak edib və dava ilə bağlı yayılan xəbərlər doğru deyil: “Hakimiyyət və müxalifətdə olan bəzi "dostlarımız", Müsavat-ın qurultay məsələsindən şou yaratmaq istəyənlər bunu yayıblar. Hakimiyyət əsas opponenti olan Müsavat-ı zəiflətmək istəyir, zərbə endirməyə cəhd edir. Yayılan xəbərlər də bunun bir hissəsidir”.

**Başqanlığa iddialılardan Tural Abbaslı isə Musavat.com-a açıqlamasında qeyd edib ki, bu, uydurulmuş informasiyadır:** “Ən təhlükəli yalanlar o yalanlar olur ki, onlarda həqiqət payı olur. Həmin iclasda rəqiblər, əks fikirlər, mövqelər vardı və jurnalistlər də bu bilgilərdən irəli gələrək özlərindən uydurduqları informasiyanı yayıblar. Orada müzakirə olub, Hüseyn bəylə bağlı, onun istefası ilə bağlı fikir səslənib, amma o tərzdə yox. Rəqabət olub, hansısa qərarın keçməyi ilə bağlı müzakirə olub, amma dava olmayıb”. O bildirib ki, üç saata yaxın iclas olub və müxtəlif fikirlər səslənib, ancaq dava baş verməyib. T.Abbaslı bu məlumatların yayılmasında kimlərin maraqlı olduğunu aydınlaşdırmağın vacib olduğunu da vurğulayıb. **Partiyanın Divan üzvü Vurğun Əyyub** isə gunxeber.com-a açıqlamasında iclasda baş verənlərlə bağlı sualı cavablandırmaq istəməyib. Jurnalistin sualını eşidən Divan üzvü əsəbiləşib və deyib ki, başqanlıq seçkisində Q.İbadoğlunu dəstəkləməsi barədə fikirlər iddia yox, mövqedir və o, bunu iki ildir ki, sərgiləyir. A.Hacılının başqan olmasının Müsavatı parçalaya biləcəyi ilə bağlı iddiaları isə o, qəzəblə qarşılayıb: “Artıq siz mövqe ortaya qoyursunuz, jurnalist ortaya mövqe qoya bilməz”.

❑ **Röya RƏFİYEVA**

# “Zəngilanlı gəlib Bilgəhdə nə iş görə bilər?”

## Hacı Qalibdən heyrətamiz açıqlamalar; “Camaat deyir məgər Bilgəhdə bir kişi yoxdur ki, icra nümayəndəsi Zəngilandan, ya başqa bir rayondan gəlir?”

**Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyevlə bu rayondan seçilən deputat Hacı Qalib Salahzadə arasında ciddi qarşıdurma yaranıb. Xəbər verildiyi ki, rayonda nüfuz sahibi olan millət vəkilini hədələyən icra başçısı onun qarşıdan gələn seçkilərdə deputat seçilməsinə imkan verməyəcəyini bəyanlayıb.**

Editor.az-ın yaydığı məlumata görə, konfliktin yaranmasına səbəb Kürdəxanı, Bilgəh və Pirşağı sakinlərinin icra başçısının qanunsuz fəaliyyəti ilə bağlı deputata şikayət etməsi olub. İcra başçısını sakinlərin problemlərini həll etməyə çağıran millət vəkili hədəf götürülüb və rayondakı bütün qurumlara Hacı Qalibin əleyhinə iş aparmaq tapşırığı verilib. Sabunçu Rayon İcra Hakimiyyətindən isə bildirilib ki, icra başçısı Adil Vəliyev Bilgəh qəsəbəsində hazırda baş alıb gedən antisanitar vəziyyət və abadlıq-quruculuq işlərinin zəif getməsi ilə bağlı Bilgəh qəsəbəsi üzrə icra nümayəndəsini dəyişmək qərarına gəlib. Bu kadr dəyişiklikləri mütəmadi olaraq öz işinin öhdəsindən gələ bilməyən və səriştəsiz icra nümayəndələri ilə bağlı baş verir: “Lakin Sabunçu rayonundan seçilən millət vəkili Qalib Salahzadə bu məsələyə qarşı çıxaraq, bildirir ki, icra nümayəndəsi mütləq bilgəhli olmalıdır”.

**Məsələ ilə bağlı Hacı Qaliblə danışdıq.**

- ***Qalib bəy, konflikt icra nümayəndəliyinə deyildiyi kimi bilgəhlinin təyin olunmamasından qaynaqlanır, yoxsa ayrı bir səbəb də var?***

- Elə hesab edin ki, elə ordan qaynaqlanır. Mən bu sözü həmişə deyirəm, zəngilanlı gəlib Bilgəhdə nə iş görə bilər? Yaxud bilgəhli gedib zəngilanlı üçün Zəngilanın kəndində nə iş görə, camaata nə xeyir verə bilər? Yoxsa burda başqa nə ola bilər ki. İcra nümayəndəsi iki dənə arayış verir də. Bir arayış verir ki, burda yaşayır, digərində də yazır ki, burda qeydiyyatdadır.

- ***Belə başa düşdüm icra başçısının təyin etmək istədiyi şəxs zəngilanlıdır?***

- Artıq dünən (srağagün-E.P.) təyin edib. Bəli, zəngilanlıdır. Ancaq tək bu məsələ də deyil. Bu adam kiminsə tapşırığını yerinə yetirir. Mən həmişə deyirəm və deyəcəyəm. Bilgəhdə bilgəhli olmalıdır. Zəngilanlı heç Bilgəhin küçələrini tanımır. Ancaq icra başçısı bu məsələni başqa formada hallandırır. Məsələni xırdalamaq lazımdır ki, deputat niyə bu cür danışır? Ona görə ki, kəndə xeyir verməkdən ötrü icra nümayəndəsi heç olmasa kənd adamlarını tanımalıdır.

- ***İcra başçısının məntiqindən isə belə anlaşılır ki, siz prezidentin siyasətinə qarşısınız...***

- Yox, mən heç vaxt prezidentin siyasətinə qarşı çıxmamışam, çıxan da deyiləm. Mən prezidentin çörəyini yemişəm. Çörəyə xəyanət etsə, adamın gözü tutular. Mən deputat kimi dövlətdən maaş alıram. Heç zaman cənab prezidentin siyasətinə qarşı çıxan adam deyiləm. Cənab prezidenti 5 dənə kişi kimi istəyən adam varsa, biri də mənəm. Kimsə yalandan iqtidar, ya müxalifət olur, mənim onlarla işim yoxdur. Kişi kimi deyirəm ki, cənab prezidentə qulluq edirəm, onun əsgəriyəm. Ancaq mən burda nöqsan görürəm ki, yerli camaat zəngilanlının icra nümayəndəsi olmağından əziyyət çəkəcək. Burada rəsmi qeydiyyatda 10 mindən çox əhali var, ancaq ümumilikdə 30 mindən çox adam yaşayır.

- ***Əvvəlki icra nümayəndəsi nə qədər işlədi?***

- Lap əvvəlki icra nümayəndəsi 11 il işlədi. Sonra dedilər ali savadı yoxdur. Son illərdə isə bu başçı 4-cü icra nümayəndəsini təyin edib. Ancaq icra başçısı



**“Dedim ki, a kişi, gəl mən sənə 30 adam verim, seç, kimi istəyirsən, icra nümayəndəsi qoy”**

məni şərləyir ki, guya mən deyirəm yalnız bilgəhli olsun və başqa yerlərin camaatı mənim üstümə qalxsın. Belə söhbət yoxdur.

- ***Bəs icra başçısı Adil Vəliyev özü hardandır?***

- Zəngilan, ya Qubadlıdandır... Bir az bundan əvvəl 28 il Qocalar Evinin baş həkimi işləmiş Bəhruz Əlimədətovu - 24 yaşından bu vəzifədə işləyən şəxsi çağırdı ki, gəl, Bilgəhdə icra nümayəndəsi işlə. Ancaq o, razılaşmadı. Onu vəzifəsindən çıxartdı, yerinə bir zəngilanlını qoydu. Həmin zəngilanlı da Zakir Fərəcovun qudasıdır. Mən dövlətə xidmət edirəm. Belə-belə hadisələri görəndə məgər etirazımı bildirməməliyəm?

- ***Nədən icra başçısı ilə şəxsən görüşüb bütün bunları onun diqqətinə çatdırmırsınız?***

- O, mənə 3-4 dəfə zəng edib. Dedi ki, sən bu işlərə qarışma, sakitliklə olsun. Mən də bildirdim ki, qarışmıram, sadəcə camaat gəlib mənə şikayət edir. Camaat deyir məgər Bilgəhdə bir kişi yoxdur ki, icra nümayəndəsi Zəngilandan, ya başqa bir rayondan gəlir?

- ***Siz bilgəhli, icra başçısı da zəngilanlını müdafiə edir. Regionçuluq bir az təhlükəli və həssas məsələdir...***

- Açıq deyirəm, burda heç bir regionçuluq yoxdur. Sadəcə məsələ budur ki, rayon rəhbəri hər bir regiondan ola bilər, istər lap naxçıvanlı olsun. Ancaq kənddə icra nümayəndəsi kənd adamlarının ana-bacısını tanıyan adam olmalıdır. Kənd başqa şeydir.

- ***Belə çıxır ki, siz kənd olaraq güzəştə getmək niyyətində deyilsiniz, yoxsa...***

- Yox, biz cənab prezidentin siyasətinə qarşı gedə bilmərik. Şəxsən mən başçının müavini Güloğlanın yanında icra nümayəndəsini çağırdım, ərizəsini yazdırdım, verdim icra nümayəndəliyinə. Dedim biz cənab prezidentin bu qapıya bağlatdırdığı itinə də hörmət eləməliyik. Mənim icra başçısının səlahiyyətlərinə müdaxilə etməyə ixtiyarım yoxdur. Ancaq camaatın narazılığını, fikrini bildirməliyəm axı. Dəfələrlə şikayətə gəliblər. Bu adam 71 yaşlı Kürdəxanı sakini Hacı Tahir Əmirxan oğlunu həbs etdirib.

- ***Niyə?***

- Niyəsi odur ki, konfliktləri olub. İndi kürdəxanılılar gəlirlər ki, bu yaşda ağsaqqalı həbsdə saxlatdırır. Mən də onların şikayətini çatdıranda deyir mən də ona kömək edirəm. Nə kömək edirsən, kişi 5-6 aydır orda yatır. O isə işi siyasiləşdirir, guya ki, prezidentin əleyhinə gedirəm. Xeyir, cənab prezidentə canım da qurbandır. Kişi kimi ona xidmət etmişəm, edəcəyəm də. Ancaq bu adam deyir ki, mən bu rayona gəlmişəm, səni deputat seçilməyə qoymayacağam. Mən də dedim ki, kənd soveti-zadam ki, sən məni seçəsən-seçməyəsən?!

- ***Vəziyyətlə bağlı ölkə başçısına şikayət etmək fikriniz varmı?***

- Cənab prezidentin o qədər işi var ki...Xüsusilə də müharibə ilə əlaqədar... İndi iki dənə arayış verən icra nümayəndəsi ilə bağlı cənab prezidenti narahat etməyəcəyəm ki. Mən onunla telefon danışığımda dedim ki, a kişi, gəl mən sənə 30 adam verim, seç, kimi istəyirsən, icra nümayəndəsi qoy. Amma fakt budur ki, camaat narazılıq edir. Belə narazılıq Kürdəxanıda da var, Pirşağıda da. Mənimçün nə fərqi var ki, icra nümayəndəsi kim olacaq? Yoxsa burda nə var ki? Burda pul var, ya torpaq var? Torpağı da bələdiyyə paylayır. Amma mən görürəm ki, bu təyinat camaat arasında dövlətə, dövlətçiliyə qarşı narazılıq yaradır, mən də deputat kimi camaatın sözünü deyirəm.

❑ **Elşad PAŞASOY**

# Bakıda öldürülən Almaniya vətəndaşının anasından dəhşətli açıqlamalar

**Son günlərin ən səs-küylü xəbərlərindən biri 2013-cü ilin mayın 2-də öldürülən Qərb Universitetinin II kurs tələbəsi, Almaniya vətəndaşı, milliyyətcə azərbaycanlı Vüsal Şilderin qətlinin yenidən gündəmə gəlməsidir. Üstündən bir ildən çox keçməsinə baxmayaraq, qətl ətrafında yeni-yeni şok faktlar ortaya çıxmaqdadır.**
**Qətli gündəmdə saxlayan əsas faktorlardan biri, cinayət işində adı hallanan əsas şəxsin kimliyidir.**



# Tariyel Ağayevin adı keçən qətl işində yeni şok faktlar

## Vüsal Şilderin anası istintaqın gedişindən narazıdır; cinayətdə adı hallanan Xəyal Əlizadə Mətanət Şilderi küçə söyüşləri ilə təhqir edib; Prezident Administrasiyasının işçisinin qızı atasının qətldə əlinin olduğunu etiraf edib

Bu adam eks-spiker İsa Qəmbərin, eks-prezident Heydər Əliyevin və hazırkı prezident İlham Əliyevin köməkçisi olmuş Tariyel Ağayevdir. O, hazırda Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş üzrə şöbədə məsləhətçi vəzifəsində çalışır.

İddianın ortaya çıxmasına səbəb kimi, mərhum Vüsal Şilderlə Tariyel Ağayevin qızı Lalə Ağayeva arasında eşq macərasının olmasıdır. Digər əsas faktlardan biri də, cinayətin təşkilatçılarından biri kimi adı hallanan, hazırda Dubayda biznes fəaliyyəti ilə məşğul olan Xəyal Əlizadənin Tariyel Ağayevin kürəkəni olmasıdır. Daxili İşlər Nazirliyi yaydığı açıqlamada Xəyal Əlizadənin İnterpol axtarışına verildiyini və Birləşmiş Ərəb Əmirliyində saxlanıldığını təsdiqləyib. Lakin görünən tərəf odur ki, Xəyal Əlizadə nəinki Azərbaycana təhvil verilməyib, o, hazırda sərbəst şəkildə biznes fəaliyyəti ilə məşğul olur. Bunu təsdiqləyən fakt da var - virtualaz.org saytının əməkdaşı 20 avqustda Xəyal Əlizadənin mobil telefonuna zəng edib. +971509495949 nömrəli mobil telefona cavab verən X.Əlizadənin Avstraliyada olduğu bilinib.

**Mərhumun anası Mətanət Şilder ölkə başçısına, Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə, müvafiq dövlət qurumlarına və ölkə ictimaiyyətinə müraciət ünvanlayıb.** O, müraciətini virtualaz.org saytının redaksiyasına göndərib. Müraciətdə zərərçəkmiş oğlunun qatillərinin hələ də məsuliyyətə cəlb olunmamasından şikayətlənib: "Mərhum oğlum Şilder Vüsal Adolf oğlunun 2 may 2013-cü il tarixdə qətlə yetirilməsindən uzun müddət keçməsinə baxmayaraq cinayətin bütün iştirakçıları, ən əsası isə Prezident Administrasiyasının işçisi Tariyel Ağayevin kürəkəni Xəyal Əlizadə və digər təşkilatçılar bu günə qədər də məsuliyyətə cəlb edilməyiblər. Xəyal Əlizadənin Azərbaycanın hüdudları daxilində axtarışa verilməsi barədə prokurorluğun müvafiq qərarı olsa da bu, formal xarakter daşıyır və gözdən pərdə asmaq üçündür. İnterpolun rəsmi internet səhifəsini təhlil etdikdə məlum olur ki, Azərbaycandan 200 nəfərə yaxın cinayətkar beynəlxalq axtarışa verilsə də, Xəyal Əlizadənin adı onların arasında yoxdur".

**Zərərçəkmiş oğlunun Almaniya vətəndaşı olduğuna görə, həmin xarici ölkənin daim diqqətində olduğunu da qeyd edib.**

M.Şilder oğlunun Tariyel Ağayevin qızı Lalə Ağayevaya görə qətlə yetirildiyini bildirib: "Vüsalın 10 yaşı olanda mən Adolf Şilderlə ailə həyatı qurdum. O, Vüsala doğma atasından da yaxşı qayğı göstərdi, ona öz soyadını, Almaniya vətəndaşlığını, xaricdə təhsil verdi. Buna baxmayaraq, içində Azərbaycan sevgisi olan Vüsal Şilder Azərbaycana qayıtdı və Qərb Universitetinə daxil olaraq təhsilini davam etdirdi. 20 yaşlı oğlum Vüsal Tariyel Ağayevin qızı Lalə Ağayeva ilə tanış olur və onlar arasında məhəbbət yaranır. Vüsal mənə bunu açıb deyəndə ona bu işdən əl çəkməyi, Lalə Ağayevanın ailəsi ilə bizim ailənin maddi cəhətdən səviyyələrinin uyğun olmadığını bildirsək də, artıq hər şey gec idi və cavanlar heç kəsi eşitmək istəmirdilər".

**Zərərçəkmiş qətldən əvvəl oğlunun Lalə Ağayevadan ayrılması üçün təhdid və təqiblərə məruz qaldığını qeyd edib:** "Lalə Ağayevanın valideynləri bu evliliyə razı olmayacaqlarını açıq şəkildə bildirəndən sonra oğluma dəfələrlə xəbərdarlıq olunmuş, onu təhdid etmişdilər. İş o yerə çatmışdı ki, oğlumun guya narkoman və cinayətkar olmasını Lalə Ağayevaya sübut etmək və Vüsalın şəxsiyyətini aşağılamaq üçün maşınına narkotik maddə atılması, tutularaq polis bölməsinə aparılması, orada bu məsələnin ictimaiyyətə çatdırılması üçün geniş bir plan qurulmuşdu.

Bu plan Tariyel Ağayevin qohumu, polis əməkdaşı İlham Məmmədov tərəfindən icra olunmuşdu. İlham Məmmədov, Qurban Novruzov, Yaşar Şümer və Kənan Babayevin işi hazırda Binəqədi Rayon Məhkəməsinin hakimi Vüqar Məmmədovun icraatındadır. Cinayət işindən də göründüyü kimi, oğlumun qətlə yetirilməsinə qədər onun təqib olunması, yol-nəqliyyat hadisəsinin törədilməsi, maşınına narkotik maddə atılması, cəmiyyətə narkoman və cinayətkar kimi təqdim edilməsi işini təşkil etmək və həyata keçirmək üçün polis işçilərindən və digər şəxslərdən ibarət cinayətkar qrup uzun müddət və planlı şəkildə iş aparıb. Amma bu niyyətlərini də həyata keçirə bilməyənlər ən alçaq yola əl ataraq oğlumu vəhşicəsinə qətlə yetiriblər".

**Almaniya vətəndaşı Mətanət Şilderin sözlərinə görə, istintaq düzgün aparılmayıb.** İstintaq zamanı həm onların, həm də iş üzrə qanuni nümayəndəsi Aslan İsmayılovun hüquqları kobud şəkildə pozulub. O, bildirib ki, cinayətdə şahid qismində iştirak etməli olan insanlardan Lalə Ağayevanın adı ümumiyyətlə, şahidlər siyahısına salınmayıb. Zərərçəkmiş bununla bağlı dəfələrlə aidiyyəti orqanlara müraciət etsə də, cavabsız qaldığını söyləyib.

**M.Şilder müraciətdə bildirib ki, Tariyel Ağayevin qızı oğlunun qətlində atasının əlinin olduğunu etiraf edib:** "Vəfa mənə dedi ki, oğlumu onun əri Xəyal öldürməyib, bu qətlin arxasında atası Tariyel Ağayev dayanır. Vəfa məndən sakitləşməyi xahiş etdi, dedi ki, daha olan olub, keçən keçib, sənin oğlunu daha heç nə, heç kim geri qaytara bilməz. Mən isə öz növbəmdə dedim ki, əgər sənin ərin Xəyal Əlizadənin heç bir günahı yoxdursa və bu qətlin arxasında dediyin kimi, yalnız Tariyel Ağayev dayanırsa, onda qoy ərin Xəyal Bakıya qayıdıb bu dediklərinizi məhkəmədə də təsdiqləsin".

**Mərhumun anası ilə qətlin təşkilatçısı kimi adı hallanan Xəyal Əlizadə arasında olan SMS yazışması mətbuatda yayılıb.** Açıq şəkildə Xəyal Əlizadə Mətanət Şilderi ən ağır küçə söyüşləri ilə təhqir edərək, qətlə yetirilən oğlunun goruna söyməkdən çəkinməyib. Ardınca da o, Mətanət Şilderi təhdid edərək, şikayətinə son qoymağı tələb edib.

Onu da qeyd edək ki, bu qətldə adları hallanan Tariyel Ağayev və İlham Məmmədovun törətdikləri iddia edilən qətl hadisəsi təkcə bununla bitmir. Onlar 2011-ci il iyunun 5-də müəmmalı şəkildə dünyasını dəyişən polis zabiti Nofəl Dadaşovun ölümündə də suçlanırlar. Bununla bağlı dəfələrlə mətbuata açıqlama verən mərhumun atası Qəzənfər Dadaşov oğlunun elektrik cərəyanı vurmasından yox, Tariyel Ağayev tərəfindən öldürülməsindən şübhələndiyini bildirib: "Oğlum İlham Məmmədovla dostluq edirdi. Hətta onu Qubadan istirahətdən Bakıya təcili qayıtmağa da İlham vadar edib. Oğlum onunla görüşəndən az müddət sonra mənə zəng gəldi ki, elektrik cərəyanı vurub. Hadisə yerində İlham özünü çox şübhəli aparırdı. Gah deyirdi, hadisə yerində olmuşam, gah da olmadığını deyirdi. Vüsal Şilderin qətlində İlham Məmmədovun adı hallanandan sonra mənə hər şey aydın oldu. Həmin qətldə də Tariyel Ağayevin adı çəkilirdi. Hətta mərhumun anası oğlunun Tariyel Ağayevin sifarişi əsasında qətlə yetirilməsi ilə bağlı müsahibələr verirdi. Tariyel Ağayev və İlham Məmmədov arasında yaxın münasibət, qohumluq əlaqəsi olub. Onunla münasibətim gərgin olub və ondan hər an zərbə gözləmişəm. Bərdə Yağ Pendir Zavodunun 2003-cü ilə qədər rəhbəri olmuşam. 2002-ci ildən başlayaraq, Tariyel Ağayev mənə şəriklik təklif edirdi. Əvvəllər razı olmasam da, sonradan razılaşdım. Bütün müsibətlər bundan sonra başıma gəldi".

**Sonda onu qeyd edək ki, Vüsal Şilderin qətli ilə bağlı aidiyyəti dövlət qurumları ilə əlaqə saxlamağa çalışsaq da, mümkün olmadı. Bu məsələ ilə bağlı mövqe bildirmək istəmədilər. Qeyd edək ki, V.Şilderin atalığı Adolf Şilder bir vaxtlar "Mercedes Benz"in Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri vəzifəsində çalışıb. Bu qətllə bağlı Almaniyanın baş kanslери Angela Merkel də məlumatlandırılıb. Almaniya qanunlarına görə, əgər onun vətəndaşı hər hansı ölkədə öldürülürsə cinayətkar tapılana kimi iş davam etdirilir. Almaniyanın kriminal polisi də bu işə nəzarət edir.**

**Mövzuya yenidən qayıdacağıq.**

**❑ Cavanşir ABBASLI**

# Müsavat Partiyası qurultayla bağlı qərarını açıqladı

**Müsavat Partiyasının Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi 18 avqustda növbəti yığıncağını keçirib. Musavat.com-a göndərilən məlumatda bildirilir ki, Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi partiyanın VIII qurultayının 27 sentyabr 2014-cü il tarixdə keçirilməsinə hazırlığın gedişi və görülən işlər haqqında məlumatları dinləyərək qərara alıb:**

MÜSAVAT

**1.** Qurultayın keçirilməsi üçün təşkilati-texniki hazırlıqların həyata keçirilməsi ilə bağlı ötən iclasda qəbul edilmiş qərarlar əsasən yerinə yetirilmiş hesab olunsun. Bu istiqamətdə tamamlanma işləri davam etdirilsin.

Bülleten formalarının layihələrinin, qurultay nümayəndələrinin qeydiyyata alınması, Say Komissiyasının təşkili və səsvermənin həyata keçirilməsi qaydaları haqqında hazırlanan layihələr müzakirə zamanı verilən təkliflər nəzərə alınmaqla təkmilləşdirilsin və növbəti yığıncaqlara çıxarılsın.

Qurultay nümayəndələrinin, dəvət olunacaq media təmsilçilərinin və qonaqların siyahılarının dəqiqləşdirilməsi davam etdirilsin. Müsavat Partiyasının 100 illik tarixini əks etdirən xüsusi buraxılışın və video-çarxın, qurultay keçiriləcək zalın və binanın divarlarından asılmaq üçün şüarların və plakatların hazırlanması işinə diqqət artırılsın.

**2.** Partiyanın Nizamnaməsi və Proqramına təklif olunan dəyişikliklərin müzakirəsinin yekunlaşdırılması, layihənin son variantının razılaşdırılması işi sürətləndirilsin və Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin növbəti yığıncağında müzakirəyə çıxarılsın.

**3.** Seçkili orqanlara namizədlərin irəli sürülməsi müddəti qurultaya 30 gün qalmış (28 avqust 2014-cü il saat 10.00-dan) başlayır və qurultaya 10 gün qalmış (17 sentyabr 2014-cü il saat 10.00-dək) başa çatır.

- Təşviqat kampaniyası müddəti qurultaya 30 gün qalmış (28 avqust 2014-cü il saat 10.00-dan) başlayır və səsvermənin başlanması haqqında qurultayın qərar verdiyi ana qədər davam edir.

- Namizədliyin irəli sürülməsi haqqında ərizə QHTK-nın sədrinin adına yazılır və Təşkilat Departamentinə təqdim olunur. Təqdim olunan ərizələr xüsusi dəftərdə namizədin şahidliyi ilə qeydə alınır və namizəd tərəfindən imzalanır (Həbsdə olan müsavatçılar müraciət edəcəkləri halda onlara qarşı məhdudiyyətlər nəzərə alınmaq şərti ilə).

- Namizədliyi irəli sürən şəxs ərizədə özünün soyadı, adı, atasının adı və lazım bildiyi halda təxəllüsünü, seçkili orqanın (başqan, MNTK və sərbəst Məclis üzvü) adını və ərizənin verilmə tarixini qeyd etməlidir.

**4.** Qurultayın keçirilməsi üçün yer ayrılması istiqamətində səylər davam etdirilsin.

- Müvafiq zallar ilə bağlı danışıq aparmaq məqsədilə İşçi Qrupu yaradılsın.

YENİ MÜSAVAT
N 209 (5918) 21 avqust 2014



# Azərbaycanda Qərbi niyə sevmirlər?

**Azər RƏŞİDOĞLU**

**Demokratik təşkilatlar olmasaydı, yəqin ki, Azərbaycanda vəziyyət daha ağır ola bilərdi. Lakin buna baxmayaraq, Qərb təsisatlarından Azərbaycanda hamı narazıdır.**

Görünən odur ki, iqtidar və müxalifətin bir ümumi düşməni var - beynəlxalq təşkilatlar.

İqtidar beynəlxalq təşkilatları tənqidlərinə görə sevmir. Müxalifət isə yetərincə dəstəyin olmamasından şikayətçidir. İqtidar opponentləri üçün Qərbin dəstəyi mühümdür. Belə bir dəstək olmadan Azərbaycanda demokratiyanın bərqərar olması xeyli müşkül görünür.

Bu amil özünü Ukraynadakı son proseslərdə də göstərdi. Proseslər başlayan gündən nüfuzlu beynəlxalq təşkilatlar, ABŞ və Avropa ölkələri demokratik hərəkatın yanında oldular. Qərb diplomatları hətta Kiyevdəki mitinqlərdə çıxışlar da etdilər, Ukrayna müxalifətinə maliyyə və siyasi dəstək verdilər Azərbaycanda isə bütün bu illər ərzində müxalifət Qərbin hətta mənəvi dəstəyini əldə edə bilməyib. Əgər Ukraynadakı proseslərə Qərb müdaxilə etməsəydi, müxalifət repressiyalara məruz qala bilərdi. Qərbin dəstəyi Ukraynada hakimiyyət dəyişikliyi ilə sonuclandı.

Qərbdə Azərbaycanı Avropanın bir hissəsi kimi qəbul etmirlər. Qərb siyasi dairələrində belə fikir formalaşıb ki, Azərbaycan siyasi müstəvisi hələ də Moskva ilə bağlıdır. Qərb siyasi dairələri Azərbaycandan ehtiyat edirlər. Avropalılar düşünürlər ki, Rusiya asanlıqla və istədiyi zaman Azərbaycandakı siyasi proseslərə müdaxilə edə bilər. Moskvanın iqtidarda nüfuz agenturası güclüdür və möhkəm mövqeləri ilə siyasi prosesləri öz nəzarətinə ala bilir. Belə bir təhlükə mövcud olduğu zamanda Qərb Azərbaycan hakimiyyətini kəskin tənqid edir, onu Rusiyaya meyllənməkdən xilas etmək istəyir.

Ən acınacaqlısı isə odur ki, Qərb siyasi dairələrində Azərbaycan müxalifətinin müəyyən hissəsinin də marginal, korrupsiyaya uğramış və sistemsiz olması barədə rəy formalaşıb. Belə imic nə qədər ki, mövcuddur, Ukraynada müxalifətə edilən dəstəkdən danışmaq da mənasızdır. Daha bir amil ondan ibarətdir ki, Qərb Azərbaycan müxalifətinin ölkənin inkişafı proqramının olmasına inanmır. Müxalifət son illər ərzində bu sahədə olduqca passiv görünür. Nə sosial-iqtisadi, nə də siyasi islahatlarla bağlı təkliflər zərfini müzakirələrə çıxartmır. Müxalifət son seçkidə mənasız vaxt itkisi ilə yanaşı, problemlərə fundamental yanaşdığını nümayiş etdirə bilmədi. Bunun isə fəsadları olmalı idi. Necə ki, oldu. Daha mühüm bir amil ondan ibarətdir ki, Qərb Azərbaycan müxalifətinin birləşə bilməyəcəyini və birləşsə də, həlledici məqamda parçalanacağı təhlükəsini nəzərə alır. Hər seçkidən sonra parçalanan və bir-birinə qarşı mübarizə aparan müxalifət bunun nə ilə başa çata biləcəyini öncədən düşünməli idi. Şüurlu, ya şüursuz şəkildə daxili savaşlara başlayan müxalifət özünü Qərbin dəstəyindən məhrum etdi.

Azərbaycanın Avropanın bir hissəsi olaraq qəbul edilmədiyi barədə ehtimallar da irəli sürmək olar. Lakin bu təqdirdə yuxarıda verilən suala birmənalı cavab tapmaq mümkün olmayacaq. Deməli, Qərbin Azərbaycan müxalifətindən üz çevirməsinin başqa səbəbləri də mövcuddur.

Düzdür, milli demokratik qüvvələr Qərblə əməkdaşlıqda daha cəlbedici görünürlər. Bir sözlə, ən pis halda oyunçular yerlərini dəyişəcək, rokirovkalar baş tutacaq, Qərbə yönəlik siyasi kurs isə mövcud olduğu kimi dəyişməz qalacaq.

Göründüyü kimi, Azərbaycan müxalifətinə Qərbin dəstəyinin yetərincə olmaması yalnız geosiyasi amillərlə və yaxud neft maraqları ilə bağlı deyil.

Diplomatik mənbələrlə sıx bağlılığı olan ekspertlər vurğulayırlar ki, Azərbaycan müxalifətinin tanınmış və əsas simalarından kimlərinsə son anda hakimiyyətlə razılığa gətməyəcəyi ilə bağlı Qərbdə əminlik yoxdur. Bir sözlə desək, Qərb Azərbaycan müxalifətinin sona qədər qətiyyətli və ardıcıl mübarizə aparacağına o qədər də inanmır.

Daha bir önəmli amil ondan ibarətdir ki, Qərb Azərbaycan müxalifətinə demokratik cəmiyyət quruculuğu üçün ayrılmış dəstəyin səmərəsiz və təyinata uyğun olmayan istiqamətlərdə sərf olunduğunu öz təcrübəsindən bilir. 1993-cü ildən başlayaraq müxalifətə yaxın QHT-lərə ayrılan qrantlardan artıq əsər-əlamətin belə olmaması buna bir sübutdur.

**Qərbin Azərbaycan müxalifətinə dəstəyi ilk növbədə vətəndaş cəmiyyətinin reanimasiyası ilə başlaya bilərdi. Son günlər hüquq müdafiəçilərinin az qala kütləvi həbsini Qərbin susqunluqla qarşılaması isə daha dərin ssenarilərin işə düşməsindən xəbər verir. Bu isə ayrı məqalənin mövzusudur...**

# AXCP ilə ADP arasında savaş

## Sərdar Cəlaloğlu AXCP sədrini "oğru" adlandırdı, qarşı tərəfin "satqın" cavabı Demokrat Partiyasından başqalarını da hərəkətə gətirdi

**ADP sədri Sərdar Cəlaloğlu Müsavat Partiyasının təşəbbüsü ilə yaradılan və ADP-nin, KXCP-nin, Ümid Partiyasının, VİP-in və s. müxalifət partiyalarının da təmsil olunduğu Siyasi Məhbusları Müdafiə Komitəsinin tədbirlərinə AXCP tərəfindən qara piar kampaniyası aparılmasına kəskin münasibət bildirib. ADP sədri deyib ki, burada heç kim Əli Kərimliyə demir ki, gəl sən də mütləq şəkildə bizə qoşul:**

"Gəlmir özü bilər. Daha burada bu qədər böhtana, şantaja, ayamaya, araqarışdıranlıq etməyə ehtiyac yoxdur. Məgər onların hansısa üstünlüklərimi var?! Gəlməsələr dünya dağılmayacaq, ya da gəlsələr dünya dağılacaq?! İndi bunlar gəlməmək üçün bəhanələr axtarırlar. Bu gün kimlərin Azərbaycanda intriqa apardıqları, hakimiyyətə işləmələri bəllidir. Belə bir söz var, oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. Əli Kərimli və ətrafı məhz oğrudur".





**S.Cəlaloğlu AXCP rəsmilərinin onların təmsil olunduğu Müdafiə Komitəsindəki partiyaları intriqant kimi qələmə verməsinə də münasibətini açıqlayıb:** "Bizi intriqant kimi təqdim edənlər götürsünlər son iyirmi ildə hansı qurum və birliklərdə təmsil olunduqlarını sadalasınlar. Hansı ki, İctimai Palatada Müsavat Partiyası onlarla əməkdaşlıq edib, Milli Şurada da eynilə. Biz Azadlıq Blokunda da bir yerə əməkdaşlıq etmişik. Yaxud biz ADP olaraq Ümid Partiyası ilə uzun illər əməkdaşlıq etmişik. Bəs bizi intriqa yaymaqda ittiham edən AXCP rəsmiləri fikirləşiblərmi ki, təmsil olunduqları hər bir qurumda intriqanı elə özləri salıb?! Bunlar belədirlər da. Harada özləri varsa ora "həqiqi müxalifətdir". Harada yoxdurlarsa, ya da kimlər onlarla deyilsə, bu zaman həmin tərəflər "hakimiyyətə işləyən müxalifətə" çevrilir.

Ancaq unudurlar ki, həbs olunanların arxasında siyasi kapital toplamağa cəhdlər etmək əxlaqsızlıqdır! Özlərinə siyasi divident qazanmaq üçün digərlərinə qarşı qara piar aparmaq da əxlaqsızlıqdır! Bu bilirsiniz həm də nəyə oxşayır? Elə bil ki, gedirsən yasa və yas qalır bir kənarda başlayırsan qeybət etməyə, qarın davası döyməyə. Bunlarınkı bax, budur!"

S.Cəlaloğlunun bu açıqlamaları qarşı tərəfdən ona qarşı "hakimiyyətə işləyən şəxs" kimi ittihamların yağdırılmasına səbəb olub.

Buna isə **ADP sədrinin müavini Taliyət Əliyev** kəskin reaksiya verib. Taliyət Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, S.Cəlaloğlunu hakimiyyətə işləməkdə ittiham edənlərin özləri zaman-zaman hakimiyyətlə işbirliyində olublar, müxalifətə böyük zərbələr vurublar: "İndi bu adamlar utanmadan başlayıblar vaxtilə yol verdikləri əməlləri Sərdar Cəlaloğluna və digər insanlara ünvanlamağa. Mən təəssüf edirəm ki, professor Cəmil Həsənli "Azadlıq" radiosunda bir sıra ifadələr işlətməklə həmin qaragüruhçuların mövqeyini müdafiə edən mövqe sərgiləmiş oldu. Mən bunu Cəmil bəyə yaraşdırmıram. Onun kimlərinsə intriqalarında iştirak etməsi qətiyyən ona yaraşmır. AXCP rəhbərliyindən isə istənilən absurd davranışı, istənilən böhtanı gözləmək olar. Onlar yuxarıda dediyim kimi, dəfələrlə özləri hakimiyyətin proyektlərində iştirakçı olublar. Müxalifətə onlardan böyük zərbəni heç kim vurmayıb. Sərdar Cəlaloğlu deyir ki, gəlin heç kimi siyasi məhbusların müdafiəsinə qoşulmaqdan kənarlaşdırmayaq, kim istəyir müdafiə işinə qoşulsun. Cəbhəçilər isə deyir ki, bizdən başqa müxalifət yoxdur, prosesdə ancaq biz və bizi dəstəkləyənlər iştirak etməlidir".

**T.Əliyev bəyan etdi ki, siyasi məhbusların taleyi qalıb ortada, AXCP rəhbərliyi başlayıblar çirkin oyunlara. Müqayisə etdikdə görünür ki, siyasi məhbusların geniş miqyaslı müdafiəsinin təşkilində əslində Sərdar bəy maraqlıdır. AXCP rəhbərliyi isə cılız ambisiyaları, intriqaları ilə bu işin kiçik bir müstəvi ilə məhdudlaşmasına təkan verir**: "Deməli, hakimiyyətə əslində onlar xidmət etmiş olurlar. Məhz onlar müxalifət daxilində intriqa yaratmaqla bölücülük aparırlar və ictimai diqqəti siyasi məhbus problemindən uzaqlaşdırırlar. Onların bu hərəkəti hakimiyyətə xidmətdir. Bu, düşünülmüş hərəkətdir. Bu adamlar dəfələrlə hakimiyyətlə alış-verişdə olublar. Yaxşı deyil indi açıb hər şeyi ortaya qoyaq. Bir neçə ildir əvvəlki bazarlaşmalar özlərinin acgözlüyü ucbatından baş tutmayıb. Bundan sonra başlayıblar hakimiyyətlə şəxsi intriqa aparmağa, adını qoyublar real müxalifət. İndi olublar ölkənin yeganə "real müxalifət"i. Onların müxalifətçiliyinin mahiyyətində bu dayanır. Özləri vaxtilə o qədər hakimiyyətlə işbirliyində olublar ki, indi hər şeyi öz arşınları ilə ölçürlər, elə bilirlər ki, hər kəs hakimiyyətlə iş birliyindədir. Nə vaxt müxalifət daxilində yaxınlaşma müşahidə olunur bunlar ortaya bir intriqa atırlar. Çünki bu işdə böyük təcrübələri var. İntriqabazın böyüyü, bütün intriqaların başında dayanan onlardır".

❑ **ETİBAR**

# İsgəndər Həmidovun partiyası meşədə qurultay keçirəcək

**Azərbaycan Milliyyətçi Demokrat Partiyası qurultaya hazırlıq işlərini demək olar ki, yekunlaşdırmaq üzrədir. Bu barədə partiyanın qurultaya hazırlıq üzrə təşkilat komitəsinin rəhbəri İsgəndər Həmidov "Yeni Müsavat"a bildirib. Onun dediyinə görə, qurultayın keçirilməsi sentyabr ayının sonuna nəzərdə tutulub: "Hələ ki, bizə qurultayımızı keçirmək üçün yer ayrılmayıb.**

Hakimiyyət Azərbaycan Milliyyətçi Demokrat Partiyasına qurultay keçirmək üçün yer verməsə qurultayı meşədə keçirəcəyik. Biz təbiət qoynunda olsa qurultayı keçirəcəyik.



İsgəndər Həmidov

Lakin bu zaman dünya Azərbaycanda siyasi durumun hansı səviyyədə olduğu haqqında təsəvvürə gələcək. Azərbaycan hakimiyyəti heç olmasa bunu nəzərə alıb bizə normal yer ayırsa yaxşı olar".

**İ.Həmidov qeyd etdi ki, AMDP-nin rayonlarda konfransları keçirilib və bu proses davam edir:** "Konfranslar zamanı şahidi olduq ki, ölkədə milliyyətçi ruhda sağlam gənclik var. Bu gənclik çox vətənpərvərdir. Təəssüf ki, ölkəmizdə gəncliyi də sındırmaq prosesi illərdir aparılır. Gəncliyi bir parça çörəyə möhtac qoyurlar ki, çörəyi naminə kimlərəsə yaltaqlansın. Belə bir vəziyyətdə vətənpərvər, qürurunu qoruyan gənclərin qalmasının özü böyük işdir. Bu cür gənclər gələcəyə ümid verir. Milliyyətçi Demokrat Partiyasına gənclərin gəlişinin qurultayda şahidi olacaqsınız".

**İ.Həmidov oktyabr-noyabr aylarından Azərbaycanda siyasi proseslərin aktivləşməsi prosesinin start götürəcəyini də söylədi:** "Bu proseslərdə bizim partiyamız da fəal olacaq".

❑ **E.SEYİDAĞA**

# Yezidi kürdlərə yardım məsələsi böyüdü

## "Azərsun Holdinq" məlumatı təkzib etsə də, Fazil Mustafa xəbəri bütün informasiya kanallarının yayımladığını deyir; deputat türkmənlərə yardım üçün Goozala təşəkkür də edib; Tahir Süleyman yezidi kürdlərdən danışdı...

**"Azərsun Holdinq"in rəhbəri Abdolbari Goozal İraqdakı yezidi kürdlərinə yardım göndərməsi xəbəri etirazlarla qarşılanıb. Mediada, sosial şəbəkələrdə şirkət rəhbərinin bu addımı qınanıb, deputat Fazil Mustafa isə türkmənlərə də yardım edilməli olduğunu açıqlayıb.**

Ancaq şirkət bu məlumatı təkzib edib və yezidi kürdlərə deyil, türkmənlərə yardım karvanı göndərildiyini bəyanlayıb. Belə ki, ötən həftə "Azərsun Holdinq" tərəfindən İraqın Ərbil şəhərində məskunlaşan türkmənlərə böyük yardım karvanı göndərilib. Yardımlar Ərbil, Mosul, Təlafer, Sincar və digər yaşayış məntəqələrində paylanılıb. "Azərsun"dan bildirilib ki, yardımlar türkmənlərlə yanaşı, xristian icması və digər icmalara da çatdırılıb.

F.Mustafa da facebook səhifəsində bu təşəbbüsü yüksək qiymətləndirib: "Biz doğru olanları hər zaman təqdir etməliyik, yanlış olanları da söyləməkdən çəkinməməliyik. İndi görək Azərbaycandan başqa iş adamları türkmənlərə hansı yardımları göstərəcəklər?

Bu barədə yaxın günlərdə bizdə də ciddi təşəbbüslər olacaq. Türkiyədən də ciddi humanitar yardımlar edilir, türkmənlərin yenidən öz ocaqlarına qayıtmasına gücümüz yetdiyincə dəstək verməliyik".


Abdolbari Goozal


Fazil Mustafa

**Deputat bu məsələ haqda "Yeni Müsavat"a ətraflı açıqlamasında bildirdi ki, türkmənlərə yardımı üçün "Azərsun Holdinq" rəhbərliyinə təşəkkür edib.**

Onun sözlərinə görə, yezidi kürdlərə yardım göndərməsini də irad tutub: "Onlar bunu təkzib etdilər. Amma informasiya kanalları göstərdilər ki, yardım göndərib. Yezidi kürdlər Qarabağda yüzlərlə azərbaycanlını qətlə yetiriblər. Mən də buna etirazımı bildirdim. Bu kateqoriyalı insanlara niyə dəstək verməliyik? O halda Suriya ermənilərini də qaçqındırlar, gərək onlara da yardım olunsun? Ancaq "Azərsun Holdinq"in türkmənlərə yardımını yüksək qiymətləndirirəm".

F.Mustafa qeyd etdi ki, yezidi kürdlər şeytana sitayiş edirlər: "Bizə yaxın olan kürdlər də var, PKK-ya dəstək verən də. Biz bunu fərqləndiririk. Amma yezidi kürdlər bizə yaxın deyil. Onlar erməni ilə müttəfiqdirlər. Onlar satanistdirlər, şeytana sitayiş edirlər. Yarı Zərdüşt, yarı müsəlman, yarı xristianlıq düzəldiblər".

Müsahibimiz Azərbaycan şirkətlərinin türkmənlərə yardım karvanı göndərəcəyinə inandığını söylədi: "Bildiyim qədər müəyyən işlər görülür, bu istiqamətdə addımlar atılır. Onların ciddi ərzaq yardımına ehtiyac var".

Bəs, "Azərsun Holdinq"dən yardım aldıqları deyilən yezidi kürdlər kimlərdir? Onların tarixi, həyat tərzi, görüşləri nədən ibarətdir?

**"Diplomat" qəzetinin baş redaktoru, kürd əsilli Tahir Süleyman** "Yeni Müsavat"a bu mövzuda danışarkən qeyd etdi ki, yezidilərə aid bir çox məqalə və kitab var: "Kürd olan yezidilər özlərinə ezidi deyirlər. Orta Şərqin ən kiçik birliyi olmalarına baxmayaraq 18 və 19-cu əsrlərdə ingilis-fransız və Osmanlı siyasi çəkişmələrinin ortasında qalıblar. Əslində yezidilərin olduğu coğrafiya tarixdə həmişə zalımın zülmündən qaçanların sığındığı yer olub.

Onların olduğu Sincar dağlarındakı kəndlər, mağaralar ilk xristianlıq dövründə xristianların çox tanrılı, Roma və Zərdüştün İrandan qaçıb saxlandığı, dini təhsil verdiyi yer olub. Daha sonra Abbasi və Əməvilərin təzyiqlərindən qaçan təsəvvüf məktəbləri üçün sığınacaq yerinə çevrilib.

Monqol istilası, səlib yürüşləri, vəba epidemiyaları, dünya müharibəsi, Səddam təzyiqləri. Sonra Osmanlı dağılıb Türkiyə Respublikası qurulduğunda yezidilərin həyatları daha da çətinləşib. Çünki yezidi tayfalarının bir qismi Suriyada, bir qismi İraqda, bir hissəsi Türkiyədə qalmışdılar".

**T.Süleymanın sözlərinə görə, yezidilərin başqa bir dinə mənsub olanla evlənməsi qadağandır:** "Bu səbəbdən onlar qapalı bir cəmiyyətdir. Digər cəmiyyətlərin onların inanclarına verdikləri reaksiyalar səbəbindən qapalı olublar. Həttə 1970-ci qədər Türkiyədəki yezidilərin çoxu oxumağı, yazmağı bilmirdi. Eyni çətinliyi Qərbə köç etdikləri zamanı yaşadılar. Dinləri mövzusunda təsnifat çətinliyi yaşadılar. Sincar dağlarındakı Şengal şəhərində Laləsi bölgəsi, yezidilərin müqəddəs məkanıdır. Tanrının iqamət etdiyi yer olduğuna inanırlar. Bu səbəbdən həmin məkanın dünyadan əvvəl yaradıldığını deyirlər".

❑ **E.SALAMOĞLU**

# "PKK-çının heykəlinin götürülməməsi mümkün deyildi"

## Tənzilə Rüstəmxanlı: "Əhməd Davudoğlu deyirdi ki, Orta Doğuda Türkiyənin xəbəri olmadan quş uçmaz; bəs necə olur ki, o boyda heykəl iki ay idi orada ucaldılmışdı?"

**Diyarbəkirin Lice kəndindəki PKK qəbristanlığında terrorçu Mahsum Korkmaza heykəl qoyulması Türkiyədə iğtişaşlara səbəb oldu. Heykəlin açılışından sonra ölkə ictimaiyyətinin, eləcə də müxalifətin ciddi təpkisi məsələ ilə bağlı təcili məhkəmə çəkişməsinə səbəb olub.**

MHP başqanı Dövlət Baxçalı bu haqda açıqlamasında türk şəhidlərinin sümüklərini sızladan bu hərəkət üçün AKP-nin məsuliyyət daşıdığını bildirib.

Avqustun 18-də Diyarbəkir Baş Prokurorluğunda açılan cinayət işi baxılması üçün məhkəməyə göndərilib. Məhkəmə terror təşkilatının təbliğatı olduğu üçün heykəli "suç əşyası" elan edib və dərhal yıxılması haqqında qərar çıxarıb.

Avqustun 19-da səhər saatlarında Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri qərarın icrası üçün bölgəyə gəldikdə, PKK terrorçuları ilə türk əsgərləri arasında silahlı toqquşma baş verib. Bu toqquşma nəticəsində bir terrorçu məhv edilib, 2 PKK-çı yaralanıb, bir əsgər şəhid olub.

**Azəri-Türk Qadınlar Birliyinin rəhbəri Tənzilə Rüstəmxanlı** "Yeni Müsavat"a deyib ki, Türkiyəyə 35 minə yaxın şəhid verdirmiş bir terror hərgütünün üzvlərindən birinə Türkiyədə heykəl qoyulmasına şərait yaradılması üzücü olmaqla yanaşı, heyrət yaradır. Heykəli qoyulan Türkiyəyə qarşı PKK savaşını ilk başlayan adamlardan biridir. Belə birisinə heykəl qoyulması şəhidlərə, türk xalqına hörmətsizlikdir: "Bu, ürək ağrıdan bir durumdur. Türkiyə dövlətinin İstihbaratı, jandarması, polisi, icra orqanları var. Bütün bunların gözləri qarşısında terror təşkilatının üzvünə heykəl qoyulur və guya iki aydır bundan xəbərləri yox imiş. Bundan xəbərlərinin olmaması ağlasığan deyil. Yəni Türkiyə bu qədərmi zəifdir? Əhməd Davudoğlu deyirdi ki, Orta Doğuda Türkiyənin xəbəri olmadan quş uçmaz. Bəs, necə olur ki, o boyda heykəl iki ay idi orada ucaldılmışdı, lakin hökumət orqanlarının xəbəri olmayıb? Axı bu, ağlasığan deyil. Bu hadisə o deməkdir ki, qardaş Türkiyədə bir qarmaqarışıqlıq yaşanır, kim nə istəyir onu edir. Mən bunu çox üzüntü ilə qarşılayıram".


Tənzilə Rüstəmxanlı

**T.Rüstəmxanlı vurğuladı ki, heykəlin götürülməsi Türkiyə cəmiyyətinin, müxalif siyasi, ictimai qüvvələrinin haqlı təpkisi nəticəsində mümkün oldu:** "Türkiyə xalqı bu məsələlərdə həssasdır. O heykəlin götürülməməsi mümkün deyildi. Təəssüf ki, həmin terrorçunun heykəli belə bir türk əsgərinin şəhid olmasına səbəb oldu. Heykəlin götürülməsinə qarşı PKK silahlı saldırılar düzənlədilər və bir əsgər şəhid oldu. Heykəlin ucaldılmasına ilk andan imkan verilməsəydi bəlkə də belə olmazdı".

❑ **E.SEYİDAĞA**

# Süqut etmiş QKÇP-nin mirası



**Xalid KAZIMLI**

**22 il idi ki, hər ilin bu günləri bütün postsovet məkanında olduğu kimi, Azərbaycanda da QKÇP mövzusu gündəmə oturur, müzakirə olunurdu. Bu il elə olmadı. Əslində bu mövzu heç vaxt olmadığı qədər məhz indi aktuallıq kəsb edir - Avrasiya İttifaqı ideyasının ortada olmasına görə.**

Elə bir durum var ki, artıq yeni nəsil üçün QKÇP-nin nə demək olduğunu da izah etmək lazımdır. Bu, rusca abbreviaturadır (Qosudarstvennıy Komitet po Çrezvıçaynuyu Polojeniyu - yəni Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsi - FVDK).

1991-ci ilin 19 avqustunda SSRİ-nin vitse-prezidenti Gennadi Yanayevin və baş nazir Valentin Pavlovun başçılıq etdiyi, sırasında Milli Təhlükəsizlik, Daxili İşlər və Müdafiə nazirliklərinin rəhbərlərinin də olduğu hökumət adamları QKÇP-FVDK yaradaraq ölkə prezidenti Mixail Qorbaçovu devirmək, guya ki, SSRİ-ni xilas etmək istəyirdilər.

Onların bu avantürasının ömrü cəmi üç gün çəkdi. Rusiya demokratları və artıq boğaza yığılmış xalq QKÇP-yə etiraz edərək ayağa qalxdı, Krımda istirahətdə olan Qorbaçov Moskvaya qayıtdı, QKÇP süqut etdi, DİN başçısı Puqo özünü güllələdi, Yanayev və qiyamçı nazirlər həbs olundu, Kommunist Partiyası ləğv edildi və SSRİ bir neçə ayın içində dağıldı.

QKÇP üzvləri SSRİ-ni qoruyub saxlamaq istədikləri yerdə dünyanın ən böyük dövlətinin sürətlə çökməsinə səbəb oldular.

Budur, 23 ildir ki, Rusiyanın hərbi-sənaye kompleksi, rus kəşfiyyatı, Rusiya millətçiləri, Rusiya kommunistləri bu tarixi faktı həzm edə, sinirə bilmir, köhnə qırmızı imperiyanı başqa adla, başqa rənglə, başqa bayraqla olsa da, bərpa etmək istəyirlər.

Bəs görək SSRİ öz-özünəmi dağıldı? Yaxud onu ABŞ və Qərb dağıtdımı?

Bu gün ortada müxtəlif söhbətlər, gizli fəaliyyətlərə, mürəkkəb bağlılıqlara dair konspiroloji iddialar çoxdur.

Çingiz Abdullayev kimi yazıçıların bədii əsərlərində xroniki olaraq SSRİ-nin dağılmasının əsas səbəbi kimi superdövlətlərin kəşfiyyat xidmətlərinin rolu qabardılsa da, əslində SSRİ-nin çöküşünün başlıca səbəbi partburjuaziya oliqarxiyasının tam deqradasiyaya uğraması, kommunizm ideyasının özünün puçluğunun faş olması, hərtərəfli iqtisadi tənəzzül, SSRİ-nin qocaman rəhbərliyinin ətaləti və s. idi. SSRİ-də mağazaların piştaxtaları boş idisə, insanlar yeməyə ət, yağ, qənd tapmırdılarsa, məgər bunu MKİ, Mİ-6, "Mossad" və başqa kəşfiyyat strukturları edirdimi?

Hamının gözü qarşısında ölkə yavaş-yavaş uçuruma yuvarlanırdı və heç kəs bunun qarşısını ala bilmirdi. Əslində Qorbaçovun ortaya atdığı "yenidənqurma", "aşkarlıq", "alkoqolizmə qarşı mübarizə", "zəhmətsiz gəlirlərə qarşı mübarizə" və sair bu kimi islahatlar paketi məhz SSRİ-nin dağılmasının qarşısını almaq üçün idi.

Bu tərəfdən də az-çox yaranmış aşkarlıq və demokratiya meyllərindən sui-istifadə edərək, Qarabağı Azərbaycandan qoparmaq istəyən erməni millətçilərinin bütün SSRİ ərazisində tətiklədikləri millətçilik hərəkatları baş qaldırdı. Bu gün də heç yerdə etiraf edilmir, amma SSRİ-nin süqutunu ermənilər başlatdı. O zamanlar SSRİ-dən ayrılmaq tələbi ilə ilk olaraq məhz ermənilər çıxış etdilər. Budur, 15 respublikanın hamısı Rusiyadan ayrılıb, hətta Rusiyanın doğma qardaşı Belarus da müstəqil siyasət yeritməyə cəhd edir, yalnız bir ölkə Moskvanın paçasına yapışmış halda qalıb - Ermənistan.

QKÇP belə bir müstəvidə ortaya çıxdı. Bu komitə bir neçə gün də duruş gətirsəydi, öz ömrünü uzatmaq üçün kütləvi repressiyalara başlaması qaçılmaz idi. SSRİ-ni qoruyub saxlamaq üçün ölkə boyunca Stalinin adına, irsinə layiq repressiya dalğası kükrəməliydi. Bundan daha böyük zərəri ermənilər çəkəcəkdi, söz yox, amma bütün etnik konfliktlər də dondurulacaqdı.

Başqa cür mümkün deyildi. Ancaq bu da SSRİ xalqlarına rifah, inkişaf gətirməyəcəkdi. Ölkədə köklü islahatlara ehtiyac vardı, kommunist rəhbərlər isə islahat deyəni "dissident" elan edir, problemləri həll etməyin çəmini bilmir, eləcə hər şey donduraraq saxlamaq istəyirdilər.

Bu gün Putin də eyni fikirdədir. O da köhnə respublikaları bir araya yığmaq, dünya ölkələri ilə açıq konfrontasiyaya getmək, öz arxipelaqını yaratmaq, bununla belə, keçmiş müttəfiq respublikaları bir-birinə düşmən edən problemləri olduğu kimi saxlamaq xətti götürüb.

**Əslində QKÇP-nin reallaşdırmaq istədiyi, ancaq bacarmadığı ideyalar hələ də aktualdır. Rus maşını qazlaya-qazlaya o istiqamətdə irəliləyir.**



# Balaca ədalətciklər lazımdır

Zamin HACI
zaminhaci@gmail.com

**Təzəlikcə kimsə sosial şəbəkədə belə bir əhvalat paylaşmışdı və bu əhvalat bizim hüquqqu-lu-mühafizə sistemi üçün nümunəvi sayıla bilər.**

Uşaq həyətdə davaya düşübmüş, qarşı tərəf bunu söyübmüş, həmin vaxt yaxınlıqdan polis keçirmiş. Bəzi uşaqlar da hələ safdırlar, "polis əmi" nağıllarına inanırlar, ona görə bu uşaq yaxınlaşıb polisə, deyib ki, filankəs mənə "köpəyoğlu" dedi, onu cəzalandır. Polisin cavabı uşağı şoka salıbmış, deyilənə görə, uşaq bir həftədir nəinki pampers taxmaqdan imtina edir, hətta AzTV-yə də baxmır! Cavab belə olubmuş: "Get, sən də ona köpəyoğlu de".

Əlbəttə, bizim hüquq-mühafizə orqanlarının qədim ənənələrə uyğun çalışması və "gözə göz, dişə diş" prinsiplərini gənc, yetişməkdə olan nəslə aşılaması çox yaxşı haldır.

Bu arada haşiyə çıxaraq qeyd edim ki, keçən həftə bir qrup səbayelli uşağın "Gənc heydərçilər" dəstəsi adı altında Qusara, hərbi hissədə yaradılan pioner düşərgəsinə göndərilməsini sevinclə izlədim. Arzu edirəm Pavlik Morozov da yetişsin!

Ancaq polisin uşaqlara bu cür tərbiyə verməsi mənfi nəticələr də yaradır, cəmiyyətdə polisə etibar itir. Misal üçün, Yasamalda bir ana və qızının faciəsi olayındakı kimi. Orda ailənin bir qızı evdən qaçmışdı, ana və digər qızı isə 9-cu qatdan atılaraq ölmüşdü. Hadisə intihardır, yoxsa nədir, bunu polis araşdıracaq. Bəs araşdırmaya inam varmı? Qəzetimizin əməkdaşı iki gün qabaq hadisə yerindəki qonşularla söhbət edib yazı hazırlamışdı. Mən onu oxuyanda dərəbəyliyə bir daha heyrət etdim. Sən demə, evin "kişisi" (dırnaq arasında yazmağa məcburuq) qadını boşasa da bir otağı zorla tutubmuş. Arvad-uşağı daim döyürmüş, onların zülümlə qazandığı pulları içkiyə verirmiş. Və bu zülm illərdir davam edirmiş!

Bəs bu illərdir davam edən zülmə polis, prokurorluq niyə münasibət bildirməyib? Niyə zülmə məruz qalanlar, cinayəti görən qonşular bu haqda məlumat verməyiblər? Bunun bircə səbəbi var: polisə cəmiyyətdə etimad, inam sıfır səviyyəsindədir. İnsanlar qanuna müraciət etməyi, hüquqda ədalət axtarmağı "işverənlik" sayırlar.

Elə son günlərin başqa bir əhvalatını yada salaq. Bakıdakı özəl klinikalardan birində olmuş tragikomik əhvalatı. Baş həkim, eyni zamanda klinikanın müdiri həkimlərdən birini işdən çıxartmaq istəmişdi. Həkim bununla razılaşmamışdı. İş məhkəməyə getmişdi. Son cümləni yalandan yazdım, kimdir məhkəməyə, istintaqa inanan? İşdən çıxarılan həkimlə baş həkim yaxalaşıblar, daha sonra "köhnə qəbristanlığın yanında" görüş təyin ediblər. Necə deyərlər, "razborka" üçün. Görüş yerinə hər iki tərəfin dəvət elədiyi kriminal avtoritetlər, idmançılar gəlmişdir. Nəticə: 3 bıçaqlanmış şəxs. Bunlardan biri işdən çıxarılan həkimdir.

İndi özünüz fikirləşin, bu ağılın yiyəsi olan həkimlər əllərində cərrah bıçağı olarkən necə davranırlar? Amma bu tək bizim problem deyil, Azərbaycan xalqının ümummilli problemidir. Bizi narahat edən hüquqa, dövlətin ədalətinə kütləvi etibarsızlıqdır. Çünki hər şey, bütün pisliklər bundan başlanır. "Ədalət mülkün təməlidir" - Türkiyədə məhkəmə salonlarında başa vurulan bu şüar durumu dəqiq ifadə edir. Ədalət olmayan dövlət məhvə məhkumdur.

Mən, təbii, anlayıram ki, yapistlərin qurduğu sistemdə ədalət axtarmaq gülməlidir, bəzi oxucular da bu sadəlövhlüyümə görə indi qımışırlar. Haqlıdırlar. Amma mən ictimai-siyasi sektora qarşı repressiya aparatından danışmıram, aşağı səviyyədə, "asan-xidmətin arayışı" tipində ədalətciklərdən bəhs edirəm. Heç olmazsa bunu təmin etsinlər. Məsələn, SSRİ-də insan azadlığı yox idi, ancaq milis də heç vaxt uşağa deməzdi ki, səni söyənə sən də köpəyoğlu de. Sovet milisi söyən uşağı tapıb onun qulağını dartardı.

**Yaxşı ənənələri bərpa eləyin. Pioner düşərgəsi kimi. Xalq drujinaları da olsun.**

# "Türkiyənin yeni baş naziri Davudoğlu olacaq"

## Ərdoğana yaxınlığı ilə seçilən xarici işlər nazirinin keçid dövrü üçün - 2015-ci il seçkilərinə qədər hökumətə rəhbərlik edəcəyi bildirilir, sonrakı mərhələdə isə AKP-yə yeni lider lazım olacaq

**Türkiyənin yeni baş naziri hazırkı xarici işlər naziri Əhməd Davudoğlu olacaq. Bu barədə bu həftə səlahiyyətləri başa çatan prezident Abdullah Gül açıqlama verib. Ötən gün Çankaya köşkündə Gül iş adamları, sənətçilər, yazarlar, jurnalistlər və vətəndaş cəmiyyəti təmsilçiləri ilə vida mərasimi keçirib.**

**A.Gül bildirib ki, hazırkı baş nazir Rəcəb Tayyib Ərdoğan prezident səlahiyyətlərinin icrasına başladıqdan sonra hökumətə xarici işlər naziri Əhməd Davudoğlu rəhbərlik edəcək. Abdullah Gül bildirib ki, prezident üsul-idarəsinin yaranmasına qarşıdır. Eyni zamanda səlahiyyət müddəti başa çatdıqdan sonra Ankaranı tərk edərək İstanbula köçəcəyini bildirib.**

Qeyd edək ki, Ərdoğanın prezident seçilməsindən sonra əsas diqqət Türkiyənin yeni hökumət başçısının kim olacağına yönəlib. Hazırkı qanunlara görə Türkiyədə hökumətə rəhbərlik baş nazirə məxsusdur və hökumət başçısı hələ də üstün səlahiyyətlərə malikdir. Belə bir vəziyyətdə hökumət başçısı postuna məhz Davudoğlunun gətirilməsi xeyli dərəcədə maraq doğurur. yeri gəlmişkən, qeyd edək ki, hazırkı prezident A.Gül baş nazir olmağa iddialı olsa da, Ərdoğanın AKP-nin növbəti qurultayını prezident inauqurasiya mərasimindən bir gün əvvələ təyin etməsi Gülün qurultayda iştirak edərək AKP-yə bərpa olunmaq və rəhbərliyə seçilmək imkanlarının üzərindən xətt çəkir. Eyni zamanda Ərdoğan bəyan edib ki, özündən sonra AKP sədri və baş nazirin eyni şəxslər olmasını istəyir, iki əlavə seçki keçirməyə gərək yoxdur. Bu isə faktiki olaraq Gülün partiyaya və baş nazirliyə gedən yolunu bağlayıb.



Əhməd Davudoğlu

**Qeyd edək ki, hələ seçkidən əvvəl də Davudoğlu baş nazirliyə Ərdoğanın əsas namizədlərindən biri hesab olunurdu.** Çünki bu şəxs uzun illər Ərdoğanın xarici siyasət məsləhətçisi olub, son illərdə AKP hökumətinin xarici siyasət fəaliyyətinə rəhbərlik edib. Eyni zamanda fikri və ideya baxımından Ərdoğanla eyni görüşləri paylaşır. Həmçinin daha əvvəl siyasi karyerası olmayan Davudoğlunun Ərdoğana sadiq kadr olduğu bildirilir. Bu mənada Davudoğlu baş nazir postuna Ərdoğanın ən çox etimad göstərəcəyi şəxsdir. Həmçinin, mövzunu qəzetimizə şərh edən ekspertlər Davudoğlunun namizədliyinin həm də AKP daxilində parçalanmanın qarşısını almaq üçün ən uyğun variant kimi qeyd edirdilər.

Davudoğlu hazırda baş nazirliyə ən real namizəd sayılmasının iki səbəbi var. Birincisi, Ərdoğanın prezident olmasından sonra ABŞ və AB Davudoğlunu Güldən sonra işləyə biləcəkləri ən uyğun namizəd kimi görürlər. Habelə, prezident seçkilərindən sonra Ərdoğana qarşı yeni müxalif cəbhənin açılmasının qarşısı yalnız bu yolla alına bilər. Çünki Ərdoğan və Davudoğlunun xarici siyasət və daxili siyasətlə bağlı baxışları yaxındır. Davudoğlunun daha bir üstünlüyü onun partiya daxilindəki Gül tərəfdarlarının səsini ala bilməsidir. 2015-ci il seçkilərinədək AKP-də ən uyğun namizəd Davudoğludur.

**Ancaq gələn il Türkiyədə parlament seçkiləridir və bu seçkilər zamanı AKP-yə daha güclü və xarizmatik lider lazım gələcək.** Çünki Ərdoğan faktiki olaraq partiya fəaliyyətindən kənarlaşacaq, gərgin keçən seçki kampaniyasını aparmaq, partiya daxilində birliyi saxlamaq, eləcə də seçkilərdə qalib olmaq üçün daha fəal, güclü liderin AKP-nin başına gətirilməsi lazımdır. Davudoğlu isə bu parametrlərə uyğun deyil. Bu səbəbdən müşahidəçilərə görə, Davudoğlu baş nazir təyin olunsa belə, bu, gələn ilin ortalarına qədər olan müddətə qədər davam edəcək. bundan sonra isə AKP daxilində kompromis saxlanılmaqla yeni bir lider seçiləcək, əks halda partiyada çatların yaranması qaçılmaz olacaq. Yeri gəlmişkən, 2015-ci ildə AKP-nin lideri və baş nazirliyə namizəd Abdullah Gül də ola bilər. AKP daxilində Gülün çoxlu sayda tərəfdarı var, eyni zamanda partiyanın qurucularından biri kimi Gülün birinci posta iddiası normal qəbul olunur. Ancaq Gülün son illərdə Ərdoğanla münasibətlərində soyuqluğun yaranması onun AKP rəhbərliyinə gedən yolda əsas maneədir. Gülün AKP-ya qayıdışı yalnız Ərdoğanla yenidən razılaşma əldə etməsindən asılı olacaq.

❑ **KƏNAN**

# Azərbaycan-Türkiyə-Gürcüstan hərbi əməkdaşlığı bloka çevrilə bilər

## Rasim Musabəyov: "Bundan ötrü ən azı ABŞ-ın açıq dəstəyi lazımdır..."

**"Hələ əvvəlcədən demişdik ki, Rusiyanın qonşu ölkələrə təzyiqlərinin artacağı halda onlar özlərinin təhlükəsizliyi və sığortalanması üçün əlac axtaracaq. Təbii ki, bu ölkələrin NATO-ya tələsik qəbul ehtimalı azdır. Odur ki, ayrı formatlar tapılmalıdır. Bu formatlardan biri də siyasi hərbi oxun formalaşması idi".**

Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov bu fikirləri Naxçıvanda keçirilən Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin keçirdiyi son görüşü və əldə olunan anlaşmaları şərh edərkən bildirdi. Qeyd edək ki, üçtərəfli formatda baş tutan görüşdə regionda cərəyan edən hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb və hərbi sahədə əməkdaşlıq üzrə bir sıra qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

**Bəzi ekspertlər bu ölkələrin vahid hərbi blok yaratmasını məqsədəuyğun hesab edirlər. R.Musabəyov isə xatırlatdı ki, əvvəl 3 ölkənin XİN başçıları, sonra prezidentlər, indi isə müdafiə nazirləri görüşdülər:** "İqtisadiyyat və nəqliyyatla məşğul olanlar da mütəmadi görüşür. Bu, heç kəsə təhlükə yaratmadan, müəyyən qabaqlayıcı addımların atılması deməkdir. Ancaq indiki halda bu, hərbi bloka çevrilmir. Belə əməkdaşlığın hərbi bloka çevrilməsi üçün isə ən azı ABŞ tərəfindən açıq dəstək verilməlidir. Çünki Rusiya nüvə dövlətidir və ABŞ kimi nəhəng gücün dəstəyi vacibdir".

**Politoloq hesab edir ki, üç ölkənin əməkdaşlığı terror təhlükələrini neytrallaşdırmaq üçün önəmlidir:** "Bölgə sakit deyil, bütün kommunikasiyalar burdan keçir və bunlar Avropa əhəmiyyətli layihələrdir. Neft, qaz kəmərlərinin ardınca dəmir yolu da işə salınacaq. Bunların hamısını qorumaq vacibdir. Ona görə də Azərbaycan, Türkiyə, Gürcüstanın sıx əməkdaşlığı zəruridir. Əvvəl DİN və Milli Qvardiya bu işləri görürdüsə, indi əməkdaşlıq daha da genişlənib".



Rasim Musabəyov

**R.Musabəyov əmindir ki, 3 ölkənin əməkdaşlığı müstəqilliyimizə xor baxanlara cavabdır:** "Ermənistan daha çox Rusiya-Ermənistan-İran xəttinə üstünlük verdiyini bəyan edir. Halbuki burada daha çox Rusiya və onun forpostu olan Ermənistan var".

Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirləri arasında ilk dəfə olaraq üçtərəfli görüş bu ilin iyun ayında Brüsseldə keçirilmişdi. Görüşdə ölkələr arasında müdafiə sahəsində əməkdaşlıq perspektivləri və regionda strateji enerjidaşıyıcı infrastrukturun müdafiəsi üçün birgə hərbi təlimlərin keçirilməsi də planlaşdırılmışdı. Müdafiə nazirləri qeyd etmişdilər ki, üçtərəfli əməkdaşlığın daha da dərinləşdirilməsi Azərbaycan, Türkiyə və Gürcüstanın təhlükəsizliyinin təmin edilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan görüşünün bundan sonraya təsadüf etməsi həm də onu deməyə əsas verir ki, 3 ölkə hərbi əməkdaşlıq üçün Avropanın xeyir-duasını alıb. Fakt budur ki, Avropa Rusiya asılılığını azaltmaq üçün Azərbaycan qazına ümid edir və Azərbaycan qazının alternativ olduğu bir sıra hallarda açıq etiraf olunub. Təbii ki, belə olan təqdirdə regional kəmərlərin keçdiyi ölkələrin təhlükəsizliyinin təminatı həm də enerji layihələrinin qorunması deməkdir.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 209 (5918) 21 avqust 2014

**Rusiya baş naziri Dmitri Medvedev sentyabrın 8-9-da Ermənistana səfərə gedəcəyi bəlli olub. Ermənistanda nəşr edilən "Jamanak" qəzetinin yazdığına görə, səfər zamanı əsasən iqtisadi əməkdaşlıq məsələləri müzakirə ediləcək. Aydındır ki, istənilən ölkənin baş naziri hansısa başqa ölkəyə etdiyi ziyarəti çərçivəsində yerli hökumətlə ən əvvəl iqtisadi-maliyyə məsələləri ətrafında danışıqlar aparır.**



# Medvedyevin gözlənilən İrəvan səfərinin pərdəarxası

## Sanksiyalardan boğulan Rusiyanın baş naziri Ermənistanı iqtisadi kollapsdan qurtarmağa gedir, yoxsa iqtidardakı Qarabağ klanını xilas eləməyə?..

**Ancaq konkret halda özəllik ondan ibarətdir ki, bu, getdikcə Qərbin daha güclü iqtisadi sanksiyaları ilə üzləşən bir dövlətin - Rusiyanın baş nazirinin Güney Qafqazda Kremlin əsas forpostu olan Ermənistana səfəridir. Yəni ona sıradan hadisə kimi baxmağa gərək qalmır.**

Elə erməni nəşri də onu vurğulayır ki, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar Ermənistanda iqtisadi kollapsa səbəb ola biləcəyindən "böyük qardaş" vəziyyətdən çıxış üçün köməyini əsirgəməməlidir. Çünki Ermənistan qədər postsovet məkanında Rusiyanın iqtisadi asılılığında olan ikinci ölkə yoxdur. "Əgər Rusiya Ermənistana maliyyə dəstəyi verməsə, Ermənistanda iqtisadi kollaps yaranacaq. Medvedevin İrəvana səfəri zamanı öncə bu yöndə müzakirələrin aparılacağı gözlənilir. Təbii ki, səfər zamanı Ermənistanın Avrasiya İqtisadi Birliyinə qoşulması da diqqət mərkəzində olacaq", - deyə qəzet qeyd edib.

İşğalçı ölkənin durumu isə həqiqətən ağırdır və bunu oradakı əcnəbi diplomatlar da etiraf edir. Məsələn, **ABŞ-ın Ermənistandakı səfiri Con Xeffern** bir neçə gün öncə İrəvanda jurnalistlərlə görüşündə Birləşmiş Ştatların Rusiyaya qarşı tətbiq elədiyi iqtisadi-maliyyə sanksiyaları və onların Ermənistana mümkün təsirləri ilə bağlı suala cavab olaraq demişdi ki, Amerika tərəfi sanksiyalarla bağlı Ermənistan rəhbərliyi ilə çoxsaylı məsləhətləşmələr aparıb və İrəvanı dəfələrlə xəbərdar edib: "Sanksiyalar Rusiyaya qarşı yönəlib, Ermənistana yox. Ancaq onlar Ermənistan iqtisadiyyatı üçün də neqativ nəticələr doğura bilər. Əgər bu, İrəvana xoş deyilsə, şikayəti Moskvaya eləsin".

Bir sıra erməni şərhçilər isə Medvedevin Ermənistan paytaxtına gözlənilən səfərini çox böyük təhlükə kimi təqdim edilir. Məsələn, **təhlilçi Naira Ayrumanyan** məqaləsində baş nazirin gəlişini İrəvana növbəti rus ekspansiyası kimi dəyərləndirib (anspress).

**O, dediklərini Medvedevin İrəvana daha əvvəlki səfərlərini yada salmaqla sübut etməyə çalışıb. Sitat:** "2008-ci ilin oktyabrında prezident kimi gələn Dmitri Medvedev bildirmişdi ki, Gürcüstanla müharibə Bakı və İrəvan üçün ciddi dərs oldu. Bu, Rusiya üçün İrəvanda meydan açdı. 2010-cu ilin avqustunda etdiyi səfərdə Medvedev Rusiya bazasının Ermənistanda qalma müddətini artırdı. Həmçinin İrəvanı elə bir sazişə qol çəkməyə vadar etdi ki, Rusiya Ermənistanın təhlükəsizliyinin qarantı kimi qəbul edildi".

**Ayrumanyan düşünür ki, Dmitri Medvedevin Ermənistana gəlişi ölkədə rus hücumuna qarşı gizli müqavimət başlaması ilə bağlıdır:** "Xüsusilə də 2013-cü ilin dekabr ayında Putinin etdiyi səfərdən sonra ölkədə Rusiya hücumuna qarşı gizli müqavimət başlayıb".

**Təbii ki, bu müqavimət Rusiyanın son günlərdə üzləşdiyi çətinliklərlə bağlıdır, ermənilər neftin qiymətinin getdikcə düşməsi nəticəsində Rusiya iqtisadiyyatının böhrana girəcəyini ehtimal edirlər. Buna görə etirazçı kəsim ölkə başındakı Rusiya yönümlü** "Qarabağ klanı"ndan yaxa qurtarmaq, Qərb yönümlü yeni bir siyasətçini hakimiyyətə gəlməsində maraqlıdır. "Təbii ki, bu planlardan Moskva da xəbərdardır və Medvedevin gəlişi məhz bu "gizli müqavimət" yerində boğmaqdır. Erməni suverenliyini boğmaq üzrə mütəxəssis olan Medvedev bu dəfə yəqin ki, daha radikal davranacaq və Ermənistanın müstəqilliyini birdəfəlik tarixə qovuşduracaq. Erməni cəmiyyəti bu şoka hazır olmalıdır".

❑ **Siyasət şöbəsi**

# Türkiyə istəyir, amma bacarmır...

**Hüseynbala SƏLİMOV**



**Bəli, hər şey çox sadədir. Bəlkə də Ukrayna-Rusiya münasibətlərinin ən gərgin çağında prezidentlər görüşməsəydi indi üç qonşu ölkənin - Azərbaycanın, Türkiyənin və Gürcüstanın müdafiə nazirlərinin Naxçıvandakı görüşü bu qədər maraq kəsb etməzdi.**

Amma indi maraq vardı. Ona görə ki, birincisi, nazirlərin görüşünün prezidentlərin görüşünün davamı olduğu zənn edilirdi. İkincisi, görüş ciddi bir vaxta - Azərbaycanla Ermənistanın münasibətlərinin gərgin çağına təsadüf etmişdi.

İki ölkənin narahatlığını, bir ölkənin isə nisbi soyuqqanlılığını başa düşmək mümkündür. İki ölkə deyəndə Azərbaycanla Gürcüstanı, bir ölkə deyəndə isə Türkiyəni nəzərdə tuturuq.

Bakı ilə Tbilisi etibarlı təhlükəsizlik çətiri axtarır. Elə nazirlərin görüşünə diqqət kəsilənlər də onu başa düşmək istəyirdilər ki, görəsən, hansısa gələcək hərbi-siyasi ittifaqın konturları görünmür ki?

Əvvəldən bu məsələdə bir o qədər də optimist olmadığımızdan nazirlərin görüşünə daha çox hərbi diplomatiyanın bir jesti kimi baxırdıq - bəzən elə olur ki, hətta bir görüş də qarşı tərəfə "soyuq duş" kimi təsir edə bilir.

Prezidentlərin görüşü lap məqamında olmuşdu. Bu, Rusiyaya bir işarə idi ki, Qafqazda ciddi bir narahatlıq var. Amma həmin görüşdə daha sıx əməkdaşlığa işarə olsa da, hər hansı bir qurumun yaradılacağı, hansısa müqavilənin imzalanacağı haqda söhbət olmamışdı.

**Ona görə də nazirlərin görüşünə cari məsləhətləşmə kimi baxırdıq. Məsləhət üçün isə kifayət qədər predmet var.**

Demirik ki, Azərbaycanda və hətta Gürcüstanda indi elə böyük bir narahatlıq var ki, o, hərbi-siyasi məsləhətləşmələri həddindən ziyadə zəruri edir.

Yox, Azərbaycanda da, Gürcüstanda da cari siyasət öz axarındadır. Qonşu Gürcüstanda az qala hər gün eks-prezident M.Saakaşviliyə və onun silahdaşlarına cinayət işi açılır, Azərbaycanda isə onsuz da bərkimiş siyasət "vint"lərini bir az da bərkitməklə, ölkədə son demokratiya nişanələrini də qapatmaqla məşğuldurlar.

Amma kimi bilir? Bəlkə elə bunlar da Rusiyaya yönəlik siyasətin bir elementidir? Düzdür, Avropa Birliyi ilə assosiasiya sazişini payızda imzalamağı planlaşdıran Gürcüstan Rusiyanın təzyiqlərindən ehtiyat edərək bu prosesi bir qədər irəli çəkdi. Elə indi də Gürcüstanın siyasətində elə bir çalar yoxdur ki, bunu birmənalı şəkildə Rusiyaya doğru istiqamətlənmə kimi yozaq...

Amma Gürcüstanın böyük narahatlığı var. Sentyabr ayına, NATO-nun Uelss sammitinə çox qalmayıb. Artıq Tbilisidə başa düşürlər ki, bu sammitdən ciddi bir şey gözləməyə dəyməz. Amma nə etməli? Axı, Rusiya Rusiyalığında qalır və region əlavə təhlükəsizlik təminatı ala bilmir.

**Türkiyə bu iki dövlətin - Azərbaycanın və Gürcüstanın hər birindən qat-qat güclü və stabil ölkədir. Amma Türkiyə geosiyasət sahəsində arxitektor deyil. O olsa-olsa, hansısa bir geosiyasi arxitekturanın mühüm elementi ola bilər.**

Amma tək özü hələ təşəbbüskar rolunda çıxış etməyə hazır deyil...

Azərbaycanda bunun fərqindədirlər, onlar Türkiyədən yalnız diplomatik impuls almağa ümidlidirlər.

Bəs Bakıda nəyə ümid edirlər? Nə qədər qəribə olsa da, Bakı özünün ehtiyatlı siyasətinə arxayındır- burada nə Avropa Birliyi, nə də NATO haqqında düşünmürlər. Onları daha çox öz problemləri qayğılandırır. Bilirlər ki, Qərbdə İlham Əliyevin manevrləri heç də həmişə birmənalı qarşılanmır.

Amma onu da bilirlər ki, Qərb hələ də İlham Əliyevə və onun komandasına dözümlü münasibət göstərməyə məcburdur, əks təqdirdə Azərbaycan da Avrasiya İttifaqında və Gömrük Birliyində yer alar. Bakıda eyni zamanda onun da fərqindədirlər ki, indi siyasətdə "stavka"lar o qədər yüksəkdir ki, daxildə müəyyən "profilaktika" işləri aparmaq, hakimiyyətlərini bir az da zərərsizləşdirə bilərlər...

O ki qaldı Türkiyəyə, bir daha deyək ki, təbii, Türkiyədə çox istəyirlər ki, Azərbaycan da, Gürcüstan da öz müstəqilliyini bir az da möhkəmləndirsin. Amma bir daha qeyd edirik ki, Türkiyənin ən böyük dəstəyi diplomatiyadır.

**Sözsüz ki, bu da kiçik dəstək deyil. Vaxt olub ki, bu iki dövlətin hər iksi - Azərbaycan da, Gürcüstan da bir cümləlik bəyanata möhtac olub. Düzdür, indi o vaxtlar deyil, amma dünya da çox dəyişməyib - əsl böyük dəyişikliklər üçün böyük də vaxt lazımdır...**

# Əbu Bəkir əl Bağdadi Amerikanın dustağı olub

## ABŞ saytından sensasion iddia; o, amerikalı əsgərlərə "Nyu-Yorkda görüşərik", deyib; İŞİD Qərb ölkələrində döyüşmək üçün Qərbdən olan könüllüləri toplayır

**Amerikanın məşhur saytlarından olan "answers.com" ilginc məlumatlar yayıb. Sayt yazır ki, respublikaçılar və demokratlar inanırlar ki, İraq və Şam İslam Dövləti (İŞİD) tezliklə ABŞ-da peyda olacaq. Bu iddianın sübutu kimi sayt aşağıdakı faktları xatırladır.**





Əbu-Bəkir Əl Bağdadi hazırda İslam Dövlətinə rəhbərlik edir. Onun nəzarətində olan qrup o qədər qəddardı ki, "əl-Qaidə" də onlardan imtina edib. Bir dəfə o, ABŞ tərəfindən həbsdə saxlanılıb.

Belə deyilir ki, o, azad olanda onu əsir saxlayanlara deyib: "Cavan oğlanlar, sizinlə Nyu-Yorkda görüşəcəm ".

İslam Dövlətinin Mətbuat ofisinin rəhbəri Əbu Musanın belə dediyi bildirilir: "Biz Allahın bayrağını Ağ Evin üstündən asacağıq".

"Twitter"də ABŞ İŞİD hədəflərinə hava zərbələri endirdikdən sonra terrorçuların tərəfdarları belə bir xəbərdarlıq yaydılar: "Görüş yeri Nyu-York".

İllinoisdən olan demokrat və Obamanın yaxın müttəfiqi senator Dik Durbin deyib ki, İŞİD təkfirçi döyüşçüləri ABŞ-ı hədələyəcək dərəcədə böyüməkdədirlər.

Başqa bir demokrat, Kaliforniyadan olan senator Dianne Faynştayn həm də Senatın Kəşfiyyatla bağlı Komitəsinə rəhbərlik edir. O, bəyan edib ki, belə bir risk getdikcə artmaqdadır ki, İŞİD Amerikada və Avropada hədəfləri vurmaq üçün döyüşçülər hazırlamaqdadır. Senator deyib: "Getdikcə daha da aydın görünür ki, İŞİD Qərb ölkələrində döyüşmək üçün Qərbdən olan könüllülər toplayır. Yaxın Şərqdə onlara döyüş təlimləri keçirilir və mümkündür ki, onları Amerika və Avropa şəhərlərinə geri dönsünlər və bizə öz içimizdən hücum etsinlər".

Senator Rand Paul isə deyib ki, Suriyada Amerikanın öz müttəfiqləri silahlandırması İŞİD-i ruhlandırdı, onların Bəşər Əsədə qarşı döyüşən üsyançılardan qorunmasına kömək etdi.

Suriya prezidenti Bəşər Əsədsə deyib ki, müstəqil sayt olan "WND" bu günlərdə xəbər yaydı ki, 2012-ci ildə ABŞ tərəfindən İordaniyada gizli bazada təlim keçmiş İŞİD üzvləri Suriya prezidentin hədəf seçmiş üsyançılara xəlvəti yardım edirdilər.

"WND" saytının başqa bir xəbərində isə deyilirdi ki, İ.İD-i Səudiyyə Ərəbistanı silahlandırıb.

Nyu-Yorkdan olan senator Peter Kinq bəyan edib ki, İŞİD hər gün xilafətin yaradılması ilə bağlı işləri sürətləndirir: "Onlar ABŞ-a qarşı birbaşa təhlükə mənbəyinə çevrilməkdədir. Onlar indi 9/11 hadisələri zamanı güclü olan "əl-Qaidə"dən daha güclüdür. Və mən istəmirəm ki, bu kimi hadisələr yenidən baş versin".

**İŞİD keçmiş "əl-Qaidə" üzvlərindən yaranıb və yeni ad altında çıxış edir. Bu ad isə qrupun hədəfindən xəbər verir. Onlar xilafətin yaranması yolunda duran hər şeyi məhv etməyə hazırdırlar.**

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**



# 3 günlük müharibədə şəhid olanların ailələrindən son xəbər

**Deputat Əhməd Vəliyev:** "Baş daşının qoyulmasına qədər dövlət bütün xərcləri öz üzərinə götürüb"



Əhməd Vəliyev

**Ermənistan silahlı qüvvələrinin iyulun 31-dən başlayaraq 3 gün Azərbaycan ərazilərini intensiv atəşə tutması nəticəsində ordumuz xeyli itki verdi. Bu qısa müharibədə bəzi iddialara görə 15-ə qədər şəhid verdik.**

Həmin şəhidlər son 20 ildə görünməmiş təntənə ilə dəfn edildi, onların ailələrinə həm dövlət səviyyəsində ciddi dəstək verildi, həm də ictimaiyyət tərəfindən.

Media da bu prosesdə ciddi işlədi. Jurnalistlər ermənilərlə sərhəd kəndlərindən reportajlar verdilər. Günlərlə cəbhə bölgəsində qaldılar. Həmçinin şəhidlərin ailələrindən, onların dəfnindən yazılı və görüntülü reportajlar hazırladılar.

**Şəhid olan hərbçilərimizdən biri də Qazax rayonunun Böyük Cəfərli kənd sakini gizir İsa Almazovdur.** Qəhrəman gizirimizin 4 övladı var. Onun şəhid olmasından sonra yaxınları mərhum gizirin ailəsinin dövlət tərəfindən himayəyə götürüldüyünü bildirmişdi.

Əməkdaşımız İsa Almazovun ailəsindən reportaj hazırlayarkən onun xanımı imkansızlıq ucbatından ev tikdirmək səbəbi ilə bankdan 10 min manat civarında kredit götürdüklərini bildirmişdi.

Həmin ailənin bugünkü durumu ilə maraqlanmaq üçün **Qazaxdan deputat olmuş Əhməd Vəliyevlə** əlaqə saxladıq. Son 2-3 günü rayonda səfərdə olduğunu bildirən deputat, hazırda Bakıya döndüyünü dedi: "Elə neçə gün idi həmin ailəyə baş çəkirdim. Bu ailəyə rayon icra hakimiyyəti, digər qurumlar tərəfindən yardımlar olunub. Baş daşının qoyulmasına qədər dövlət bütün xərcləri öz üzərinə götürüb. Yas mərasimi də həmçinin. Rayonda olduğum bu günlər ərzində bütün sərhəd kəndlərində oldum. Sülh, əminamanlıqdır, atışma yoxdur. Kənd sakinləri deyir ki, bizə heç əsgər də lazım deyil. Silah verin özümüz torpağımızı qoruyaq. Qürur duydum. Dedim ki, hər biriniz milli qəhrəmansınız".

Həmin ailənin kredit borcu ilə bağlı sual verdikdə isə Ə.Vəliyev bildirdi ki, ailəyə heç bir yük düşmədən bütün maddi məsələlər həll ediləcəkdir.

**Son atışmalar zamanı Salyan rayonu Seyidsadıqlı kəndindən şəhid olmuş Səftər Məmmədovun ailəsinin hazırkı durumu ilə də maraqlandıq.**

Atasının eşitmə qüsuru olduğuna görə, mərhumun babası Xudakərim Məmmədovla danışdıq.

Şəhidin ailə tərkibi barədə informasiya verən X.Məmmədov mərhumun evin tək oğlu olduğunu dedi:

"3 bacı, 1 qardaş idilər. Bacısının biri ölmüşdü. Bu da vətən yolunda şəhid oldu. Çox kasıb, imkansız ailədirlər. Yas mərasiminin xərcini icra hakimiyyəti çəkdi. Dəfnə xeyli adam da gəlmişdi. Bakıdan bir deputat qadın da gəlmişdi. Adını bilmirəm. İsa Qəmbərin müavini Arif Hacılı da gəlmişdi. İcra hakimi məzuniyyətdə idi deyə, bütün nümayəndələri gəlmişdi. İndi də atasını çağırıb deyirlər, yardım edəcəklər. Bu ayın başında (əvvəlində) yardım gələsi idi, olmadı. Biz də baş daşını sifariş vermişik. Görək nə olacaq".

Atəşkəsin pozulması nəticəsində ən ağır zərbənin dəydiyi yerlərdən biri də **Biləsuvar rayonunun Nəriman kəndi** olub. Bu kənd həmin atışmalarda 3 şəhid verib - Pərvin Əliyev, Rahil Hüseynov və Anar Qarazadə.

**Bu şəhidlərdən Pərvin Əliyevin qardaşı Ramil beylə əlaqə saxlaya bildik.**

"Şükür Allaha hər şey qaydasındadır" - deyən, R.Əliyev kəndin yas içində olduğunu söylədi. Hər üç evin həyatində yas çadırının qurulduğunu söyləyən, R.Əliyev rayonun deputatı Xanhüseyn Kazımlının yas mərasimlərində iştirak etdiyini bildirdi.

Sonda qeyd edək ki, qanuna görə şəhid olan hərbiçilərin ailələrinə 11 min manat kompensasiya ödənilməlidir. Bu məbləğ hərbiçinin rütbəsindən asılı olaraq dəyişmir.

**Bir daha Allahdan şəhidlərimizə rəhmət, yaxınlarına səbir diləyirik.**

❑ Fəridə ABDIYEVA

# Əlvida 50, salam 51!

## Xalq yazıçısı Anardan Rəşad Məcidin 50 yaşına yubiley yazısı

**Rəşad Məcidin 50 yaşı tamam olur. Rəşad Məcidin kitablarının biri «Əlvida və salam» adlanır. Rəşad Məcid bu gün 50 yaşına əlvida deyir, 51 yaşını, ömrünün bütün gələcək onilliklərini salamlayır. Rəşad Məcidin on il bundan qabaq, təbii ki, 40 yaşı vardı. Ona Yazıçılar Birliyinin Gənclərlə iş üzrə katibi olmağı təklif etdim. Katiblərimiz də onun namizədliyini dəstəklədilər və 2004-cü ildə XI Qurultayımızda Rəşad Məcid yekdilliklə təşkilatımızın katibi seçildi.**

ANAR



### "Rəşad dostluqda etibarlı, münasibətlərində dəyişməz, incə mətləbləri duya bilən insandır"

O gündən keçən on ildə seçimimizdə yanılmadığımız təsdiq olundu və bu il 12-ci Qurultayımızda Rəşad yenidən bu vəzifəyə seçildi.

Rəşad Məcidi yazılarından tanıyırdım. «525-ci qəzet» kimi ucuz dedi-qodulardan, qərəzçilikdən uzaq, mötədil, obyektiv və səviyyəli mətbuat orqanını yaratmış və çətin şəraitdə yaşatmışdı.

Rəşad Yazıçılar Birliyində ilk günlərdən istedadlı gənclərlə dil tapa bildi. Gənclərə xoş münasibət «qadan alım, qurban olum» demək, «getmə gözümdən, gedərəm özümdən» prinsipiylə davranmaq deyil. Gənclərə qayğı real hərəkətlərlə həyata keçir. Rəşad Məcidin yaratdığı və rəhbərlik etdiyi Gənc Ədiblər Məktəbi ədəbiyyatımıza neçə-neçə istedadlı cavanı gətirdi.

Yazıçılar Birliyinə qarşı sürülən iradlardan bəlkə də ən insafsızı guya burda gənclərə yetərincə diqqət edilməməsidi. Əgər Birlikdə xüsusi Gənclər Şurası fəaliyyət göstərirsə, gənclər ard-arda məsul vəzifələrə irəli çəkilirsə, səfərlərə göndərilirsə, kitablarının təqdimatları keçirilirsə, «Ulduz» jurnalı bütünlüklə cavanların ixtiyarına verilibsə və nəhayət, neçə ildən bəri iyirmi gənc yazar



Prezident təqaüdü alırsa (bunlar isə küll halında 140 nəfər deməkdir), bunları yalnız görmək istəməyənlər görmürlər. Bütün bu məsələlərin düzgün və ədalətlə həll olunmasında Rəşadın rolu danılmazdır.

Məlum olduğu kimi, hörmətli Prezidentimizin sərəncamıyla hər il yaşlı və gənc yazıçılara təqaüd verilir.

Gənc təqaüdçülərin siyahısını əsasən Rəşad Məcid müəyyənləşdirir. Neçə il ərzində bu sarıdan heç bir narazılıq olmayıb. Bu həm gənclərin daha təmkinli olmağı deməkdir, həm də Rəşadın düzgün seçimiylə bağlıdır. Doğrudur, tək-tük hallarda gənclərin arasından da Rəşadın bütün yaxşılıqlarını unudanlar tapılır. Nankorluğun yaşı yoxdur axı...

Rəşad Məcid istedadlı yazıçıdır, özü də bu istedad ədəbiyyatın müxtəlif janrlarında meydana çıxır. Elə neçə dilə çevrilmiş «10 sentyabr» hekayəsi yetər ki, müəllifi çağdaş nəsrimizdə layiqli yer tutsun.

Vaxtilə bu hekayə haqqında mən də, başqa yazıçılarımız da müsbət fikirər söyləmişdik.

Rəşad orijinal şair olmaqla yanaşı həm də gözəl şeirlərin heyranıdır. Saatlarla Ramiz Rövşənin şeirlərini əzbərdən oxuya bilər. Eləcə də Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Fikrət Qocanın, Vaqif Səmədoğlunun vurğunudur. Bu günlərdə AzTV-nin «Poeziya» verilişində mərhum Şahmar Ələkbərzadənin xeyli şeirini əzbərdən oxudu. Bu da zənnimcə çox səciyyəvidir. Özü istedadlı olan adam başqalarının yaratdıqları gözəlliklərə biganə qala bilmir. Öz bədii imkanlarından arxayın olanlar başqalarının uğurlarına sevinməyi bacarırlar. Özündən müştəbehlik, «burda mənəm, Bağdadda kor xəlifə» iddiası kəmlik kompleksindən törəyir.

Təəssüf ki, Rəşadın Yazıçılar Birliyində, «525-ci qəzet»də işləri, jurnalistlər təşkilatında, ümumiyyətlə ictimai həyatda fəallığı onun yaradıcılığa kifayət qədər vaxt ayırmasına əngəl olur.

Yazar kimi də, şəxsiyyət kimi də Rəşadın məziyyətləri az deyil. Onların arasında mənə görə ən önəmlilərindən biri, bəlkə də birincisi gözütoxluqdur. Birgə işlədiyimiz bu illər ərzində Rəşad bir dəfə də mənə hansısa vəzifə, mükafat, fəxri ad istəyiylə müraciət etməyib. Vəzifəpərəst də deyil. Böyük Səməd Vurğunun sözlərini özünə aid təkrar edə bilərdi: «Mən tələsmirəm». Hər şeyə - tələsməyənlər çatır. Xalq demiş, tələsən tələyə düşər.

Rəşad dostluqda etibarlı, rəğbətlərində sabit, münasibətlərində dəyişilməzdir. Həm də ən incə mətləbləri duya bilən həssas insandır.

İnanıram ki, Rəşad Məcid hələ çox-çox illərə «əlvida», çox-çox onilliklərə «salam» deyəcək və həmişə bu gün olduğu kimi gənc qalacaq. Çünki gənclik də qocalıq kimi yaşdan asılı deyil. Belə bir ifadə var: «Ağıl yaşda yox, başda olar». Bu ifadəyə başqa bir deyim də əlavə etmək olar: «Cavanlıq yaşda deyil, qəlbdədir».

**Ad günün mübarək, Rəşad!**

# "Yoldaşımın bədəninin 43 faizi yanıb, hələ də reanimasiyadadır"...

## Özünü və həyat yoldaşını yandıran Qarabağ qazisi: "Ümid edirəm ki, hər şey yaxşı olacaq"

**Özünü yandıran Qarabağ qazisi Elçin Salahovun həyat yoldaşı Jalə Salahovanın durumu ağırlaşıb. Respublika Yanıq Mərkəzinin həkimi Şöhrət Məmmədovanın ANS PRESS-ə verdiyi məlumata görə, Jalə Salahovanın vəziyyəti kritikdir və onun yaşamaq şansı çox azdır.**

Həyat yoldaşının durumu ilə bağlı daha ətrafı məlumat almaq üçün hazırda 5 saylı xəstəxananın yanıq şöbəsində müalicə alan Elçin Salahovun özü ilə əlaqə saxladıq.

Qarabağ qazisi vəziyyətinin yaxşı olduğunu və artıq ayağa qalxaraq yeriyə bildiyini söylədi.



Elçin Salahov

Həyat yoldaşının durumuna gəlincə, Elçin Salahov bildirdi ki, o ümidini itirməyib və inanır ki, hər şey yaxşı olacaq: "Yoldaşım hələ də reanimasiyadadır, bizə necə lazımdırsa yardım olunur, müalicəmiz aparılır, inanıram ki, hər şey yaxşı olacaq".

**Həkimlər tərəfindən söylənən ümidsiz fikirlərə gəlincə, Qarabağ qazisi bildirdi ki, burada J.Salahovadan daha ağır xəstələr var ki, müalicə alıb sağalıblar:** "Allahın bildiyi məsləhətdir. Yoldaşımda bədənin 43 faizi yanıb, burada ondan da ağır yanıq dərəcəsi olan xəstələr var. Əsas odur ki, vaxtlı - vaxtında müalicəsi aparılır, qan köçürmək lazım idi onu da tapdılar, köçürdülər."

Qarabağ qazisinin yoldaşı ilə birgə özünü yandırmasının səbəbi olan ev məsələsinə gəlincə, E. Salahov bildirdi ki, bununla bağlı yenidən apelyasiya məhkəməsi keçiriləcək və hazırda araşdırma aparılır.

**İntihara cəhd faktı ilə bağlı açılan cinayət işi ilə bağlı da hələ ki heç bir yenilik yoxdur. Prokurorluq tərəfindən E.Salahovun ifadəsi alınıb və araşdırma davam edir.**

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 209 (5918) 21 avqust 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Sülh danışıqları ilə bağlı yeni ideya

## Sabina Freyzer tərəflərin sülhdən uzaqlaşmasının səbəbini həmsədrlərdə görür; iqtidaryönlü politoloq Azərbaycan və Ermənistan üçün Rusiyanın iştirakı ilə hazırlanacaq yeni "yol xəritəsi" təklif edir...

**Avqustun ilk həftəsində Azərbaycan-Ermənistan cəbhəsində lokal döyüşlər getməsi, 15-dən artıq şəhid verməyimizdən dərhal sonra baş tutan prezidentlərin Soçi görüşündə konkret bir nəticə əldə olunacağı gözlənilirdi. Ancaq indiyədək açıqlanan informasiyalar və aparılan müşahidələr sülh danışıqları istiqamətində bir irəliləyiş olmadığını düşünməyə əsas verir.**

Əlbəttə, bağlı qapılar arxasında keçirilən görüşün tamamilə nəticəsiz qalmasını iddia etmək də absurddur. Və artıq görünən budur ki, Soçi görüşü ən azı bir sıra həqiqətləri ortaya çıxarıb. İndi ortaya çıxan rəylər bunu deməyə əsas yaradır ki, indiyə qədər üzərində işlənən həll versiyaları ilə münaqişənin çözülməsi mümkünsüz kimi qiymətləndirilib, yeni variantlar işlənilməsi zərurətini ortaya çıxarıb. Eyni zamanda beynəlxalq birlikdən Rusiyaya, vasitəçilərə yönəlik ittihamlar səslənməyə başlayıb.

**ABŞ Atlantik Şurasının transatlantik əlaqələr üzrə baş elmi işçisi, beynəlxalq siyasi analitik Sabina Freyzer son** həftələrdə Azərbaycan və Ermənistan arasında baş vermiş silahlı toqquşmaları 1994-cü ildə imzalanan atəşkəs sazişindən bəri ən gərgin dövr adlandırıb. APA-nın Atlantik Şurasının rəsmi saytına istinadən verdiyi məlumata görə, S. Freyzer öz məqaləsində Azərbaycan və Ermənistan arasındakı münaqişədən, cəbhə xəttində gərginlik və sülh danışıqlarından söz açıb.

"Tez-tez unudulan Dağlıq Qarabağ münaqişəsi bu yay özünün ən gərgin dövrünü yaşadı. Son həftələrdə bu gərginlik ən azı 18 hərbçinin ölümü ilə nəticələndi. Toqquşmalar təkcə müharibənin yenidən başlaması və atəşkəsin pozulma təhlükəsi qarşısında olduğunu göstərmədi, eləcə də Rusiyanın özünü Qafqazdakı təhlükəsizliyin əsas təminatçısı kimi göstərməsinə imkan yaratdı. Millətçi və imperialist siyasət yürüdən Vladimir Putin hökuməti həqiqətən də problemi həll etməyə meylli görünmür. Halbuki, bu döyüşlər regionun neft və qaz tranziti, həmçinin Qərbin maraqlarına uyğun digər layihələr üçün təhlükəsiz olmasına əngəl törədir", - deyə S. Freyzer bildirib.

**Cəbhə xəttindəki gərginliklərin əsas etibarilə Rusiyanın bölgədə möhkəmlənməsinə xidmət etdiyini söyləyən S.Freyzer qeyd edib ki, prezidentləri 9 avqust tarixində Soçiyə dəvət etməklə Vladimir Putin öz sülhsevər portretini yaratmış oldu:** "Hər iki tərəfdən açıqlanan rəsmi məlumatlara görə, 30 iyuldan avqustun 4-dək cəbhə xəttindəki gərginlik nəticəsində 18 hərbçi ölüb. Rəsmi məlumatlar çox vaxt mülki şəxslər arasındakı ölümləri və təhlükəni əhatə etmir. Snayperlər tərəfindən vurulan və minaya düşüb ölən insanların sayı son bir ildə 30 nəfər olub".

**Analitikin sözlərinə görə, münaqişənin həlli istiqamətində atəşkəsdən sonrakı mühüm addım qoşunların geri çəkilməsi və qaçqınların öz torpaqlarına geri qaytarılması ola bilərdi, lakin, bu baş verməyib:** "Ermənin silahlı birləşmələri hələ də Azərbaycan ərazisi olan Dağlıq Qarabağda qalmaqda davam edir. Azərbaycan isə neftdən faydalanaraq hərbi büdcəsini keçən il 3,7 milyard dollara qədər artıra bilib. Bu, 10 il bundan əvvəlki rəqəmdən 20 dəfə artıqdır. İlham Əliyev avqustun 7-də "Twitter" hesabında itirilmiş torpaqları geri almaq niyyətində qəti olduqlarını bildirib və yazıb ki, Azərbaycanın son illər əldə etdiyi silah-sursat və hərbi texnika istənilən tapşırığın öhdəsindən gəlməyə imkan verir".

**Analitik Ukraynadakı münaqişənin və Krımın ilhaqının Cənubi Qafqazdakı proseslərə də təsir etdiyini vurğulayıb:** "Rusiyanın Krımı qısa müddətdə ilhaq etməsi və Ukraynanın şərqindəki qarşıdurmalar Azərbaycan və Ermənistanın hərbi yoldan imtina edərək münaqişəni həll edəcəklərinə inamı zəiflətmiş oldu. Azərbaycanda belə bir əminlik yaranıb ki, qısa müddətdə qətiyyətli hərbi əməliyyatlar yolu ilə getdikcə uzanan və heç bir həlli görünməyən münaqişəni daha tez bitirmək olar. BMT-nin qətnamələrinə görə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və münaqişənin həllinin bu istiqamətdə aparılması nəzərdə tutulur. Rəsmi Bakı da danışıqlarda ərazi bütövlüyünün dəyişilməz qalmasını tələb edir və bu prinsipin əsas tutulmasını vacib sayır. Həmçinin Ermənistan tərəfdə də belə bir fikir formalaşıb ki, heç bir beynəlxalq təzyiqlərə məhəl qoymadan referendum keçirmək və hərbi güc nümayişi yolu ilə, münaqişəni həll etmək olar. Beləliklə, beynəlxalq vasitəçilərin də danışıqlarda qətiyyət göstərə bilməməsi tərəfləri sülh danışıqlarından daha çox uzaqlaşdırır".

Yaranmış situasiyanı yerli ekspertlər də təxminən bu prizmadan dəyərləndirirlər. **Politoloq Mübariz Əhmədoğlu** Qarabağla bağlı yaranmış durma dair keçirdiyi mətbuat konfransında deyib ki, Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin Soçi görüşü vasitəçilər arasında geosiyasi ziddiyyətləri üzə çıxarıb: "Bütün prizmalardan Rusiya prezidenti Vladimir Putinin təşəbbüsü Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində yeni mərhələdir".

**Trend-in məlumatına görə, politoloq deyib ki, prezidentliyinin ikinci dövrünə yenicə başlamış V.Putin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsindən istifadə edərək regiona və dünyaya öz mesajını vermək niyyətindədir:** "Tam inamla demək olar ki, V.Putin özünün zəif görünməsinə imkan verməyəcək. İkincisi, V.Putini bu təşəbbüsü irəli sürməyə vadar edən əsas amil hərbi faktordur. Dağlıq Qarabağ münaqişəsi regionundakı hərbi aktivlik istənilən anda müharibəyə çevrilə bilər. Dağlıq Qarabağda başlanan müharibəni maraqlı tərəflər qısa müddət ərzində Şimali Qafqaz regionuna keçirə bilərlər. Bu isə Rusiya üçün çox ağır zərbə ola bilər. Hətta Rusiya Ukrayna və Suriyadan geri çəkilməyə məcbur ola bilər. Ona görə də Dağlıq Qarabağ münaqişəsi regionunda son hərbi insidentlər V.Putinə Qərbin marağı kimi göründü və dərhal təşəbbüs irəli sürdü".



Sabina Freyzer



Mübariz Əhmədoğlu

**M.Əhmədoğlu qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi regionunda hərbi insidentlərin artmasının səbəbkarı yalnız Ermənistandır:** "Ermənistanda başa düşürlər ki, Azərbaycanın və Ermənistanın hərbi gücləri arasındakı ən minimal fərq məhz indidir. Zaman keçdikcə bu fərq Azərbaycanın xeyrinə daha da artacaq, ona görə də Ermənistan hərb meydanında özünü göstərmək istəyirsə, bunu indi etməlidir, bir azdan çox gec olacaq; digər tərəfdən, Ermənistanın ABŞ və NATO ilə hərbi əlaqələrinin pik dövrüdür".

**Politoloq bildirib ki, ABŞ ilə Ermənistan arasında artan hərbi əlaqələr fonunda hərbi insidentlərin artması Rusiyanı narahat etməli idi, lakin hərbi əlaqələrin artması tək səbəb deyildi:** "ABŞ-ın Ermənistandakı səfiri Ermənistan hökumətini ABŞ-ın qəbul etdiyi anti-Rusiya sanksiyalara qoşulmağa çağırdı. ABŞ-ın Ermənistandakı səfiri həmsədrlərin Soçi görüşündə iştirak edə bilməyəcəyini bildirdi, bununla da Soçi görüşünü boykot etməyə çalışdı. Amerikalı həmsədr Ceyms Uorlik və ABŞ-ın Ermənistandakı səfiri C.Hefferin rəsmi açıqlamalarında Rusiyanın rolunu alçaltmaq kursu götürdülər. Nəticədə həmsədrlər həqiqətən Soçi görüşünə qatılmadı".

**M.Əhmədoğlu vurğulayıb ki, digər mühüm proses isə prezidentlərin üçtərəfli görüşündə baş verib. Onun sözlərinə görə, V.Putin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Rusiyanın xüsusi rola malik olmasını təklif edib:** "Azərbaycan Putinin bu təklifini qəbul etdiyi halda Ermənistan rədd etdi. ABŞ və Rusiya arasında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi predmeti üzrə kəskin ziddiyyətlər göz qabağındadır. Bunu gizlətmək mümkün deyil. İki vasitəçi arasında ziddiyyət Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin aktiv mexanizmlərindən biri olacaq. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ən böyük mexanizm Azərbaycanın fəaliyyətidir. Heç kim Azərbaycanın qarşısını ala bilməz. Yaranmış geosiyasi ziddiyyət qısa müddətdən sonra Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Azərbaycana əlavə resurs yaradacaq".

**Mübariz Əhmədoğlu söyləyib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün Azərbaycana və Ermənistana fərqli "yol xəritələri" təqdim etməlidir:** "Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ən böyük manеə tənzimləmə variantına Azərbaycan və Ermənistanın birgə konsensus verməsidir. Belə mexanizmin mövcudluğu konsensusu siyasiləşdirir və psixoloji parametrə çevirir. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində xüsusi status istəyən Rusiya hökmən bu vaxtadək gedilmiş yoldan fərqlənən metodologiya ortalığa qoymalıdır. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Azərbaycana və Ermənistana aid məsələləri bir-birindən ayırmaqla və bu məsələləri hissə-hissə, sürətlə həll etməklə dinc tənzimləmədə dönüş yaratmalıdır. Ona görə də Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Azərbaycanla əlaqəli məsələləri ayrıca qruplaşdırmaq lazımdır. Rusiya bu istiqamətdə böyük iş görə bilər. Bu həm də orijinal yanaşmadır".

**M.Əhmədoğlunun fikrincə, Azərbaycanla əlaqəli "yol xəritəsi"ni aşağıdakı formada görmək olar:** "Birgə siyasi, diplomatik, hüquqi izahat işlərinin aparılması; Üçtərəfli iqtisadi, kommunikativ layihələrin müzakirəsi. Putinin Prezident İlham Əliyevlə görüşdə dediyi etimad məsələsi həm iqtisadi, həm də kommunikativ proseslərin sağlam əsasda olmasının ən böyük təminatçısıdır. Rusiya öz məhsullarının Dağlıq Qarabağa müvəqqəti keçməsi üçün hüquqi baza yaratmalıdır. Bütün hallarda Ermənistandan Dağlıq Qarabağa gedən yol işğal olunmuş Azərbaycan torpaqlarından keçir. Dağlıq Qarabağ da işğal olunmuş Azərbaycan torpağıdır. Dağlıq Qarabağın statusunun müəyyən olunmasının müəyyən qədər vaxt apardığı nəzərə alınmalıdır. Ona görə də Ermənistandan Dağlıq Qarabağa keçən RF və ya Gömrük İttifaqı məhsul və ya xidmətlərinin tranzitinin hüquqi bazasını yaratmaq üçün Azərbaycanla danışıqlara başlanmalıdır. Yalnız Azərbaycanla hüquqi müqavilə imzalandıqdan sonra Dağlıq Qarabağa Rusiya qazı nəql oluna bilər. RF və Azərbaycan bu həqiqəti ermənilərə başa salmalıdırlar. Bu qayda təkcə təbii qaza deyil, neft məhsullarına da daxil olmaqla bütün qalan məhsul və xidmətlərə aid edilməlidir. Hərbi insidentlərin baş verməməsi üçün ritorik deyil, real işlər görülməlidir...

Rusiya və Azərbaycan mütəxəssisləri vaxtilə Azərbaycanı tərk etmiş ermənilərin Azərbaycan ərazisində məskunlaşması üçün yeni yaşayış ərazisinin müəyyənləşməsi barədə məsləhətləşmələr apara bilərlər. Ötən il Putin Bakıda olarkən Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində siyasi üsulu əsas faktor kimi ortalığa qoydu. O vaxt imzalanan bəzi sənədlər də dolayısılə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə təsir edə bilər. O proseslər də aktivləşdirilsə, faydalı ola bilər".

**Politoloq qeyd edib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Ermənistan üçün "yol xəritəsi"ndə isə bu ölkəni narahat edən məsələlərin həllinin tapılmasında ona kömək edə bilər:** "Məsələn, ərazi bütövlüyü prinsipi Dağlıq Qarabağ münaqişəsinə necə tətbiq olunur; Dağlıq Qarabağ münaqişəsi fonunda xalqların bərabərliyi və xalqların öz müqəddəratını təyinetmə prinsipi necə başa düşülür və ya güc tətbiq etməmək prinsipi elə əvvəlcədən güc tətbiqinin nəticələrinin aradan qaldırılması deməkdirmi; Dağlıq Qarabağ azərbaycanlıları Dağlıq Qarabağa qayıtmadan Dağlıq Qarabağın statusu tanına bilərmi və ya beynəlxalq hüququn bu regionda güclənməsi hər iki tərəfin xeyrinədirmi. İqtisadi kommunikativ proseslərin inkişafına təkan vermək üçün lazımi izahat işlərinin aparılması; Ermənistana izah olunmalıdır ki, Dağlıq Qarabağ münaqişəsi tənzimlənməzsə, Ermənistanda effektiv iqtisadiyyat qurula bilməz. Heç bir dövlət də sonadək Ermənistana investisiya "inyeksiyası" etməyəcək. Ermənistan üçün ən vacib investisiya Azərbaycanla münasibətlər nəticəsində əldə edilmiş investisiyalardır, Ermənistanla ən vacib kommunikasiya isə Azərbaycan ərazisi vasitəsilə qurulan kommunikasiyadır. Ən effektli və uzunmüddətli təsir edən proses isə Ermənistandan qovulan azərbaycanlıların Ermənistana qaytarılmasıdır. Keyfiyyətcə yeni Ermənistan dövləti yaranır: monoetnik və monokonfessional Ermənistan polietnik və polikonfessional dövlətə çevrilir. Rus dilinin dövlət dili olması üçün şərait yaranır. Dağlıq Qarabağdakı ermənilərin təhlükəsizliyi Ermənistandakı azərbaycanlıların təhlükəsizliyi ilə bərabər tutulur. Bu, ermənilərə sabitləşdirici təsir göstərir. Əlbəttə, Rusiyanın yaxından iştirakı vacib şərtdir".

**M.Əhmədoğlu iqtidara yaxın bir politoloqdur. Onun Qarabağla bağlı prosesdə müəyyən məlumatları olması da zaman-zaman öz əksini tapıb. Odur ki, onun bu açıqlamaları kifayət qədər ciddi görünür. Ola bilər ki, bu, rəsmi siyasi dairələrdə müzakirə olunan məsələdir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

YENİ MÜSAVAT
N 209 (5918) 21 avqust 2014

# Dözülməz şəraitddə yaşayan Qarabağ qaziləri

**Çətin şəraitdə yaşayan və problemlərinin həllinə çarə tapa bilməyən Qarabağ qazilərinin həyatını işıqlandırmaqda davam edirik. Növbəti ünvanımız, Yasamal rayonunda "Qanlı göl"ün yerləşən məcburi köçkün daxmalarıdır.**

## "Vətən yolunda əvəzsiz xidmətimə görə evsiz-eşiksiz qaldığımdanmı, daxmalarda çürüməyimdənmi danışım? İcazə verin çörəkpulumu qazanım"







İlk baxışdan buranın insan məskəni olması adamı dəhşətə gətirir. Taxta-dəmir parçalarından quraşdırılmış daxmalara ev deməkdə çətinlik çəkirik. Normal bir insanın boyundan da alçaq olan bu daxmalarda Qarabağ veteranları yaşayır. Tikinti tullantılarından tapıb bir-birinə quraşdıraraq tikdikləri evlərdə nəinki yaşamağa, rahat hərəkət etməyə belə çətinlik çəkirik. Bu cür balaca daxmalarda 7 -8 nəfərlik ailələrin yaşamasına isə həyat demək olmaz.

Evlərin şəraiti və qəzalı vəziyyətdə olması bir tərəfə, bütün rayonun çirkab sularının axıdıldığı "Qanlı göl"ün 10 metrliyində yerləşməsi də burada yaşayanları həyatından bezdirib.

Əksəriyyəti məcburi köçkün olan ailələr deyir ki, burada üfunət iyindən, ağcaqanad, milçək əlindən nəfəs almaq mümkün deyil. Həqiqətən, sakinlərlə söhbət etdiyimiz yarım saat ərzində, üfunət qoxusuna çətinliklə tab gətirdik. Bu insanların 20 ildən artıq bir müddətdə burada necə yaşaması həm təəccüblü, həm utandırıcı idi.

Onlar bu dövlətdən də, bu xalqdan da küsüblər. Jurnalist olduğumuzu biləndə danışmaq belə istəmirlər. "Bəs, 20 ildir harada idiniz? Bizi hamı unudub. Guya sizin yazmağınızla nə düzələcək?" - deyirlər.

Burada yaşayanların əksəriyyəti şəhid ailələri və Qarabağ veteranlarıdır. Hər biri Qarabağ döyüşlərində vuruşub, qəhrəmanlıq göstəriblər.

Hətta **Zamiq adlı bir veteran** döyüşdə öldürdüyü erməni əsgərinin qulağını kəsib və bu gün də saxlayır. Qonşularının dediyinə görə, indi Zamiq çörəkpulunu qazanmaq üçün zibilyığan işləyir. Onunla telefon əlaqəsi saxlayıb həyatını işıqlandırmaq istədiyimizi deyirik. Cavabı belə olur: "20 ildir heç kim məni itirib axtarmır, siz nə üçün gəlmisiniz? İndi əlimdə zibil daşıyıram, maşına zibil yükləyirəm. Nə danışım mən sizə? Vətən yolunda əvəzsiz xidmətimə görə evsiz-eşiksiz qaldığımdanmı, daxmalarda çürüməyimdənmi danışım? İcazə verin çörəkpulumu qazanım".

**Digər bir Qarabağ qazisi Aslan Məmmədov** isə deyir ki, ötən 20 ildə onlara nəinki qayğı göstərən, gəlib hal-əhvallarını soruşan belə olmayıb: "Vətən uğrunda vuruşmuşuq, canımızdan belə keçməyə hazırıq. Lakin uğrunda döyüşdüyümüz torpaqda, bizə qayğı göstərilmir. Sınıq-sökük daxmalarda ömrümüz çürüyür. Uşaqlarımızın gələcəyi var axı! Günəmuzd fəhlə işləməklə nə artıra bilərik? Dövlət bizə niyə kömək etmir? Bizim də ailəmizdə gələcəyin əsgərləri böyüyür. Bu cür çirkab içində necə uşaq böyütmək olar?"

Evlərinin darısqallığı bir tərəfə, "Qanlı gölün" üfunətli qoxusu da bir yana, burada yaşayan məcburi köçkünlərin həyatını dözülməz edən daha bir məqam da odur ki, Yasamal rayonunun bütün zibilxanalarından yığılan tullantılar bu əraziyə gətirilir.

**Qarabağ veteranının xanımı Vəsilə Məmmədova** deyir ki, Yasamaldakı əksər binaların zibillərini gətirib onların daxmalarının yaxınlığına tökürlər: "Hər gün böyük maşınlarla söküntü qalıqlarını bu dar yolla, səsli küylü şəkildə gətirib buraya boşaldırlar. Səs-küydən yata bilməmək bir tərəfə qalsın, gölə axıdılan kanalizasiya sularının, atılan tullantıların üfunətindən, ağcaqanad əlindən evdə yaşamaq mümkün deyil. Nəfə almaq belə zülmdür bizə" .

**Düşmənin məhv edə bilmədiyi insanları, yaşadıqları problemlər və onlara göstərilən laqeyd münasibət günbəgün, anbaan öldürür. Qarabağ qazilərini yaşadıqları bu çətinliklərlə baş-başa qoyub ayrılırıq. Bir gün problemlərinin həll ediləcəyi ümidi və hər an birinin intihar edəcəyi qorxusu ilə...**

❑ Nərgiz LİFTİYEVA

# "Sınıq Körpü" Buraxılış Məntəqəsinin bir qoçusu var...

## Vətəndaşlar iddia edir ki, "Nehrəmli" ləqəbli Kənan Məmmədov vəziyyəti daha da pisləşdirib; onun Qazax sakinlərini döydürməsi iddiaları da yayılıb

**20 avqust səhər saatlarında Qazax rayon "Sınıq Körpü" Buraxılış Məntəqəsində nəqliyyatın və insanların gediş-gəlişində sıxlıq yaşanıb.**







Son bir-iki həftədə insanların çoxsaylı şikayətlərini nəzərə alaraq vəziyyəti yaxından araşdırmaq məqsədilə müsavat.com-un müxbiri "Sınıq Körpü" buraxılış məntəqəsinə baş çəkib. Onun yazısı:

- Səhərin gözü təzəcə açılmasına baxmayaraq, sərhəddə sıxlıq yaşanırdı. Yük maşınları, sərnişin daşıyan maşınlar boy-boya verib növbə gözləyirdi.

Əksəriyyət yaranmış vəziyyətdən şikayətçi olsa da, biri-birindən ehtiyat eləyib danışmaq istəmirdi. Ancaq başlarını bulamaqlarından, maşını bir müddətlik tərk edib bir kölgəlikdə əyləşməklərindən aydınca sezmək olurdu ki, heç kimin ürəyi boş deyil.

Buraxılış məntəqəsində növbə gözləyən Qəhrəmanov İlkinin dediyinə görə sıxlıq tez-tez baş verir, saatlarla davam edir. O bildirib ki, elə hallar olur, insanlar gömrükdə saatlarla gözləməli olurlar.

"Mən ara-sıra Gürcüstana gedib-gələn biri kimi deyə bilərəm ki, ümumiyyətlə, "Sınıq Körpü" buraxılış məntəqəsində nəqliyyatın və insanların gediş-gəlişində növbələr çox olur. Bunun da başlıca səbəbi məntəqənin işçilərinin ləng işləməsidir. Yoxlamalar həddindən artıq uzun çəkir. Gürcüstan tərəfdə isə bu prosedur çox sadədir".

**Şəxsi maşınıyla növbədə dayanan digər vətəndaş Kamal Ələkbərov isə növbələrin yaranmasının təbii hal olduğunu deyib. O qeyd edib ki, özgə ölkələrə baxanda hələ bizim gömrükçülər yaxşı işləyirlər.**

"Növbə yaranmalıdır. Bu təbii haldır. Bütün sivil dövlətlərdə də belədir. Mən İrana tez-tez gedirəm. Hər o üzə adlayıb ölkəmizə qayıtmaq üçün İran gömrüyünü keçəndə deyirəm ki, qurban olum öz ölkəmizə. Bizdə vəziyyət yaxşıdır, vallah".

**"Buraxılış məntəqəsinin rəisi "Nehrəmli" ləqəbli Kənan Məmmədov ərazidə "qoçu"luq edir. Əvvəl adamlar rahat-rahat bu üzdən o üzə, o üzdən bu üzə keçər, alverlə, müəyyən xırda-xuruş işlərlə ailəsini dolandırardı. İndi vəziyyət çox pisdir"**, - qəfil bir səs gəldi.

Bu sözləri deyən bir nəfər ağsaqqal idi. Ard-arda dayanaraq uzun-uzadı bir sıra düzəldən maşınların şəklini çəkdiyimizi görüb yaxınlaşmışdı. O əlavə etdi ki, rəis, ərazidən quş belə uçurtmur; "qoçu"larını da başına yığıb hökmranlıq edir: "Dövlətin idarəsinə "dədə mülkü"ymüş kimi münasibət göstərir".

Bu qədər şikayətə rəğmən o ağsaqqal da yaxınlıqda mağazası olduğunu bəhanə gətirib digərləri kimi çəkingənlik etdi; adını deməkdən boyun qaçırdı.

Qeyd edək ki, yazıda adı çəkilən "Nehrəmli" - Kənan Məmmədov təxminən iki ay bundan qabaq bazarlıq məqsədilə Gürcüstan tərəfə keçmək istəyən 4 nəfər Qazax rayon İkinci Şıxlı kənd sakinini "Sınıq körpü" buraxılış məntəqəsində Dövlət Gömrük Komitəsinin və Dövlət Sərhəd Xidmətinin əməkdaşlarına döydürmüşdü.

Buraxılış məntəqəsində K.Məmmədovun əlaltılarından biri də burada növbə rəisi işləyən Vüqar adlı gömrükçüdür. Onun növbədə olduğu günlərdə insanlara ikiqat qan uddurulur.

**Mövzu və reportajlar davam edəcək.**

❑ Hikmət Carçılı Orhun, Qazax

# Azərbaycan mediasında kütləvi qanun pozuntusu

## Ələsgər Məmmədli: "Burada həm etik, həm də hüquqi məsuliyyətdən söhbət gedir"



Ələsgər Məmmədli

Xəbər verdiyimiz kimi, qızı ilə birlikdə intihar edən ananın digər - itkin düşmüş qızı Aynur (ad şərtidir) tapılıb. Əksər peşəkar televiziyalar və internet media qurumları itkin düşmüş qızın hüquq-mühafizə orqanları tərəfindən hadisə yerinə gətirilməsini və aparılan əməliyyat prosesini yayımladılar. Bu zaman diqqətdən qaçan bir məqam 14 yaşlı yeniyetmə qızın üzünün açıq şəkildə göstərilməsi oldu. Nə yeni media qurumları, nə də peşəkar telekanallar bu məsələdə həssaslıq nümayiş etdirmədi.

Qeyd edək ki, 14 yaşlı yeniyetmənin adı bir cinayət hadisəsində hallanır. Onun zərərçəkən olduğu və ya cinayətin səbəbkarlarından bir olduğu hələ ki, məhkəmə qərarı ilə sübuta yetirilməyib. İstənilən halda, 18 yaşına çatmamış bir insanın üzünün göstərilməsi qanunvericilik və media etikası baxımından düzgün sayılırmı?

Məsələyə münasibət bildirən **media hüququ eksperti Ələsgər Məmmədli** qeyd etdi ki, burada medianın çox ciddi hüquqi və etik məsuliyyəti var: "Bu məsələdə hər bir peşəkar media qurumu diqqətli olmalıdır. Burada həm etik, həm də hüquqi məsuliyyətdən söhbət gedir. 18 yaşına çatmamış azyaşlının zərərçəkən qismində olduğu üçün heç bir halda onun üz görüntüləri açıq şəkildə və şəxsiyyətini identifikasiya edəcək şəkildə efirdə verilməməlidir. Bu birbaşa qanun pozuntusudur".

**Ekspertin sözlərinə görə, əgər azyaşlı zərərçəkən deyil, zərərverən olsa belə yenə də onun şəxsiyyətinin gizliliyi qorunmalıdır:** "Bu şəxs hətta zərərçəkən yox, zərərverən qismində olsaydı ki, ailəsinin intihar etməsi onun evdən qaçması səbəbindən baş verib, yenə də azyaşlı olduğu üçün onun üzüaçıq şəkildə video görüntüləri efirdə verilməməlidir, fotoları yayımlanmamalıdır. Bununla bağlı həm "KİV haqqında" qanunda, həm də "Teleradio yayımı haqqında" qanunda müddəa var. İstənilən halda cinayətdə adı hallanan azyaşlıların üzünün göstərilməsi və şəxsiyyətini müəyyənləşdirməyə imkan verəcək informasiyaların yayılması qanuna ziddir. Əgər həmin şəxs 18 yaşını keçibsə, ancaq zərərçəkən qismindədirsə onun da gizliliyi qoruna bilər" .

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 209 (5918) 21 avqust 2014

**"Dostlar, bəlkə onu bir az söndürək? Burnum axmağa başladı..." "Söndürsəz, onda da mən öləcəm".... Gün ərzində ofisdə, evdə buna bənzər dialoqlar tez-tezmi yaşanır? Bayırda şkala 42 dərəcəni göstərir, içəridə 27... Bu, divardan asılan o iri texnikanın xidməti sayəsindədir. Amma günümüzə gələnə qədər bəşər övladı istidən necə, hansı formada qorunub? Kondisioneri kəşf edən o dahi kimdir, bizi bu istilik bəlasından necə qurtarıb? Bu aləti xilaskar adlandırmaqda tələsmirik ki?**

# Palma yarpaqlarından bu günə...

## Kondisioner barədə bilmədiklərimiz



**Əvvəl palma yarpaqları, qapının ağzında yaş əskilər vardı...**

Ondan başlayaq ki, kondisionerin tarixi insanlıq tarixi qədər qədimdir. İlk insanlar bədən temperaturlarını qoruya bilmək və şəxsi komfort yaratmaq üçün heyvan dərilərindən istifadə edirdilər. Daha sonra misirli ali təbəqə palma budaqları ilə onları yelləyən əsirlərin xidmətlərindən istifadə etdi. Romalılar isə məşhur hamamlarda ventilyasiya və isitmə sistemlərindən istifadə etdilər. Amma evin sərinləməsi üçün daha praktik üsullardan yararlananlar da olub. Keçmişdə insanlar qapıların ağzına yaş həsirlər asır və ya yaşadıqları məkanı daha sərin etmək üçün çıxış yolları axtarırdılar.

Orta əsrlərdə Leonardo Da Vinçi yaxın bir dostunun evinin otaqlarını havalandırmaq üçün su gücü ilə işləyən bir alət hazırladı. Bir çox mənbələrdə qeyd edilir ki, əslində Da Vinçi öz rəhbərinin həyat yoldaşının otağın sərinləşdirmək üçün bu əziyyətə qatlaşıb. Su gücü ilə işləyən sistem bu gün istifadə etdiyimiz kondisionerin funksiyasını yerinə yetirməkdədir.

Ventilyasiya və mərkəzi isitmə 19-cu əsrdə sürətlə inkişaf edib. Buxar qazanları, radiatorlar icad edildi və istifadə edilməyə başlanıb. 1844-cü ildə U.S Marine Xəstəxanasının rəhbəri yeni soyutma aparatını tanıdıb. 1851-ci ildə isə 8080 patentini alıb. Bu, dünyadakı ilk ticari soyutma və havalandırma aparatı olub.

**Kondisionerin əsl atası - 1902-ci ildə mətbəənin sifarişi ilə əsl kondisionerlər kəşf olunub**

Kondisionerin əsl "atası" isə Vills H.Karrerdir. Kondisioner industriyasının bütün hesablamalarında bir avtoritet kimi qəbul edilən Karrier 1902-ci ildə ilk dəfə mətbəənin sifarişi ilə soyutma maşını adlı aparatı kəşf edib. 30 tonluq bu alətdən 2 il sonra o, öz icadını təkmilləşdirmək üçün əməliyyata başlayıb. 1904-cü ildə hava püskürdən kondisioner icad edib və bu icadın patentini 1906-ci ildə alıb. Bu icadın kütləvi şəkildə istehsalına isə 1920-ci illərin sonlarından başlanılıb.

Kondisionerin istifadə olunduğu ilk böyük sahə 1920-ci illərdə teatrlar olub. Daha bir yenilik isə 1930-cu ildə Du Pont şirkətindən Tomas Midqleyin Freon kondisionerə yaxın bir alət olan - otaq soyuducusunu inkişaf etdirməsi olub.

Sürətlə davam edən texniki inkişaf nəticəsində 1950-ci illərdən etibarən split tipli kondisioner cihazları istifadə olunmağa başlanıb. 1928-ci ildə Amerika Konqresinin binası, 1929-cu ildə ABŞ senatının binası kondisionerlə təmin olunub.

Daha bir detalı da yadda saxlayaq. Keçmiş SSRİ-də ilk kondisioner zavodu 1970-ci illərdə Bakıda tikilib. Maraqlıdır ki, məhz bu zavodun işçiləri üçün də Bakının Gənclik metrosu həndəvərində xüsusi binalar tikilib. Bu zavod Yaponiyanın "Hitachi" firmasının lisenziyası əsasında məişət kondisionerləri hazırlayıb. 80-ci illərdə Bakı kondisionerləri zavodu ildə 400-500 min ədədə qədər məhsul buraxıb.

**Kondisioneri vaxtlı-vaxtında təmizləməsən...**

Yay və qış aylarında mütəmadi olaraq istifadə etdiyimiz hava kondisionerlərinin bəzən insan sağlamlığı üçün təhlükəli xəstəliyə yol açdığı araşdırmalar sonunda məlum olub.

Mütəxəssislər bildirilər ki, vaxtında təmizlənməyən kondisionerlərin istifadə olunduğu mühitdə yaranan mikroorqanizmlər astma, bəzi allergiya xəstəlikləri və s. kimi xəstəliklərə yol aça bilər. Bunlarla yanaşı kondisionerlərin ağ ciyər və digər sistem xəstəliklərinə səbəb olduğu da müəyyən olunmuşdur. Yaxşı təmizlənməyən kondisionerlərdə yaranan və "Legionella pneumophilia" adı verilən bakteriyanın sətəlcəmə yol açdığı bildirilir.

Kondisionerlər vasitəsi ilə yaşadığımız mühitin temperaturunu qısa bir zamanda artırıb azaltmaq isə bəzi əzələlərin tutulması və ya ağrıması ilə nəticələnir. Mütəxəssislər bildirirlər ki, tez-tez kondisionerlərini təmizləsinlər və yatarkən ondan ümumiyyətlə istifadə etməsinlər. Gündüzlər isə ev soyuduqdan sonra 15 dəqiqə fasilə ilə işlətsinlər ki, kondisionerin mənfi təsirindən az da olsa uzaqlaşsınlar.

Mütəxəssislər müəyyən edib ki, bu halda mikroorqanizmlər yuxarı tənəffüs yollarında, ağciyərlərdə bir sıra ağır fəsadlara, hətta sətəlcəmlərə gətirə bilər. O da qeyd edilir ki, təmizlənməyən kondisionerlərdən istifadə zamanı allergik soyuqdəymə, astma kimi xəstəliklərin sayı artır.

Böyük iş yerlərində yaz-yay aylarında kondisionerdən səhv istifadə nəticəsində iş itkisi də yaşanır. Yaxşı təmizlənməyən kondisionerlərdə ortaya çıxan "Legionella pneumophilia" bakteriyası sətəlcəmə səbəb olur. Eyni zamanda kondisionerin yaratdığı hərarətlə çöldəki istiliyin kəskin fərqlənməsi nəticəsində (fərq 7-8 dərəcədən artıq olmamalıdır) əzələ tutulmaları, üz iflici (parez) və ağrılar meydana gələ bilər.

Kondisionerlərin səbəb olduğu legionella mikrobu təbiətdə, su qaynaqları içərisində və nəmli mühitlərdə var. Təbiətdən binaların su sistemləri içərisinə yerləşən mikrob, uyğun mühitdə sürətlə çoxalır və su zərrəcikləriylə insanların ağ ciyərlərinə daxil olaraq sətəlcəmə səbəb olur. Bu cür hava ilə mütəmadi nəfəs alan adamda 2 -10 gün arasında qızdırma, halsızlıq, əzələ ağrıları, iştahasızlıq, baş ağrısı kimi əlamətlər ortaya çıxır. Ancaq əksəriyyətində ilk diqqəti çəkən əlamət öskürəkdir.

Başlanğıcda quru və yüngül olan öskürək qanlı bəlğəmlə müşayiət oluna, nəfəs almada çətinliyə gətirə bilər. Xəstələrin 20 faizində qızdırma 40.5 həndəvərində olur. Xəstəliyə ən çox körpələr, yaşlılar, siqaret narkomanları, spirtli içki aludəçiləri, ürək-damar, xroniki bronxit, diabet və böyrək xəstələri, immunitet sistemi zəifləmiş şəxslər həssas olurlar.

Xəstəliklərdən qorunmaq üçün kondisionerlər, ventilyasiya sistemləri, su anbarları, bağlı sahələrdəki hovuzlar, duş başlıqları ilə bəzi tibbi alətlər diqqətlə nəzarətdən keçirilməlidir. Kondisionerin işləməsi nəticəsində havadakı rütubət azaldığı və quru havanın çəkisi artdığından burun içi toxumalarda və boğazda zədələnmələr yarana, infeksiyalar baş qaldıra bilər.

Bu cür mənfi təsirlərin görülməməsi üçün mümkün qədər təbii ventilyasiya ilə kifayətlənmək lazımdır. Çox lazım olmadıqca kondisioner yerinə məkandakı pəncərə və qapıları açıb havanı dəyişmək məqsədəuyğundur. Kondisioner işləyərkən ona ən yaxın məsafə 2 metrdən çox olmamalıdır.

Kondisioner, gün ərzində mümkün qədər az istifadə edilməli və mühitdəki nəm havanın miqdarını artırmaq üçün vaxtaşırı təbii ventilyasiya həyata keçirilməlidir.

**Havanın temperaturu 40 dərəcədirsə, kondisioner 35 dərəcə olmalıdır...**

Kondisionerin səbəb olduğu narahatlıqların qarşını almağın yolu havanı yavaş-yavaş soyutmaqdan keçir. Ümumiyyətlə, istidən böhrana düşənlər, adətən qısa zamanda sərinləşmək istəyirlər. Halbuki, kondisionerlərdən mühiti müəyyən zamanlarda yavaş-yavaş soyutmaq üçün istifadə edilməlidir. Məsələn, çöldə istilik 40 dərəcə isə kondisioner işlədiləcək mühitdə istiliyin 5 dərəcə salınması daha uyğun sayıla bilər. Kondisioner istifadə edilən mühitdə siqaret çəkmək də zərərlidir. Bu, xroniki ağ ciyər xəstəliklərini, immunitet sisteminə təsir edən müxtəlif xəstəlikləri və sətəlcəm riskini artıran faktorlar arasındadır.

**❑ Sevinc TELMANQIZI**

# Cəlilabad Əziz Əzizova niyə əziz deyil?

## Şikayətçi-əlil Fəxrəddin Muradov: "Başçının qəzəbinə tuş gələn oğlum şərlənərək həbsə salınıb..."



Əziz Əzizov

**"İcra başçıları prezidentin bölgələrdəki təmsilçiləri, məhkəmələr isə dövlətin adından hökm, qətnamə çıxaran müstəqil qurumdur. Hər halda konstitusiyada belə göstərilir. Bu kontekstdə təəssüf ki, Cəlilabadı bəxti gətirməyən rayon hesab etmək olar. Çünki burda nə icra başçısı Əziz Əzizov ölkə boyu quruculuq, abadlıq işləri həyata keçirən prezidenti layiqincə təmsil edə bilir, nə də məhkəmə sədri Ələjdər Ələkbərov müstəqillik nümayiş etdirir. Əksinə, icra başçısı 8 illik yarıtmaz fəaliyyəti ilə, məhkəmə sədri isə sifarişli qərarlar çıxarmaqla ölkə rəhbərinin abad ölkə, ədalətli cəmiyyət siyasətinə kölgə salırlar".**

**Bu sətirlərin müəllifi Cəlilabad sakini, I qrup əlil Fəxrəddin Muradovdur. F.Muradov daha sonra yazır:** "Prezidentin Ehtiyat Fondundan ən çox vəsait ayrılan rayonlardan bəlkə də birincisi Cəlilabaddır. Ancaq bu vəsaitlər Əzizov tərəfindən necə xərclənirsə, kəndlər bir yana qalsın, hətta şəhərin mərkəzi belə simasını yaxşılığa doğru dəyişmir. İH-in binasına gələn küçə istisna olmaqla qalan yerlər, şəhərdaxili küçələr bərbad vəziyyətdədir.

Gözdən pərdə asmaq üçün qismən abadlıq işləri aparılan yerlər var ki, onun da xərci icra başçısının xırda sahibkarlardan zorla aldığı töycü hesabına ödənilib. Torpağının münbitliyinə görə Cəlilabad SSRİ dövründə 2-ci Ukrayna adlandırılıb. Bu gün də Cəlilabadın o münbit torpağı maşınlarla Bakıya daşınır".

**Şikayətçinin sözlərinə görə, digər bölgələri öz torpağıyla yaşıllığa çevirən Cəlilabad şəhərinin mərkəzi səhranı xatırladır:** "Təsəvvür edin ki, şəhərin mərkəzində çoxdan salınmış bir park var ki, icra başçısına aylıq töycü verən, çoxlu sayda çayxanaların yerləşdiyi bu park belə bərbad durumdadır, sökülüb dağılır, zibil xirtdəyə çıxır. Zibildən söz düşmüşkən, qəyəsi daha çox sərvət toplamaq olan icra başçısı artıq şəhərdəki əvvəllər mövcud olan zibil yerlərini belə "hərraca" çıxararaq satıb. Nəticədə üfunət iyi verən zibil günlərlə şəhər sakinlərinin evinin qarşısında qalır. Bu rayonun əzəli sakini kimi Cəlilabad mənimçün əzizdir, amma o da həqiqətdir ki, Cəlilabad hər halda Xaçmaz, Quba, İsmayıllı deyil ki, bura müvəqqəti işləməyə göndərilən məmur özünə villa tiksin. Görünür Ə.Əzizov da bunu nəzərə alıb və burda olduğu 8 ili qonaq evində qalıb. Bakıdan nümayəndə gəlməsə, icra başçısı 5-ci gün nahardan sonra rayonu tərk edir və 1-ci gün axşamtərəfi qayıdır. Ancaq vilası olmasa da başçının aylıq gəlir gətirən obyektləri yetərincədir. Onlardan biri də "Tut bağı" adlanan yerdə tikdirdiyi şadlıq evidir. Qeyri-rəsmi göstərişə əsasən rayonda aşağı vəzifə daşıyan şəxs belə xeyir işini mütləq bu şadlıq evində keçirməlidir. Başçının çörək sexi də tam gücündə işləyir. Əksər vaxt gecə Cəlilabadın mərkəzi zülmət qaranlığa qərq olanda, qaz kəsiləndə çörək sexində işıqlar yanır, qaz problemi yaşanmır. Hətta fövqəladə hal yaranıb qaz kəsilsə çörək sexinin anbarına doğranıb yığılan qiyməti ağacların odunları iş ahənginin pozulmasına imkan vermir.

Müəllimlər, həkimlər, bir sözlə, büdcədən maliyyələşən təşkilatda çalışanları iməcilik adı ilə məcburi əməyə cəlb edilməsi hesabına da başçı qazanc əldə edir. Belə ki, onların gördüyü iş Kommunal Təsərrüfatı Birliyinin işi kimi qeydə alınaraq büdcədən çıxarılan vəsait mənimsənilir".

**F.Muradov daha sonra yazır:** "Bu gün 50-100 manat rüşvəti də qəbul edən icra başçısına mən də çox xeyir verməşəm. Belə ki, müxtəlif vaxtlarda ondan 7 sərəncam almışam ki, bunlardan da ən ucuzunun qiyməti 3 min manat olub. Baxmayaraq ki, mənim istəyim tam qanuni olub. İki azyaşlı uşaq atası olan oğlum Səid də məhz "tamahı Murtuzəli qılıncından iti" Ə.Əzizovun tamahının qurbanı olaraq bu gün zindanda yatır. Belə ki, başçı oğlumun şəriki Mirşahin Əliyevdən 7 kvm yer üçün 5 min manat istəyib. Oğlum Səid də başçının qəbuluna gedib və ona etirazını bildirib ki, bu dərəcədə qansızlıq olmaz, kiçik bir yer üçün bu məbləği tələb etmək ədalətsizlikdir, sahibkarlara şərait yaratmağı tələb edən prezidentin siyasətinə qarşı çıxmaqdır. Başçı da haqq, ədalət tələb edən, hüququnu bilən bu "dikbaş" gəncdən yaxa qurtarmaq üçün statusuna yaraşmasa da həmişə onunla hərlənən rayon məhkəməsinin sədri Ə.Ələkbərovla bir böhtan tamaşası quraraq onu həbs etdirib".

**Şikayətçi qeyd edir ki, oğlu başçının qəzəbinə tuş gələrək həbs olunan sayca 13-cü rayon sakinidir:** "Belə ki, Əzizov onun rüşvətxorluğuna açıq şəkildə etiraz edən, yuxarı instansiyalara şikayət məktubu yazan rayon sakinlərini müxtəlif formada şantaj edərək, şər və böhtana məruz qoyub, məhkəmənin sədri Ə.Ələkbərovun əli ilə həbs etdirir. Mən prezidentdən xahiş edirəm ki, onun siyasətinə kölgə salan rayon sakinləri arasında çoxdan nüfuzunu itirmiş Əzizovun fəaliyyətinin yoxlanılması üçün aidiyyəti qurumlara, o cümlədən Hesablama Palatasına, Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göstəriş versin və bu yoxlamaların nəticələrinə uyğun olaraq da qərar qəbul etsin".

**❑ Hazırladı: Rövşən K.**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq borularının keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**

# Hüquq müdafiəçisindən həbsdəki vitse-admirala yeni ittihamlar

## **Bəxtiyar Məmmədov:** “Elə zabitlər olub ki, öz qanunsuz əməllərinizlə onları intihar həddinə çatdırmısınız... atəşkəs dövründə müharibə veteranı statusu almısınız...”

**“Şahin Sultanov danışdıqca batır. Bu adam dərk etmir ki, oğurladıqlarının miqyası o qədər böyükdür ki, Dövlət Bayrağı Meydanının altına da sığmır”. Bu sözləri redaksiyamıza yolladığı məktubda hüquq müdafiəçisi, “İnamla Hüquq” MMC-nin direktoru Bəxtiyar Məmmədov yazıb.**


Şahin Sultanov


Bəxtiyar Məmmədov

Məktub müəllifi Hərbi Dəniz Qüvvələrinin (HDQ) həbsdəki vitse-admiralının cinayətlərini ört-basdır etməyə uğursuz cəhdlər göstərdiyini bildirir: “Sultanov son günlər heç bir əsas və səbəb olmadan həbs olunması barədə təəssüf və gülünc doğuran ittihamlarla müdafiə naziri Zakir Həsənov və hərbi prokuror Xanlar Vəliyevi və hərbi prokurorun müavini, general-mayor Rasim Kazımovu suçlayır. Şahin Sultanov ”Azadlıq"a məktubunda göstərir ki, 1950-1960-ci illərdən qalmış HDQ-nin gəmilərində istifadə olunmayan mühərriklərdən silinmiş ehtiyat hissələri “Yeni Bulvar” adlanan ərazidə vaxtilə HDQ-nin gəmi təmiri zavodu və texniki vəsaitlər anbarında yerləşib. Guya bulvarda inşaat işləri aparan şirkət icazəsiz gecə vaxtı anbarları dağıdıb və əmlak daşların və beton piltələrin altında qalıb. Bu adam bilir ki, kimsə “Yeni Bulvar” dediyi ərazini qazıb dediklərinin doğru-dürüst olduğunu yoxlamayacaq. Ona görə də oğurladığı milyonların guya “Yeni Bulvar”da, Dövlət Bayraq Meydanın özülü altında qalması haqda uydurmalarla yaxasını dövlətin əlindən kənara çıkmək istəyir".

**Müəllif daha sonra bildirir:** “Əvvəla, siz HDQ-nin gəmilərinə məxsus mühərrikləri, avadanlıqları ”Yeni Bulvar", onun ərazisində salınan Dövlət Bayraq Meydanı ideyası olmazdan illər öncə, HDQ-yə məxsus gəmilər vasitəsilə qaçaqmalçılıq fəaliyyəti göstərdiyiniz zaman Qazaxıstan və Türkmənistan dövlətlərinə daşıyaraq satmısınız. Bu barədə 2012-ci ildə “ Yeni Müsavat”a göndərdiyim məktubda yazmışam. Məndən illər əvvəl isə “Azadlıq” qəzetində də Şahin Sultanovun korrupsiyası, oğurluqları haqda dəfələrlə yazılar dərc olunub. Sizin qaçaqmalçılıq fəaliyyətinizlə əlaqədar müxtəlif kütləvi informasiya vasitələrində müraciətlərim çap olunub, lakin bu günə qədər də cinayət faktlarınızı təkzib etməmisiniz. Əgər istintaq araşdırmaları qeyd etdiyim faktlar üzrə ciddi araşdırmalar aparArsa, həmin faktlar üzrə nəinki dövlətə dəymiş ziyan 5 milyon deyil, azı 15-20 milyon dəyərində ola bilər. Yazırsınız ki, şər və yalanla həbs olunmusunuz. Guya savadı olmayan Rasim Kazımov sizə təzyiq edib. Prezident tərəfindən ali rütbəyə layiq görülmüş şəxsi bu qədər aşağılayırsınız, mafiya babası olaraq dövlət əmlakını oğurlayıb adınızı da Heydər Əliyevin kadrı qoyursuz. Bəlkə danışmazdan əvvəl bir az dərin düşünəsiz?"

**Hüquq müdafiəçisi Ş.Sultanov şəxsu əxlaqi keyfiyyətlərinə toxunaraq yazır:** “Dövlət əmlakından oğurladığınız pullarla ”Hökümət evi"nin yaxınlığında 2 milyon dollar dəyərində gizli eviniz olub. Bunu HDQ-də bilənlər bilir. Oradakı iyrənc macəralarınız haqda da məlumatlar var. Onu da hamı bilir ki, 28 hərbiçi ailəsinə çatacaq 2 milyon manatı da yoxa çıxarmısınız. Evlərindən çıxmaq istəməyən zabitlərin, onların ailə üzvlərinin başına açdığınız oyunlar da həmçinin hamıya agahdır. Bu həqiqətləri gizlətmək üçün hər kəsə şər atırsınız".

**B.Məmmədov Ş.Sultanovun vətənpərvərlik haqda fikirlərinin də saxta olduğunu yazır:** “2 oğlunuzdan birinin adını Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissəyə yazdırmısız. O, Bakının küçələrində öz kefini çəkdiyi vaxtda digər oğlunuzun isə heç bir əsas və səbəb olmadan, qeyri-rəsmi olaraq məhdudiyyət əldə etməklə bu günə qədər hərbi xidmət keçməyib. Özünüz isə 1994-cü ilin may ayında döyüş bölgəsinə getməklə atəşkəs dövründə müharibə veteranı statusu almısınız. Bunu heç vətən xaininə də rəva bilməzdim. Ancaq siz məktubunuzda göstərirsiniz ki, guya Azərbaycanın ilk admiralısınız və HDQ-ni siz yaratmısınız. Bildirirəm ki, Azərbaycan Respublikasının ilk admiralı Rafiq Əsgərovdur və HDQ-nin bütün növləri üzrə bu şəxs vətənə canla-başla xidmət edib, hörmətlə-izzətlə də təqaüdə çıxıb. Hazırda da alnı-açıq, üzü-ağ, öz xoşbəxt həyatını yaşayır. Tam məsuliyyətimlə bildirirəm ki, HDQ-ni yaratmamısınız, əksinə məhv etmisiniz. Müharibə gedən bir ölkədə saysız-hesabsız kadr zabitləri öz şəxsi maddi maraqlarınız zəminində ləkələmisiniz və milyon manatlarla dövlət əmlakını mənimsəmisiniz. Elə zabitlər olub ki, haqqını yemisiniz, özünüzün qanunsuz əməllərinizlə siz onları intihar həddinə çatdırmısınız. Hazırda həbsdə olan HDQ-nin bir çox zabitlərinin haqsız olduğunu bildirirsiniz. Çox gülünc doğuran bir fikirdir. Milyard manata yaxın dövlət əmlakını başçılığınız altında oğurlanması, talan edilməsi faktlarına görə özünüzü və digər quldur dəstəsinin üzvlərini günahsız bilirsiniz.

Müdafiə nazirini qınayırsınız. Bu günədək başa düşə bilmirsiniz ki, hər addımda törətdiyiniz cinayət əməlləri, faktları ilə rastlaşan yeni təyin olunmuş nazir, sizinlə heç bir cinayət ortaqlığına qol qoymaq istəməyib. Elə bu səbəbdən də səninlə heç bir ünsiyyət saxlanılmayıb".

**Hüquq müdafiəçisi HDQ-yə məxsus yeni hərbi bazanın tikintisində Ş.Sultanov və Etibar Pirverdiyevin keyfiyyətsiz tikinti materiallarından istifadə etdikləri haqda da məlumat verir:** “Yeni baza Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının 96-cı ildönümü günü açılmalı idi. Lakin açılmadı. Korrupsioner cinayət əməlləriniz buna imkan vermədi. Budurmu sizin admirallığınız? Sən Şahin Sultanov 14 il HDQ-ni altını üstünə çevirərək milyonlarla manata yaxın büdcə pulunu təşkilatçısı olduğun cinayət dəstəsi ilə mənimsədiyin halda başını başlara qoşursan. Cinayət ortağınız Elxan Hacıyevi, onun ailə üzvlərini təqsirli bilirsiniz. Amma başa düşmürsünüz ki, siz həmin şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasında günahkar özünüzsünüz. Çünki həmin şəxslər sizə rəhbər olmayıb, siz onların rəhbəri olmusunuz. Onların cinayət törətməsinə şərait yaratmısınız. Son 2 ay ərzində cinayət əməllərindən 28 fakt üzrə mətbuatda ətraflı açıqlamalar vermişəm. Hərbi Prokurorluqdan tələb edirəm ki, bu günə qədər yazılı vermiş olduğum ifadəm əsasında, eləcə də indiyədək kütləvi mətbuat vasitələri ilə Şahin Sultanovun, onun quldur-oğru dəstəsinin törətdikləri bütün cinayət faktları üzrə ciddi araşdırmalar aparılsın”.

❑ **E.HÜSEYNOV**

**Elan**

**Mustafayeva Zərifə Şirvan qızının adına olan şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Təcili olaraq, başqa ölkəyə köçməyimiz səbəbinə görə, Qəbələdə 60 sot ərazisi olan, dağın lap ətəyində yerləşən, suyu, işığı, qazı, meyvə verən şabalıd, qoz, fındıq, qızıl əhmədi alması və s. meyvə ağacları olan gözəl bir bağ təcili olaraq, çox münasib qiymətə satılır. Ciddi fikri olmayanlar zəng vurmasınlar.**

**Tel: (050) 371-01-60; (070) 335-90-15**



YENİ MÜSAVAT
N 322 (5680) 4 dekabr 2013







# İstilərə görə Bakıda açıq havada işlər dayandırıldı

## Günün altında qovurulan fəhlələrin səsi eşidildi, işəgötürənlərə xəbərdarlıq edildi

**Sinoptiklər neçə gündür ki, avqustun 19 və 20-də Bakıda havanın hərarətinin ən yüksək həddə çatacağını deyir və əhalini məcbur qalmadıqca açıq havada olmamağa çağırırdı. Proqnozlar özünü doğrultdu. Son iki gün Bakıda dəhşətli istilər oldu. Bu istilərdə paytaxtda xeyli adam 40-45 dərəcə günəş istisində işləməyə məcbur oldu. Bunlar isə əsasən fəhlələrdir. Əmək Məcəlləsinə görə temperatur 41 dərəcəyə çatdıqda iş prosesi avtomatik dayandırılmalıdır və açıq hava şəraitində işləyənlər sərin düşənədək işləməməlidir. Ancaq avqustun 19-da paytaxtın bəzi hissələrində apardığımız müşahidələrimiz zamanı məlum oldu ki, günün altında qovurulan fəhlələrin bu hüquqları tapdalanır. Açıq havada temperatur 43 dərəcəni göstərir. Fəhlələr isə dayanmadan çalışır.**

**Onların vəziyyəti ilə daha yaxından tanış olmaq üçün tikinti gedən bir neçə məkana baş çəkdik.** İlk baş çəkdiyimiz məkan metronun "Koroğlu" stansiyasının yaxınlığındakı tikinti oldu. Orada çalışan fəhlələr istidən halsız vəziyyətə düşmüşdülər və hər birinin də əlində bir şüşə su vardı. Onlar qan-tər içində sudan içir və qızmar günəşin şüaları altında qum daşıyır, qaynaq işi görür, daşları kənara atırdılar. Fəhlələrdən bir neçəsi isə kölgəyə çəkilib bir qədər dincəlirdi. Biz də istidən əldən düşmüş və kölgəyə çəkilmiş fəhlələrdən birinə yaxınlaşdıq. Əvvəlcə danışmaq istəməyib "çıxın gedin, məni işimdən edəcəksiniz" desə də, sonradan danışmaq qərarına gəldi. Adının Sabir olduğunu deyən şəxs qaynaqçı olduğunu bildirdi: "İşləməyib neyləyəcəyik ki?! Çörək istəyiriksə işləməliyik. Hər kəs istəyir ki, işi tez qurtarsın. Heç kim biz kasıb təbəqənin bu istidə vəziyyətini nəzərə almır. Əsas odur ki, biz bu varlıların işini vaxtında görək".

**Söhbətə qatılan ancaq adının çəkilməsini istəməyən digər fəhlə isə "biz fəhlələri adam yerinə qoyan yoxdur" deyir:** "Göydən od yağır. İşləmək artıq mümkünsüz hala çevrilib. Bir saatdır ki, başımdan ağrı tutub. Amma yenə də dayana bilmərəm. Heç olmasa, bu cür isti havada işi dayandırsalar yaxşı olar. Ehtiyac üzündən, bir tikə çörək qazanmaq üçün günün altında işləməyə məcburuq. Tikinti sahibləri bizə işi dayandırın deməsə, dayandıra bilmərik. Əgər bir gün işləməsək çətin vəziyyətə düşərik. Nə edək, yenə də ailəmiz, uşaqlarımız üçün edirik. Ac qalmasınlar. Nə olar ki, fəhləyik? Fəhləni niyə adam yerinə qoyan yoxdur?!"

**"Yaşıl bazar"ın yaxınlığındakı tikintidə çalışan fəhlələr də eyni vəziyyətdə idi. Qaldırıcı kran maşını işlədən şəxs dedi ki, maşının içində olduğu üçün onun işi bir az asandır:** "Mən maşında otururam. İşim tikinti materiallarını qaldırıb harasa qoymaqdır. Düzdür, maşın da istidir. Ancaq ən azından günəşin altında deyiləm. Fəhlələrin vəziyyəti çətindir. Onlar günün altındadır".

**Günün altında çalışan fəhlələrdən onların 40 dərəcədən yüksək temperaturda işləmək hüquqlarının olduğunu bilib-bilmədiklərini soruşduq. Adının çəkilməsini istəyən fəhlə "kimdir bizim hüquqlarımıza baxan" deyərək bunları söylədi:** "Bizim hüquqlarımız heç kimin vecinə deyil. Neçə gündür ki, istidir. Bir dəfə deyən olmayıb ki, heç olmasa 1-2 saat istirahət edin. Biz demirik ki, bütöv günü işləməyək. Ən azından günorta saat 12-dən 5-ə qədər işləməyək. Sonra istəyirlər səhərə qədər işləyək".

**Göründüyü kimi, elə insanlar var ki, onlar ailələrinin çörəkpulu qazanmaq üçün hər cür ağır işlərdə çalışmaq məcburiyyətində qalır.** Amma hər bir işəgötürənin qanun qarşısında öhdəliyi var və buna əməl etmək məcburiyyətindədir. Ən azından insanlıq baxımından da işçinin halına yanmaq, isti havalarda onun bir neçə saatlıq da olsa, dincəlməsinə şərait yaratmaq olar. Amma təəssüf ki, hər kəs belə düşünmür. Hər halda bu gün qızmar günəş altında çalışdığını gördüyümüz işçilər bizə bu qənaətə gəlməyə əsas verir.

**İsti havada çalışmağın insanın sağlamlığına hansı problemlər yaratdığını isə tibb elmləri doktoru, professor Adil Qeybulladan öyrəndik.** Professor bu cür istilərin insanların, xüsusən də açıq hava şəraitində işləyənlərin səhhətinə pis təsir etdiyini dedi: "Əmək Məcəlləsinə görə açıq havada işləyənlərə müəyyən iqlim şəraitində, sağlamlığa neqativ situasiyalarda istirahət verilməlidir. Bu təbiətin yaratdığı təbii bir fəlakət kimi nəzərə alınmalıdır və sağlamlıq baxımından onlara istirahət verilməlidir. Elə ölkələr var ki, orada istiyə hazırlıq var. Amma ölkələr də var ki, orda istiyə, soyuqlaşmaya qəti hazırlıq görülmür. Bu cür hallar uzun müddətli olmadığı üçün işçiyə istirahət verməklə onların səhhətini normal qorumaq lazımdır. Gün və isti vurma zamanı ilk növbədə həmin şəxs sərin bir yerə keçirilməli, yəni zərərverici amilin sonrakı təsiri aradan qaldırılmalıdır. Daha sonra həmin şəxsin alnına və yaxud da bədəninə yaş dəsmal qoyulmalıdır. Bununla da bədən temperaturu aşağı salınmalıdır. Həmçinin belə hallarla üzləşən şəxslərə çoxlu maye vermək lazımdır. Daha sonra isə mütləq həkim çağırılmalıdır".

Qeyd edək dünən də biz paytaxtda müşahidələrimizi davam etdirdik və öyrəndik ki, avqustun 20-də ölkədə havanın temperaturunun +41 dərəcə selsidən yuxarı olduğu nəzərə alınaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən idarə, müəssisə və təşkilatlarda işçilərin həyat və sağlamlığının mühafizəsi məqsədilə açıq hava şəraitində işlərin saat 17.00-dək dayandırılması barədə aidiyyəti işəgötürənlərə göstəriş verilib.

Dövlət Əmək Müfəttişliyi Xidməti bildirib ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, bütün işəgötürənlər, mülkiyyət formasından asılı olmayaraq, acıq havada və soyuducu qurğuları olmayan, örtülü yerlərdə bütün növ işləri dayandırmalı və yaxud işçilərin sərinləməsi üçün fasilələr verməlidirlər. Fasilənin sayı və müddəti işəgötürənlə Həmkarlar İttifaqının birgə qərarı əsasında müəyyən olunur. Verilmiş bütün fasilələr iş vaxtına daxil edilir və aylıq tarif maaşına hesablanır.

**Əmək Məcəlləsindən irəli gələn müvafiq tələblərin yerinə yetirilməməsinə görə işəgötürənlər İnzibati Xətalar Məcəlləsi (İXM) ilə məsuliyyətə cəlb edilirlər. İXM-nin 54-cü maddəsinə əsasən, işçilərin əməyinin mühafizəsi qaydalarının pozulmasına görə işəgötürənlərin 1000 manatdan 2000 manata qədər cərimə olunması nəzərdə tutulur. Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən hazırda ölkəmizin bütün regionları, xüsusən aran zonaları üzrə bu sahədə vəziyyətə dövlət nəzarətini təmin etmək üçün işçi qrupları yaradılıb.**

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# "İstidə işi dayandırmayan sahibkar cinayət məsuliyyətinə cəlb oluna bilər"



## Qızmar günəş altında çalışanların yanan əmək hüquqları

**20 avqustda Azərbaycanın bəzi rayonlarında son 100 ilin rekord istiləri qeydə alındı. Bir çox bölgələrdə, temperatur insan sağlamlığı üçün təhlükəli olan dərəcəyə çatdı. Bu istilərdən ən çox əziyyət çəkənlər isə, açıq havada, günəş şüaları altında çalışanlar oldu. Bəs, ölkə qanunvericiliyi bu kimi hallarda, işçilərin əmək hüquqlarının qorunması üçün nə nəzərdə tutub?**

Hər hansı bir fəhlənin günorta saatlarında, açıq havada qızmar günəş şüaları altında çalışması düzgündürmü?

Sualımıza aydınlıq gətirən **Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov** qeyd etdi ki, sözügedən halda iş dayandırılmalı, bu mümkün olmadıqda isə önləyici tədbirlər görülməlidir: "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə görə, əgər havanın temperaturu 41 dərəcəni keçirsə, bu zaman havanın süni surətdə tənzimlənməsi mümkün olmayan yerlərdə, açıq havada, kondisioneri olmayan yerlərdə iş dayandırılmalıdır. Ancaq elə iş yerləri var ki, orada işi dayandırmaq mümkün deyil. Bu zaman işəgötürən əlavə tədbirlər görməlidir. Məsələn, işçilərə sərinləşdirici içkilər vermək, istidən qorunmaq üçün xüsusi baş örtüyü, həsir papaqlar paylamaq, işçiləri qorumaq üçün çətirlər quraşdırmaqla kölgəlik yaratmaq və sair. İşəgötürən maksimum çalışmalıdır ki, işçinin səhhətinə zərər dəyməsin. Çünki istinin və günvurmanın da fəsadları çox ağırdır, hətta ölümlə nəticələnə bilər. İşə götürən işi dayandırmırsa və ya bu cür tədbirlər görmürsə, bu zaman o, əməyin mühafizəsi qaydalarını kobud şəkildə pozmuş olur və buna görə, inzibati xətalar məcəlləsində nəzərdə tutulmuş müddəalarla məsuliyyət daşıyır. Ağırlaşdırıcı halda isə, əgər ölüm hadisəsi baş verərsə, cinayət məsuliyyətinə cəlb oluna bilər".

**Ekspert qeyd edib ki, əməyin mühafizəsi işinə Dövlət Əmək Müfəttişliyi nəzarət edir və onun ixtiyarı var ki, belə işəgötürənlərə qarşı sərt inzibati tədbirlər görsün, hətta həmin iş yerinin fəaliyyətini müəyyən müddət dayandırmağa da səlahiyyəti çatır:** "Ancaq mən müşahidələrimə əsaslanıb deyirəm ki, hər yerdə, açıq havada günəş şüaları altında iş davam etdirilir. Düzdür, bu məsələyə görə, məsuliyyət və səlahiyyət sahibi Dövlət Əmək Müfəttişliyidir, ancaq onların da işçilərinin sayı 263 nəfərdir. Onlar istəsələr belə hər yerdə nəzarəti həyata keçirmək imkanında deyillər. Əlbəttə ki, reydlər keçirilməlidir, tədbirlər görülməlidir.

Ancaq digər tərəfdən onların da səlahiyyəti məhdudlaşdırılıb, fövqəladə hadisələr istisna olmaqla, onlar iş yerlərinə xəbərsiz gedə bilməzlər. Bu işəgötürənlərə imkan yaradır ki, əvvəlcədən əmək müfəttişliyinin gəlişindən xəbər tutsunlar və tədbir görsünlər. Ancaq yenə də, Əmək Müfəttişliyi əməkdaşları insan sağlamlığı üçün təhlükəli olan belə havalarda müəyyən tədbirlər görməyə borcludurlar".

Qeyd edək ki, 20 avqustda, günorta saatlarında Dövlət Əmək Müfəttişliyi açıq hava şəraitində çalışanların sağlamlığının qorunması üçün, aidiyyatı işəgötürənlərə saat 17:00-a kimi işlərin dayandırılması ilə bağlı göstəriş verib.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Fuad Əlizadə modern.az-a bildirib ki, dünənə qədər Bakı şəhərində 41 dərəcə isti müşahidə olunmamışdı: "Rəsmi məlumat bu gün verilib. Bu gün Bakı şəhəri və respublikanın digər rayonlarında tapşırıqlar vermişik, saat 10:30- dan müfəttişlərimiz ərazidədirlər. Əgər açıq hava şəraitində, günün altında sahibkarlar öz işçilərini işlədirlərsə, biz işçilərin sağlamlığı üçün həmin dəqiqə o işi dayandıracağıq və nəzərdə tutmuşuq ki, saat 17-ə kimi işlər dayandırılsın".

Əmək Qanunvericiliyinin 233-cü maddəsinə soyuq və isti hava şəraitində fasilələrlə işin dayandırılması nəzərdə tutulub. Əgər isti hava şəraitində temperatur 41 dərəcənin üzərindədirsə, açıq hava şəraitində iş dayandırılmalıdır. Əgər iş örtülü yerdədirsə və sərinləndirici vasitələr yoxdursa, bu halda da fasilələr verilməli və ya iş dayandırılmalıdır.

**Ancaq buna baxmayaraq, paytaxt Bakıda, xüsusən də tikinti sektorunda iş davam etdirilib və heç bir önləyici tədbirlər görülməyib.**

❑ **Nərgiz LİFTİYEVA**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 209 (5918) 21 avqust 2014*




## Ən ölümcül xəstəliklər

**QİÇS - 1981-ci ildən bu yana 25 milyon can alıb. HİV virusu səbəbi ilə bədənin immunitet sistemini çökdürən bir çox infeksiya QİÇS dünyada olduqca geniş yayılmış bir xəstəlikdir.**

**İspaniya qripi** - 1918-19-cu illər arasında görülən A tipli H1N1 virusu 100 milyon can alıb.

**Vəba** - Bu xəstəliyi daşıyan siçan və birələrin dişləməsiylə insanlara yoluxur. 250 milyon insanın ölümünə səbəb olub.

**Sıtma** - Hər il 3 milyon insanın ölümünə səbəb olan bu xəstəlik ağcaqanad dişləməsi ilə yoluxur. Tropik bölgələrdə daha çox rast gəlinir.

**Uşaq iflici** - Virus səbəbindən yaranan yoluxucu infeksion xəstəlikdir. Sinir sistemini məhv edərək qalıcı iflic və ölümlərə səbəb olur. Daha çox 3 yaşdan aşağı uşaqlara təsir edir. 1916-ci ildən günümüzə qədər 10 min insan bu xəstəlikdən ölüb.

**Xolera** - 1991-ci ildən bu yana 12 min cana bais olan xolera Vibruio Cholerae bakteriyası ucbatından bağırsaq infeksiyasına bağlı, kəskin və şiddətli ishal ilə rastlanan bir xəstəlikdir. Bu xəstəlik artıqların bulaşdığı, kirli su, ya da bu sularla yuyulmuş qidalarla yoluxulur.

**Çiçək xəstəliyi** - Xəstəliyin Variola Major və Variola Minör olaraq adlanan iki klinik tipi var. V major tipinin öldürmə nisbəti yüzdə 35 olunca, V minörün öldürücü təsiri yüzdə 1-dir. Bu xəstəlikdən qorunmanın yeganə yolu peyvənddir.

**13-cü yüzillikdə partlayan Vəba xəstəliyi çox geniş yayılaraq Avropanı da öz əhatəsinə alıb.** 75 milyon insanın ölümünə yol açan bu xəstəlik, ağrı, qızdırma və ürək bulanması ilə başlayır. Çünki bu xəstəliyə yoluxanlar ən az 5 gün içində ölür.

**Ebola Eha** - 1976-cı ildən bəri bilinən olduqca ağır bir xəstəlikdir. Meymunlarda və insanlarda daha çox rastlanır.

## 133 min dollarlıq şokolad vannası

**Xüsusilə şokoladdan hazırladığı əşyalarla tanınan "Choccywoccydoodah" firması indi də şokoladdan vanna otağı hazırlayıb. İngiltərənin Bristol şəhərində çalışan dizaynerlər qrupu təmiz Belçika şokoladından vanna, tualet və əl-üz yuyan hazırlayıb. İnternetdə 133 min dollara satılan vanna otağı istifadəyə yaramasa da, gözəl görünür. Hər kəsə "Çarlinin şokolad fabriki" adlı filmi xatırladan vanna otağı 9,4 milyon kaloridir.**



2000-ci ildən günümüzə kimi 160 min insanın ölümünə yol açıb. RNA virusudur (ailem.az).

## Pis ruha görə öldürdülər

**Çində baş verən hadisə görənləri şoka salıb. "Sinxua" xəbər agentliyinin yaydığı məlumata görə, "Quennengshen" təriqətinə mənsub olan beş nəfər bir qadının daxilində pis ruh olduğunu deyərək onu döyüb öldürüblər. 37 yaşlı qadın kafedə oturarkən beş nəfər ona yaxınlaşıb və telefon nömrəsini istəyib. Nömrəsini onlara vermək istəməyən qadın beş nəfər oğlan tərəfindən döyülərək öldürülüb. Şəhərdəki kafelərin birində baş verən hadisəyə heç kəs müdaxilə etməyib. Qadın xəstəxanaya çatdırılsa da, onu xilas etmək mümkün olmayıb. Təriqət üzvləri isə həbs edilib.**

Məlumatlara görə, adıçəkilən təriqətin üzvləri nömrələrini əldə etdikləri adamları onlarla birlikdə eyni mənsəbə qulluq etməyə dəvət edirlər.





## Danışan maşınlar gəlir

**Amerikanın nəqliyyat naziri Antoni Foks nəqliyyat vasitələri arasında əlaqə yaratmaq üçün yeni texnologiyaların inkişafı haqda göstəriş verdiyini deyib. Nazirin sözlərinə görə, yeni yaradılacaq texnologiyalar son zamanlarda artmaqda olan maşın qəzalarının da azalmasına səbəb olacaq. Yeni istehsal ediləcək maşınlara quraşdırılacaq texnologiyalar öz aralarında əlaqə yarada və danışa biləcək. Beləliklə, yeni texnologiya yollarda təhlükəsizliyi də təmin edəcək. Nazirin sözlərinə görə, Amerikadakı yollar danışan maşınlar üçün olduqca əlverişlidir. Yeni texnologiyanı son illərdə istehsal edilmiş maşınlara da tətbiq etmək mümkündür. Hər hansı bir maşına bu texnologiyanı quraşdırmağın qiyməti isə 100-200 dollardır.**




**QOÇ - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.**

**BUĞA - Bu təqvimdə uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağa çalışın. Əgər başqa vaxta saxlasanız, səmərəli olmayacaq. Bağ-bağatda işləmək üçün bu təqvimin böyük əhəmiyyəti var.**

**ƏKİZLƏR - Astroloji göstəricilər sizin zodiaka məsləhət görür ki, əsas üstünlüyü sevgiyə yönəldəsiniz. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə tam ümidlə baxın.**

**XƏRÇƏNG - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Səhhətinizə qayğı göstərin.**

**ŞİR - Bürcünüzün ən uğurlu məqamlarını yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Qərarlarınızda qətiyyətli olun.**

**QIZ - Qonaq getmək üçün günün ikinci yarısı münasibdir. Amma hər hansı fiziki işlərə başlamaq, yeni müqavilələr bağlamaq yolverilməzdir. Ailə münasibətlərində obyektiv addım atın.**

**TƏRƏZİ - Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. Bir tərəfdən maraqlı görüşlər, digər tərəfdənsə perspektivli sövdələşmələr sizi sevindirəcək. Büdcənizdə artım da mümkündür.**

**ƏQRƏB - Tay-tuşlarınızla müəyyən mübahisələriniz gözlənilir. Özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 13-dən 17-yə qədər şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər.**

**OXATAN - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.**

**OĞLAQ - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhətdir. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Axşama doğru qazanmaq ehtimalınız var.**

**SUTÖKƏN - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.**

**BALIQLAR - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki həftə boyu bu istiqamətdə uğurlarınız artacaq. İndi yalnız görəcəyiniz işləri konkretləşdirməlisiniz.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yeni "iPhone" hamını sevindirəcək

**Yaxın zamanlarda təqdimatı gözlənilən yeni "iPhone 6" smartfonunun simsiz enerji doldurma portu ilə təchiz ediləcəyi bildirilir. Smartfonun internetdə yerləşdirilən şəkillərində qurğunun ön hissəsində aydın şəkildə yeni port görünür ki, ondan da simsiz enerji doldurma üçün istifadə ediləcəyi gözlənilir. Bu il mobil bazara çıxarılan bir çox Android telefonların 2, 3 GB RAM-a sahib olmasına baxmayaraq, yeni "iPhone"da 1 GB RAM olacağı vurğulanıb. İlkin məlumata əsasən, yeni məhsul ABŞ bazarında 750 dollara satılacaq.**




**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565